www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 may 2016-cı il Cümə axşamı № 114 (6435) Qiyməti 60 qəpik

**Xəbər**

## İlham Əliyevə "Dünyada ilin adamı" mükafatı verildi

yazısı səh.3-də

**Gündəm**

### İqtidar Xədicə İsmayılı azad etdi, dünya qərarı təriflədi...



Jurnalist mediadan getməyəcəyini dedi; **Pedro Aqramunt:** "Bu qərar Azərbaycanın dönüş nöqtəsində olması ilə bağlı inamı bir daha təsdiqləyir"

yazısı səh.2-də

### Qəzetlər vergidən boğulur - ƏDV niyə götürülmür?

yazısı səh.6-da

### Çeçenistanı Bakı üçün əhəmiyyətli edən nədir?

yazısı səh.9-da

### Sərkisyan prezidentlərin iyun görüşünü poza bilər

yazısı səh.11-də

### Politoloqdan Qarabağdakı monitorinqlə bağlı etiraz və xəbərdarlıq

yazısı səh.9-da

### "Azəriqaz" ləğv olunur?

yazısı səh.12-də

*Tofiq Yaqublu:*

### "Gürcüstanda ermənilərlə azərbaycanlılar arasında normal münasibət var, belə də olmalıdır..."

yazısı səh.10-da

*Xalq artisti Oktay Mir-Qasım:*

### "Arzu edirəm ki, o günü görüm, sonra ölmək də olar"

yazısı səh.13-də

### Rayonlara yağan güclü dolu ciddi fəsadlar törətdi

yazısı səh.12-də

*Şəhid Vüqar Süleymanovun anası:*

### "Təsəllimiz odur ki, oğlum qələbə şəhidlərindəndir"

yazısı səh.4-də

### İlhamə Quliyevanın ölümünə dair ilginc iddialar

yazısı səh.14-də

## Kremldən Bakıya və Qərb paytaxtlarına ilginc təhdid

# PUTİNİN MÜŞAVİRİ "DONBAS" DEYİB QARABAĞI İŞARƏ VERDİ - "SEPARATÇI ƏRAZİLƏR BİZLİKDİR!"

Rusiya Avropa və Amerikanı Qafqazla şantaj edir; Bakı üçün şərtlər dəyişir; Azərbaycanın İsraildəki adamı isə hakimiyyətə qayıdır - ermənilərin və rusların "ən pis yuxusu" tezliklə çin ola bilər...




yazısı səh.8-də

## Eldar Mahmudovun şifrəli mesajları haqda heyrətamiz məlumatlar

Sabiq nazir əlindəki kompromatlardan istifadə etməklə özünü qoruyur - iddia

yazısı səh.5-də



*Vahid Əhmədov:*

### "Cavid Qurbanov doğru deyir..."

yazısı səh.3-də



### 81 yaşlı baş nazir Artur Rasi-Zadənin enerjisinin sirri...

yazısı səh.5-də



*Bahar Muradova:*

### "Prezidentlərin iyun görüşü istənilən nəticəni verməsə, Azərbaycan öz qəti qərarını verəcək"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016



## "Fransa Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylərini davam etdirəcək"

**Fransa prezidenti Fransua Olland Azərbaycan prezidenti İlham Əliyevi 28 May-Respublika Günü münasibətilə təbrik edib. APA-nın məlumatına görə, Ollandın məktubunda deyilir:**

"Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə sizə və xalqınıza böyük səmimiyyətlə sülh, əmin-amanlıq və tərəqqi arzularımı çatdırıram. Ötən illərdə olduğu kimi, bu il də Fransa ilə Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin inkişafı bütün sahələrdə davam edib. Tezliklə Bakıda açılacaq Fransız Azərbaycan Universiteti buna bariz nümunədir. Mən buna şadam və arzu edirəm ki, ölkələrimizi birləşdirən tərəfdaşlıq əlaqələri daha da dərinləşsin və müxtəlif sahələri əhatə etsin. Bu xoş fürsətdən istifadə edərək sizi əmin edirəm ki, Minsk Qrupunun həmsədri kimi Fransa rusiyalı və amerikalı tərəfdaşları ilə Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə həlli istiqamətində səylərini davam etdirəcək. Cənab prezident, sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

## "Metsamor AES terrorçular üçün əlçatandır"

**"Ermənistandakı Metsamor Atom Elektrik Stansiyası böyük bir ərazi üçün çirklənmə mənbəyidir. Bütün AES-lər təhlükəlidir, xüsusən də istismar müddəti bitmiş olmasına baxmayaraq, fəaliyyətini davam etdirən AES-lər".**

Bu sözləri APA-nın Moskva müxbirinə açıqlamasında "Greenpeace Rusiya" təşkilatının enerji layihəsinin koordinatoru, enerji sahəsində tanınmış ekspert Rəşid Alimov bildirib. O deyib ki, Metsamor AES vaxtilə zəlzələyə müqavimət göstərib: "Yəni layihə artıq köhnəlib və müasir tələblərə cavab vermir. Metsamor AES-də qoruyucu üzlük və müasir standartlara uyğun təhlükəsizlik sistemi mövcud deyil".

Ekspert Metsamor AES-də qəza olacağı təqdirdə, hansı ərazilərin çirklənəcəyi ilə bağlı indiyə kimi dünyada bir sıra tədqiqat institutlarının araşdırma apardığını, həyəcan təbili çaldığını vurğulayıb: "Bunlardan biri Avstriyanın Yer haqqında Elmi İnstitutunun apardığı araşdırmadır. Araşdırmada Metsamor AES-də qəza baş verəcəyi halda, Azərbaycan da daxil olmaqla, böyük bir ərazinin çirklənəcəyi qeyd olunub. Bildirilib ki, hava şəraitindən asılı olaraq Metsamor AES-dəki mümkün qəza böyük ərazini çirkləndirə bilər və bu, region üçün olduqca təhlükəlidir".

**R. Alimov Metsamor AES-in mövcudluğunun nüvə materialları qaçaqmalçılığı ilə məşğul olan transmilli cinayətkar qrupların, terrorçuların məşğul olan qrupların diqqətini artırdığını da əlavə edib:** "Metsamor AES yaxın ərazidə hərbi əməliyyatların baş verəcəyi halda hücuma məruz qala biləcəyi kimi, həm də terrorçular üçün əlçatandır".

Ekspertin fikrincə, həm Ermənistanın, həm də regionun digər ölkələrinin bərpa olunan enerji mənbələrindən istifadəsi üçün böyük potensialı var: "Metsamor AES-in köhnə və təhlükəli blokları bağlanmalıdır".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# İqtidar Xədicə İsmayılı azad etdi, dünya qərarı təriflədi...

## Jurnalist mediadan getməyəcəyini dedi; Pedro Aqramunt: "Bu qərar Azərbaycanın dönüş nöqtəsində olması ilə bağlı inamı bir daha təsdiqləyir"



**Mayın 25-də Ali Məhkəmədə jurnalist Xədicə İsmayıl barəsində olan hökmdən verilən kasasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib.**

APA-nın məlumatına görə, prosesdə Xədicə İsmayılın cəzasının 3 il 6 ay müddətinə şərti cəza ilə əvəz olunması barədə qərar çıxarılıb.

**Vəkil Fariz Namazlı** deyib ki, Xədicə İsmayıl üçün sınaq müddəti müəyyən edilib: O, Binəqədi Rayon Polis İdarəsində qeydiyyatda olacaq. Hər ay ora gedib qeydiyyatdan keçməlidir. Bu həm də o deməkdir ki, Xədicə dövlət orqanlarının icazəsi olmadan 5 il ərzində ölkəni tərk edə bilməz. Yaşayış yerini dəyişə bilməz".

Xədicə İsmayıl 2014-cü il dekabrın 5-də həbs olunub. Jurnalist mənimsəmə, qanunsuz sahibkarlıq, vergidən yayınma, vəzifədən sui-istifadə kimi ittihamlarla 7 il 6 ay azadlıqdan məhrum edilib. Sonradan Bakı Apelyasiya Məhkəməsi də Bakı Ağır Cinayətlər Məhkəməsinin bu hökmünü qüvvədə saxlayıb. Apelyasiya Məhkəməsinin qərarından Ali Məhkəməyə kasasiya şikayəti verilib.

Xədicə İsmayıl ittihamları rədd edib və jurnalist fəaliyyətinə, özəlliklə hökumətin korrupsiyası, prezident ailəsinin gizli biznesi barədə araşdırma yazılarına görə cəzalandırıldığını bildirib.

«Amnesty International» beynəlxalq insan haqları təşkilatı Xədicə İsmayılı «vicdan məhbusu» elan edib.

"Xədicə İsmayılın şərti cəza ilə azadlığa çıxması adi haldır. Bunu Azərbaycanın hüquq-mühafizə orqanlarının humanist siyasətinin nəticəsi hesab edirəm".

Bu fikirləri azvision.az-a YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov deyib.

**O vurğulayıb ki, X.İsmayılın şərti cəza ilə azadlığa buraxılması şouya çevrilməməlidir:** "Azərbaycan dövləti humanistdir. Belə hallar hər zaman olub. Hazırda bu proses davam edir. Xədicə İsmayılın şərti azadlığa buraxılmasını kimsə şouya çevirməsin. Bu, adi haldır. Azadlığa buraxılan müəllim, həkim heç də ondan aşağı deyil, əksinə, daha üstündür".

Ali Məhkəmənin Xədicə İsmayılın azadlığa buraxılması ilə bağlı verdiyi qərar dünən günün ikinci yarısında icra olunub.

APA-nın məlumatına görə, X. İsmayıl Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 4 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılıb.

**Xədicə İsmayıl həmkarlarına bildirib ki, yenə öz jurnalistlik fəaliyyəti ilə məşğul olacaq.**

**O, həmçinin deyib ki, tam bəraət almaq üçün əlindən gələni edəcək:** "Mən enerji ilə doluyam və ədalətin tam bərpa olunması üçün mübarizə aparacağam".

"Azərbaycanda Ali Məhkəmənin tədqiqatçı jurnalist Xədicə İsmayılın azadlığa buraxılması barədə qərarını alqışlayıram".

APA-nın məlumatına görə, bu barədə AŞ PA prezidenti Pedro Aqramuntun bəyanatında deyilir.

O əlavə edib ki, daha əvvəl bir çox tanınmış jurnalistin və insan haqları müdafiəçisinin azadlığa buraxılmasının ardından gələn bu qərar Azərbaycanın dönüş nöqtəsində olması ilə bağlı inamını bir daha təsdiqləyir: "Mən ölkəni bu müsbət cığırda davam etməyə çağırıram".

YUNESKO-nun baş katibi İrina Bokova jurnalist Xədicə İsmayılın azadlığa buraxılmasını alqışlayıb. Bu barədə «Trend» təşkilatın saytına istinadən məlumat verib.

"Həbsdə olan jurnalist Xədicə İsmayılın azadlığa buraxılması Azərbaycan hökumətinin insan hüquqlarına hörmətlə yanaşmasıdır".

Bunu isə jurnalistlərə açıqlamasında Azərbaycanda səfərdə olan BMT- nin İşçi Qrupunun baş məruzəçisi Setonci Roland Adjovi deyib.



## Gənc fəala 10 sutka inzibati cəza verildi

**Mayın 25-də saxlanılan NİDA-çı gənc fəal Amid Süleymanova 10 sutka inzibati cəza verilib.**

Bu barədə məlumatı Amid Süleymanovun atası Yusif Süleymanova sahə müvəkkili deyib. Ancaq bu cəzanın səbəbi izah edilməyib.

Amid Süleymanov mayın 25-də yaşadığı mənzildən aparılıb. Atasının sözlərinə görə, gecə saatlarından etibarən müxtəlif şəxslər yaşadıqları mənzilə gələrək, başqa-başqa şəxsləri soruşublar, şikayət olduğunu deyiblər: "Deyirdilər, açın qapını, qol çəkdirib gedəcəyik. Üç dəfə 102-yə məlumat verdim. Sonra qapını açdım. Bir nəfər polis, 5-6 nəfər də mülki geyimli şəxs evə doluşdu. Amidin kompüterini, telefonunu götürdülər, evdə axtarış apardılar. Sonra da Amidi götürüb getdilər".

Yusif Süleymanovun sözlərinə görə, oğlunu hansı səbəbdən apardıqlarını deməyiblər. Yalnız 5-ci polis bölməsinə aparıldığını bildiriblər.

## Orta məktəb dərsliklərinin dilindən narazılıq var



**Orta məktəb dərsliklərində dilin ədəbi normalarının qorunması baxımından müəyyən problemlər var. «Trend»in məlumatına görə, bunu Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclasında çıxış edən AMEA Dilçilik İnstitutunun direktor əvəzi Möhsün Nağısoylu deyib.**

M.Nağısoylu buna misal olaraq bildirib ki, 5-ci sinif dərslikləri akademik səviyyədə yazılıb: "Orta məktəb şagirdləri də onu başa düşmürlər. Bu sahə üzrə təcrübəli mütəxəssis olaraq, deyə bilərəm ki, orta məktəb dərslikləri şagirdlərin qavrama qabiliyyəti nəzərə alınmadan yazılır".

M.Nağısoylu deyib ki, Dilçilik İnstitutunun alimləri ölkənin ali məktəbləri üçün də dərsliklərin hazırlanmasında iştirak edirlər. Ancaq hesab edir ki, təkcə Azərbaycan vətəndaşları üçün deyil, əcnəbi vətəndaşlar olan tələbələr üçün də "Azərbaycan dili" dərsliyinin hazırlanması lazımdır.

M.Nağısoylu qeyd edib ki, küçələrdəki afişalarda və obyektlərin adlarında dilin normalarının pozulması hallarına tez-tez rast gəlinir. Onun sözlərinə görə, bu problemin həlli istiqamətində bəzi rayonların icra başçıları ilə razılığa gəlinib və hansısa müəssisənin adının seçilməsində institutun da rəyi nəzərə alınır: "Bəzi şadlıq evləri, supermarketlər hətta bizim mentalitetə uyğun gəlməyən formada adlandırılır. Bu istiqamətdə də müəyyən maarifləndirmə işləri həyata keçirilir. Dilçilik İnstitutu belə halların qarşısını almaq üçün monitorinqlər keçirir və "Qaynar xətt" vasitəsilə onların vaxtında aşkarlanaraq qarşısının alınmasına çalışır".




## Mətbuat Şurasının sədri yeni təkliflə çıxış etdi və dəstəkləndi

**Millət vəkili, Azərbaycan Mətbuat Şurasının (AMŞ) sədri Əflatun Amaşov söz, mətbuat azadlığı ilə bağlı qanunlara dəyişikliklərin parlamentin İnsan hüquqları komitəsində müzakirə olunması təklifi ilə çıxış edib.**

Gün.Az-ın məlumatına görə, millət vəkili məlum təklifini adıçəkilən komitənin mayın 25-də keçirilən iclasında səsləndirib.

O bildirib ki, söz, mətbuat azadlığı, informasiya, məlumat əldə etmə ilə bağlı qanunvericiliyə dəyişikliklər edilməsi yönündə parlamentin İnsan hüquqları komitəsinin ayrıca iclaslarının keçirilməsinə, dinləmələrin təşkilinə ehtiyac var: "Çünki bu tipli məsələlər məhz bu komitədə müzakirə olunmalıdır".

Sözügedən komitənin sədri Bahar Muradova da millət vəkilinin təklifini dəstəkləyib.

Bununla belə, komitə sədri istər adıçəkilən məsələləri, istərsə bütövlükdə insan hüquq və azadlıqları ilə bağlı məsələləri əhatə edən qanunvericilik aktlarına dəyişikliklərin, yeni qanun layihələrinin İnsan hüquqları komitəsində də müzakirə olunduğunu və onlara baxıldığını xatırladıb.

"Əgər bundan sonra da bu yöndə məsələlər bizim komitəyə ünvanlanacaqsa, təbii ki, onlara da baxılacaq, müzakirələrdən keçiriləcək. Bu məsələdə heç bir problem görmürəm" - deyə, o, sözlərinə əlavə edib.

## Azərbaycan neftinin qiyməti yenidən 50 dolları ötdü

**Dünya birjalarında neftin qiyməti yenidən bahalaşıb. Nyu-Yorkun NYMEX ("NewYorkMercantile Exchange") birjasında mayın 25-də "Layt" markalı neftin bir barelinin qiyməti 1,32 dollar bahalaşaraq 49,26 dollar, Londonun ICE ("İnterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 1,14 dollar artaraq 49,20 dollar olub.**

AzərTAc xəbər verir ki, "AzəriLayt" markalı neftin bir barelinin qiyməti isə 0,53 dollar bahalaşaraq 50,36 dollar təşkil edib.

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016

# İlham Əliyevə "Dünyada ilin adamı" mükafatı təqdim olundu

## Prezident onu ödülləndirən jurnalın rəhbərliyini qəbul etdi

**"The Business Year" şirkəti aşağıda göstərilən amilləri nəzərə alaraq və Azərbaycan Prezidentinin fəaliyyətini dərindən təhlil edərək İlham Əliyevi 2015-ci ildə "Dünyada ilin adamı" seçib. Mayın 25-də prezident İlham Əliyev "The Business Year" jurnalının baş redaktoru Leland Raysı və jurnalın direktoru xanım Betül Çakaloğlunu qəbul edib.**

Musavat.com-un dövlət başçısının saytına istinadən məlumatına görə, L. Rays İ. Əliyevin İstanbulda keçirilən Dünya Humanitar Sammitində iştirakının və çıxışının önəmini vurğulayıb.

O, Azərbaycanın beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi və dünyada gedən iqtisadi proseslərdəki rolunu qeyd edib.

Dünya Humanitar Sammitinin əhəmiyyətinə toxunan prezident İlham Əliyev sammitin bu formatda ilk beynəlxalq humanitar tədbir olduğunu vurğulayaraq tədbirin gündəliyinin geniş sahələri əhatə etdiyini deyib. Beynəlxalq iqtisadi əməkdaşlıq məsələlərinə toxunan dövlət başçısı Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiya olunması istiqamətində görülən işlərdən danışıb.

B. Çakaloğlu jurnalın gördüyü işlər barədə dövlət başçısına məlumat verib. Altı ilə yaxın bir müddətdə ölkəmizlə əməkdaşlıq etdiklərini vurğulayan B.Çakaloğlu jurnalın dünyanın müxtəlif qitələri və ölkələrində yaxşı əlaqələr qurduğunu deyib.

"The Business Year" jurnalının baş redaktoru L. Rays prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfəyə, "Cənub Qaz Dəhlizi", "Şahdəniz-2", TANAP və TAP layihələrinin yaradılması və həyata keçirilməsi, mühüm beynəlxalq idman tədbirlərinin, o cümlədən birinci Avropa Oyunlarının nümunəvi təşkilinə və Azərbaycanın çox böyük potensialının dünyada təbliğinə, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı göstərdiyi səylərə, Azərbaycanı əhəmiyyətli transmilli nəqliyyat layihələrinin mərkəzinə çevirdiyinə, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsinə verdiyi böyük dəstəyə, multikultural dəyərlərin təşviqi ilə bağlı beynəlxalq humanitar tədbirlərin keçirilməsi və regionda sülh və təhlükəsizliyin





təmin olunması ilə bağlı digər uğurlu fəaliyyətinə görə rəhbərlik etdiyi jurnalın İ. Əliyevi 2015-ci ildə "Dünyada ilin adamı" mükafatına layiq gördüyünü deyib və mükafatı dövlət başçısına təqdim edib.

Dövlət başçısı "The Business Year" jurnalının "Dünyada ilin adamı" mükafatına layiq görüldüyünə görə minnətdarlığını ifadə edib. Prezident İlham Əliyev jurnalın baş redaktoru Leland Raysın təqdimatında Azərbaycanın həyata keçirdiyi siyasətin ən əhəmiyyətli istiqamətlərinin qeyd olunduğunu vurğulayaraq iqtisadi şaxələndirmə, enerji təhlükəsizliyi, multikulturalizm, Azərbaycanın beynəlxalq nəqliyyat mərkəzinə çevrilməsi və bu infrastruktura investisiyaların yatırılması kimi məsələlərin əldə olunmasında regional əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Regional əməkdaşlığın yalnız qarşılıqlı inama əsaslandığını deyən dövlət başçısı qarşılıqlı inamın isə multikultural, dini və etnik dözümlülük kimi dəyərlərin təşviqi ilə yaradıldığını bildirib. Bütün bu dəyərlərə görə qürur duyduğunu qeyd edən prezident İlham Əliyev Azərbaycanın təbliğinə və ölkəmizlə bağlı həqiqətləri beynəlxalq auditoriyaya çatdırdıqlarına görə "The Business Year" jurnalına təşəkkürünü bildirib.

**Sonda xatirə şəkli çəkdirilib.**

# "Cavid Qurbanov doğru deyir..."

## **Vahid Əhmədov:** "DHL kimi nəhəng beynəlxalq daşımaçılıq şirkətləri ilə razılaşmaların büdcəmizə böyük gəlirlər verəcəyi şübhəsizdir"

**"Azərbaycan Dəmir Yolları" QSC-nin rəisi, deputat Cavid Qurbanov "Yeni Müsavat"a son müsahibəsində Azərbaycanın iqtisadiyyatı üçün ciddi əhəmiyyət daşıyan bir hadisə barədə açıqlama vermişdi. Cavid Qurbanov bildirmişdi ki, bugünlərdə İstanbulda görüşlər keçirib, həmin görüşlərdən biri də Almaniyanın nəhəng beynəlxalq daşımaçılıq şirkəti olan DHL-in Çin üzrə rəhbərləri Stiven Hank və Kərəm İnanc ilə olub, həmin şəxslərlə protokol imzalanıb: "İlkin razılaşmaya əsasən DHL tranzit yükləri Azərbaycan üzərindən daşıyacaq. Bakıdan keçməklə Avropaya, Asiyaya, Rusiyaya və başqa yerlərə yüklər daşınsın. Bizim əsas məqsədimiz odur ki, Bakını bir mərkəzə çevirək, bütün yüklər Bakıya toplansın və burdan paylansın".**

Qeyd edək ki, Almaniyanın beynəlxalq daşımaçılıq şirkəti DHL-in illik dövriyyəsi milyardlarla dollarla ölçülür. Bəs belə bir şirkətin Çin üzrə nümayəndəliyinin rəhbərləri ilə "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbərliyinin əldə etdiyi rəsmi razılaşmaların gələcəkdə Azərbaycan üçün əhəmiyyəti nədən ibarət ola bilər?

**Baş nazirin sabiq birinci müavini, deputat Vahid Əhmədov** bu mövzunu "Yeni Müsavat"a şərh edib. Bildirib ki, Cavid Qurbanov "Azərbaycan Dəmir Yolları" QSC-yə rəisi təyin olunandan elə də uzun müddət keçməyib. Ancaq qısa zaman ərzində bu sahədə çox böyük işlər görülüb: "Cənab prezidentin dəstəyi ilə Cavid Qurbanov Azərbaycan iqtisadiyyatına çox böyük gəlirlər gətirəcək bu sahəni inkişaf etdirməkdədir. Birincisi, fikir verdinizsə, Astara üzərindən körpünün tikilməsi və İrana dəmir yolunun çəkilməsi ilə əlaqədar böyük işlər görülür. Hətta bu yaxınlarda biz Milli Məclisdə qanuna dəyişiklik elədik ki, oradan Azərbaycana, Azərbaycandan oraya gedən avtomobil yüklərindən üç il müddətində vergi tutulmasın. Bu da Cavid Qurbanovun təşəbbüsü idi. Bilirsiniz ki, Ələtdə böyük bir liman tikildi. Azərbaycan elə bir nöqtədə yerləşir ki, Avropa ilə Asiyanı birləşdirir və Çinin də buradan yükləri gedir. Son hadisələrdən sonra Ukraynanın yüklərinin Azərbaycan vasitəsilə daşınması, Türkiyə-Rusiya arasında münasibətlərin gərginləşməsi nəticəsində Türkiyədən böyük yük maşınlarının Azərbaycan ərazisindən buraxılması və digər hadisələr onu göstərir ki, Azərbaycanın yükdaşımalar üçün ən uğurlu mərkəz olmasına maraq çoxalıb. Digər tərəfdən, Azərbaycanda iqtisadi islahatlar həyata keçirilir və dəmir yolu sahəsində dirçəliş də bu islahatların tərkib hissəsidir. Bu islahatların iqtisadi nəticələrini ola bilsin ki, indi hiss etmirik. Ancaq bir ildən, il yarımdan sonra cəmiyyətimiz öz həyatında bu islahatların nəticələrini hiss etməyə başlayacaq".



Cavid Qurbanov



Vahid Əhmədov

**V.Əhmədov deyib ki, nəqliyyat, daşıma şirkətlərinin də Azərbaycana marağı çox böyükdür:** "Böyük İpək yolu Çini Avropa ilə birləşdirəcək. Bakı-Tbilisi-Qars dəmir yolu xətti bu ilin payızında istifadəyə verilməlidir. Bu cür dəmir yolu xətləri DHL kimi nəhəng daşımaçılıq şirkətlərini cəlb edir. Belə bir nəhəng beynəlxalq daşımaçılıq şirkətinin Çindən daşımaları Azərbaycan üzərindən həyata keçirməsinin ölkəmizin büdcəsinə böyük gəlirlər verəcəyi şübhəsizdir. Həmin şirkətlə protokol imzalanmasının böyük əhəmiyyəti var. Çin dünya iqtisadi nəhənglərindəndir və faktiki olaraq dünyadakı bütün dövlətlərə öz məhsullarını ixrac edir. Bəzi dövlətlərdən məhsullar idxal edir. Bu ölkənin daşımaları həddən artıq böyükdür. Çinlə Azərbaycan arasında iqtisadi-ticarət münasibətləri yüksək səviyyədədir. Azərbaycanın özünə idxal olunan Çin mallarının da daşınmasında həmin şirkətin xidmətindən istifadə edilə bilər. Bu da iqtisadi baxımdan Azərbaycanın xeyrinə olar. Ümumiyyətlə, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizi olması gündəmdədir. Burada əsas yerlərdən birini təbii ki, dəmir yolu nəqliyyatı tutacaq. Dövlət başçısı tərəfindən bu işə çox ciddi dəstək var. Açığını deyim ki, Cavid Qurbanov bu işlərin həyata keçirilməsi üçün çox uğurlu bir kadrdır. Az bir müddətdə xeyli uğurlu işləri həyata keçirməsi göz önündədir. Cavid Qurbanov doğru deyir, Azərbaycan tranzit nəqliyyat mərkəzinə çevriləcək. Ələt limanının istifadəyə verilməsi, orada xüsusi iqtisadi zonanın yaradılması barədə prezidentin fərmanı, İranla dəmir yolunun açılması, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi və digər layihələrin gerçəkləşməsi Azərbaycanı tranzit mərkəzə çevirəcək".

**Deputat onu da vurğuladı ki, Azərbaycanın tranzit mərkəzə çevrilməsinin gətirəcəyi gəlirlər, ölkəmizin neftdən asılılığını aradan qaldırmaqda ciddi rol oynaya bilər:** "Neftdən asılılığı aradan qaldırmaq üçün müəyyən proqramlar həyata keçirilir. Nəqliyyat daşımaları da proqramın bir hissəsidir. Nəqliyyat elə bir sahədir ki, orada gəlirlər yüksək olur. Bu sahəyə biz əvvəllər elə də böyük önəm verməmişik. Son vaxtlar çox ciddi önəm verilməyə başlanıb. Nəhəng şirkətlərlə imzalanan protokollar, yuxarıda qeyd etdiyim həyata keçirilən işlər də bu sahəyə önəm verilməsinin göstəricisidir. Biz artıq neftsiz dövlət büdcəsi formalaşan ölkəyə çevrilmək iqtidarındayıq".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016

**Aprel ayının ilk günlərində cəbhə xəttindəki döyüşlərdə - Lələtəpənin azad olunması uğurunda şəhidlik zirvəsinə ucalanlardan biri də Şəki şəhərinin Böyük Dəhnə kənd sakini 23 yaşlı Vüqar Süleymanovdur. Şəhidlik kimi uca, qutsal bir zirvəyə ucalan bu gənc 1993-cü il yanvarın 20-də anadan olub.**





# "Bizə təsəlli verən odur ki, oğlum qələbə şəhidlərindəndir"

## **Şəhid Vüqar Süleymanovun anası:** "Sanki hiss etmişdi ki, bu onun evə son gəlişidir"





Mayın 25-də şəhid Vüqar Süleymanovun 52 mərasimi keçirildi. Şəhidin qəhrəmanlıq hekayəsi ilə daha yaxından tanış olmaq üçün onun doğulub boya-başa çatdığı Böyük Dəhnə kəndinə yollandıq. Şəhidimizin evinin taybatay açılan qapısı, darvazanın üstündə asılmış üçrəngli şanlı bayrağımız şəhidimiz üçün bizi nə qədər kədərləndirsə də, bir o qədər də qürur hissi yaradırdı...

**Bizi qarşılayan şəhid Vüqar Süleymanovun atası Natiq Süleymanov oğlunun 20 Yanvar şəhidlərin anım günündə anadan olduğunu və özünün də şəhidlik zirvəsinə ucaldığını deyirdi:** "3 övladım, 2 qızım 1 oğlum - Vüqar vardı. Övladlarım bu kənddə dünyaya göz açıblar. İşimlə əlaqədar olaraq 2000-ci ildə Bakıya köçdük. Vüqar orta məktəbi Bakıda bitirib və Slavyan Universitetinə daxil oldu. Ali təhsilini bitirən kimi əsgərliyə könüllü şəkildə yola düşdü. Halbuki onun çağırışına hələ vardı. Amma özü Şəki Hərbi Komissarlığına ərizə yazaraq könüllü getmək istədiyini bildirdi və iyulun 27-si 2015-ci ildə hərbi xidmətə yola düşdü. 3 ay Lənkəranda xidmət etdi. Sonra Füzuliyə apardılar. Bir dəfə gedib görüşmüşdük. Telefonla əlaqə saxlayırdıq. Fevralda məzuniyyətə gəlmişdi. Universiteti bitirsə də, diplomunu almamışdı. Məzuniyyətə gələn kimi gedib diplomunu aldı. Fərəhlə gətirib evə qoydu ki, əsgərliyi bitirdikdən sonra bu diplomla işə girəcəm. Biz də çox fərəhləndik. Məzuniyyətə gələndə dedi ki, kəşfiyyat manqa komandiriyəm və tabeçiliyimdə 7 əsgər var. Məzuniyyəti başa vurub səngərə qayıtdı. Oğlumla sonuncu dəfə martın 31-i telefonla əlaqə saxlamışıq. Dedi, hər şey yaxşıdır. Aprelin 2-si televiziyada eşitdik ki, cəbhə bölgəsində güclü atışma gedir. Mən oğlumun həmişə zəng etdiyi nömrəyə zəng etsəm də, o nömrə bağlı idi. Aprelin 4-də mənə naməlum nömrədən zəng gəldi. Vüqarın atası olub olmadığımı, harada yaşadığımı soruşdular. Bax o an ürəyimdə sanki nəsə qırıldı. Soruşdum ki, nə olub. Dedilər heç nə. Nömrəni bacanağıma verdim. Bacanağım bizə zəng etdi ki, yığışıb kəndə gəlin, Vüqar ağır yaralanıb, Şəkiyə hospitala gətirirlər. Yoldaşım dedi ki, əgər ağır yaralıdırsa, niyə Bakıya yox, Şəkiyə aparıblar. Gəldik gördük ki, qapımız taybatay açıqdır, içəridə də çadır qurulub. Artıq hər şey aydın idi... Oğlumuzu şəhid vermişdik".

**Gözləri dolan, qəhərlənən ata özünü toparlayıb söhbətinə davam edir. Gözlərində kədər olsa da, oğlundan qürur hissi ilə danışırdı. N Süleymanov sanki Vüqardan o, hələ də yaşayır və gələcəkmiş kimi söz açırdı. Amma haqlıydı. Axı şəhidlər ölmür:** "Oğlumun əsgərliyini bitirib gəlməsini 3 ay qalmışdı. Artıq günlərini sayırdıq. Onunla bağlı arzularımız, xəyallarımız vardı. Vüqar Füzulidə Lələtəpə uğrunda gedən döyüşdə həlak olub. Bizə təsəlli verən də odur ki, oğlum qələbənin şəhidlərindəndir. Oğluma orduda fərqləndiyi üçün medal veriblər. Mehriban Əliyeva Heydər məscidində ehsan verəndə oğlumun xalası məktub yazıb bildirib ki, biz Vüqarın adının əbədiləşdirilməsini istəyirik. Vətən uğrunda qorxmadan son damla qanına kimi vuruşdu. Onun adı oxuduğu məktəbə, ya hansısa küçəyə verilsin".

**Söhbətə qatılan şəhid anası Zemfira Süleymanovanın cavabsız sualları və fəryadı insanı qəhərləndirirdi. Oğlu hələ anadan olmadan başlayan Qarabağ müharibəsi indi onun oğlunu əlindən almışdı:** "Məni yandıran odur ki, bu müharibə başlayanda mənim oğlum heç dünyaya gəlməmişdi. İndi 23 yaşında şəhid oldu. İndi bu balacaların da *(nəvəsini göstərir)* taleyi bu cür olacaq?! Mən yalnız bu sualıma cavab istəyirəm ki, indi doğulan uşaqlardamı bu taleyi yaşayacaq?! Nə vaxta kimi 10 milyonluq əhalisi olan Azərbaycan 3 milyonluq erməninin qabağında aciz qalacaq?! Niyə 10 milyon əhalisi olan Azərbaycanı 3 milyon əhalisi olan erməni öz torpağımızda qırır?! Hamını yandıran budur ki, zülmlə böyütdüyümüz balalarımızı erməni öz torpağımızda öldürür. Mən oğlumu yaxşı böyütmək, oxutmaq üçün Bakıda 10 il kirayə evdə, zirzəmilərdə qalmışam. Bu əziyyəti çəkmişəm ki, balam zülm çəkməsin, təhsil alsın. Biz yaşlanmışıq, çarəsiz qalmışıq. Atəşkəsin elan olunduğu 20 ildən çox zamanda verdiyimiz şəhidlərin sayı az qala bir müharibədə verilən şəhidlərin sayına bərabərdir. Hərbi və ya sülh yolu, fərqi yoxdur, torpaqlarımız alınsın".

**Zemfira Süleymanova deyir ki, oğlu sonuncu dəfə məzuniyyətə gələndə sanki evə son gəlişi olduğunu hiss edirmiş:** "Oğlum məzuniyyətə gələndə deyirdim ki, evdə dayan, bir üzünü görək. Gedib tələbə yoldaşları ilə görüşürdü. Məzuniyyətdən qayıdanda evdən çox çətinliklə çıxdı. Yarım saat elə ayaqqabısını geyinməyə vaxt sərf etdi. Çox ləng tərpənirdi. Sanki hiss etmişdi ki, bu onun evə son gəlişidir. Heç ayrılmaq istəmirdi. Oğlum çox qapalı utancaq xasiyyətli idi. Şəxsi həyatı haqqında danışan deyildi. Ancaq dərs oxuyurdu. Boş-boş gəzməklə arası yox idi. Sonradan eşitdim ki, Vüqarın istədiyi qız olub. Amma bunu heç kimə deməyib. Gələcəyi ilə bağlı planlar qururdu. Mənim tək təsəllim odur ki, oğlumun şəhid olduğu Lələtəpə düşmən tapdağından azad edildi. Bu şəhidlər 20 il ərzində əldə olunan ilk qələbənin şəhidləridir".

**"Rusiya geri çəkilsə, biz erməniləri silahsız, bel, kürəklə qovarıq"... Bu sözləri isə şəhidin yaxın qohumu Qarabağ əlili, şəhid qardaşı Nəriman Abdıyev deyir:** "Mənim 50-dən yuxarı yaşım olsa da, desələr ki, sabah müharibə başlayır, gedərəm torpaqlarımızı azad etməyə və qardaşlarımın qanını almağa. Bu oğlan da mənim qardaşımdır, yaxınımdır. Rusiya kənara çəkilsə, Azərbaycan ordusu lomla, bellə torpaqlarımızı azad etməyə hazırdır. Qarabağ məsələsinin sülh yolu ilə həll olunacağına inanmıram. Bu, sadəcə olaraq, vaxt uzatmaqdır. Mən 1992-1993-cü illərdə Ağdam bölgəsində döyüşdə olmuşam. Mənim qardaşım həmin vaxt şəhid oldu, Şəhidlər Xiyabanında dəfn olunub. Biz şəhidlərimizin qisasını almalıyıq".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Əli İnsanov amnistiyaya düşməyəcək

## Fərəc Kərimli hazırkı maddəsi ilə azadlığa çıxa bilər; şərti cəzası olan şəxslər də amnistiyadan kənarda qalacaqlar

**Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın amnistiya təşəbbüsünün Milli Məclisdə qəbulundan sonra siyasi məhbusların maddələrinin akta düşüb-düşməyəcəyi müəmması davam etməkdədir.**



Əli İnsanov



Fərəc Kərimli

İyunun 15-də qüvvəyə minəcək və 4 ay icrası davam edəcək amnistiya aktı ilə bağlı "Yeni Müsavat"a danışan hüquqşünas Müzəffər Baxış həbsdə olan əksər siyasi fəalların azadlığa buraxılmayacaqlarını bildirdi: "Bildiyimiz kimi, Milli Məclis 28 May Respublika Günü ilə bağlı amnistiya elan edilməsi haqqında qərar qəbul edib. Həmin qərarın 1.1-ci bəndinə görə, böyük ictimai təhlükə törətməyən cinayətlərlə müəyyən müddətdə həbs cəzası alan məhbuslar həmin cəzadan azad edilirlər. Qərarın 6-cı hissəsində nəzərdə tutulan məhdudiyyət 1994-cü il fevralın 24-də qəbul edilmiş 793 nömrəli qanunda nəzərdə tutulmuş şəxslərə şamil olunmur. O da Azərbaycanın ərazi bütövlüyü ilə bağlı cinayət törətmiş şəxsləri nəzərdə tutur. Bu qərar əsasən böyük cinayət törətməmiş şəxslərə aid edilir. Qərarın 7-ci bəndində kimlərə amnistiyanın şamil olunmaması ilə bağlı həmin cinayətlərin dairəsi göstərilir. 7.1-ci bəndin tələblərinə görə Cinayət Məcəlləsinin 15.4 və 15.5-ci maddələrində ağır cinayətlər törədən şəxslərə amnistiya tətbiq olunmur. Həmin bənddə az ağır cinayətlərə bu aktın tətbiq olunmasının da konkret dairəsi göstərilir. Bu qərara görə, siyasi məhbus sayılan heç bir şəxsə amnistiya tətbiq olunmur. Hətta şərti azad edilmiş siyasi məhbuslara da bu qərar şamil olunmayacaq. Leyla və Arif Yunuslar, İntiqam Əliyev kimilər şərti olaraq azadlığa çıxıblar. Onların özlərinə də bu qərar tətbiq edilməyəcək".

**Hüquqşünas amnistiyanın icrası vaxtı azadlığa çıxmasına 5 ay qalan sabiq nazir Əli İnsanovun da amnistiyaya düşməyəcəyini açıqladı:** "O, Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi ilə məhkum edilib. Cəzasının bitməsinə 5 ay qalacağına baxmayaraq, onun ittiham olunduğu cinayətlər ağır cinayətlər kateqoriyasına aid olduğundan bu qərar ona da şamil olunmur".

**M.Baxış əvəzində mayın 24-də həbs müddəti 6 il yarımdan 3 ilə qədər endirilən Müsavat başqanının müavini Fərəc Kərimlinin amnistiyaya düşəcəyini də qeyd etdi:** "Onun əməlini Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə tövsif ediblər. Ali Məhkəmənin qərarı verildiyi gündən qüvvəyə minir. O, məcburi köçkündür. 1988-93-cü illərdə işğal edilmiş ərazilərimizdən məcburi köçkün olub. Himayəsində azyaşlı övladı olmasa da, amnistiya ona tətbiq olunacaq".

Qeyd edək ki, 10 min məhbusa şamil olunacaq amnistiya ilə 3500-dən çox məhkum azadlığa çıxacaq.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016

# Eldar Mahmudovun şifrəli mesajları haqda heyrətamiz məlumatlar

## Sabiq nazir əlindəki kompromatlardan istifadə etməklə özünü qoruyur?

**Deputat Zahid Orucun Eldar Mahmudovla bağlı ötən həftə dediyi fikirlər maraqla qarşılanıb. Onun dediklərindən belə anlaşılır ki, bu gün də Eldar Mahmudov təhlükəsi qalır. Sabiq nazir əlindəki kompromatlardan istifadə etməklə özünü qoruya bilir.**

**Z.Orucun modern.az-a açıqlamasından sitat:** "Belə düşünürəm ki, Eldar Mahmudovun ev dustaqlığı davam edir. Onun yeri kənara, başqa ölkəyə doğru dəyişməyib. O, güclü nəzarət altındadır. Bununla bərabər, Eldar Mahmudovun ətrafındakı keçmişdən gələn qüvvələr hansısa formada ona məlumat sızdırmaları ilə məşğuldurlar. Kimsə özünün təhlükəsizliyini təmin etmək üçün hardasa şifrəli məlumatlar yerləşdirib və bu vasitə ilə özünü qoruyur. Müxtəlif nazirliklər, orqanlar, dövlətin elitasını özünümüdafiəyə vadar edərkən belə metod əsas iş prinsipi olub. Düşünürəm ki, adamlar hamısı özlərini qorumaqla məşğul olacaq və Eldar Mahmudovun mənəvi, hüquqi, siyasi hakimiyyəti onlar üzərində bərqərar olacaq".



Deputatın bu fikirləri, xüsusilə E.Mahmudovun şifrəli mesajlarla özünü qoruya bilməsi diqqəti cəlb edir, maraqlı suallar yaradır. Məsələn, sabiq milli təhlükəsizlik naziri şifrəli mesajlarını hara, necə və kimlərin vasitəsilə yerləşdirə bilər? 11 il strateji bir posta rəhbərlik etmiş şəxs "vurularaq" ev dustağı edilib və ciddi nəzarət altında saxlanıldığı bir vaxtda şifrəli mesajları necə ötürə biləcəyi gerçəkdən maraq doğurur. Üstəlik, Eldar Mahmudov tutduğu postdan uzaqlaşdırılandan sonra çevrəsi işdən çıxarılaraq həbs olunub, inzibati resurslar əlindən alınıb. Eldar Mahmudovun durumunda olan şəxs hansı yollardan istifadə edə bilər?

Məlumdur ki, MTN çetesinin nəzarətində kifayət qədər kütləvi informasiya vasitələri olub. Bu haqda çox ciddi iddialar var. Bu gün də MTN çetesinə daxil olan media şəbəkəsinin fəaliyyətdə olmasına dair məlumatlar var. E.Mahmudov hələ də sıradan çıxarılmayan həmin saytlar vasitəsilə mesajlarını çatdıra bilər. Məşhur seriallarda da bu tip şifrəli informasiyaların ötürülməsi haqda maraqlı epizodlar var. Xüsusilə din, kültür, məişət və s. baxımından Azərbaycana yaxın olan Türkiyə filmlərində də belə epizodlar yer alır. Məsələn, qəzetlərin ulduz falında dolça bürcünə aid proqnozda gedən məlumat həmin informasiyanı gözləyən dairəni hərəkətə gətirir. Müəyyən məlumatların yayılması üçün siqnal rolunu oynayır.

Mətbuatdakı iş elanlarının da sifrəli mesajların obyektinə çevrilməsi səhnələri də seriallarda diqqəti cəlb edir. Ev oğruları, insan alverçiləri də şifrəli mesajlarını qəzetlərdə elan şəklində yerləşdirə bilirlər.

Şifrəli mesajların facebook, odnoklassniki, vatsapp, tvitter kimi sosial xəbərləşmə şəbəkələri üzərindən də ötürülməsi mümkündür.

Bu gün Eldar Mahmudovun belə vasitələrə çıxışı haqda konkret nəsə demək üçün məlumatlara malik deyilik. Amma "vurulmuş" kadr olaraq E.Mahmudovun revanş hissi ilə yaşaması şübhəsizdir. Onun sıradan çıxarılmasında rolu olanlardan əvəz çıxmaq, intiqam almaq arzusunun olması da təbiidir. Bu baxımdan Eldar Mahmudovun bağlı olduğu deyilən xarici qüvvələr vasitəsilə də şifrəli mesajlarını istədiyi ünvanlara çatdırmaqla özünü qoruya bilər.

Bir neçə ay öncə maliyyə naziri Samir Şərifov haqda sensasion sayıla biləcək iddialar ortaya çıxdı. SSRİ KQB-sinin I Baş İdarəsinin keçmiş zabiti, bir vaxtlar əfsanəvi sayılan sovet kəşfiyyatçısı, eks-mayor Yuri Şvetsin heç vaxt nəzər salmadığı, onun üçün uzaq və anlaşılmaz ölkə olan Azərbaycana yönələn müsahibə verdi. Ukrayna portallarından birinə verilmiş müsahibədə eks-kəşfiyyatçı Azərbaycanın maliyyə naziri Samir Şərifovu hədəf götürdü, onu 3 qat agent adlandırdı. S.Şərifov Şvetsi niyə bu qədər maraqlandırıb? Keçmiş KQB zabitinin Azərbaycanın maliyyə nazirinin fəaliyyətinə diqqəti haradan qaynaqlanırdı?

Samir Şərifovla Eldar Mahmudovun qudası Cahangir Hacıyevin münasibətlərini nəzərə alanda Şvetsin "ilhamverici" qüvvəsinin kimliyi də ortaya çıxır. Bu məqam həm də deputat Zahid Orucun dediyi kimi, sabiq nazirin şifrəli mesajlarını ötürmək iqtidarında olduğunu da təsdiqləyir.

Əgər S.Şərifovla bağlı məlumatların Şvetsə yönləndirilməsində iddia olunduğu kimi, sabiq nazirin rolu varsa, deməli, Eldar Mahmudov Azərbaycanın siyasi elitasına daxil olan digər şəxslər barəsində də eyni addımları ata bilər. Vaxtilə xüsusi xidmət orqanlarında çalışmış və ya əməkdaşlıq etmiş şəxs hər vaxt Azərbaycanın adı çəkilməyən sayta və ya qəzetə müsahibə verməklə bütün Azərbaycan cəmiyyətini silkələyə biləcək məlumatları ictimailəşdirə bilər. Bu baxımdan Z.Orucun E.Mahmudovun şifrəli mesajlarla özünü qorumasını vurğulamasını təsadüfi hesab etmək olmaz. Mümkündür ki, E.Mahmudov S.Şərifovla bağlı məlum müsahibəni təşkil etməklə "iki hədəfə 1 güllə" atıb. Həm S.Şərifovu həbsdəki C.Hacıyevə qarşı addımlardan çəkindirməyə çalışıb, digər tərəfdən isə əlində kompromatların olduğunu bir daha nümayiş etdirməklə özünü sığortalayıb.

❑ E.HÜSEYNOV

# 81 yaşlı Artur Rəsi-Zadənin enerjisinin sirri...

## "O, heç bir intriqalara qatılmadığı üçün ürəyi hədsiz dərəcədə təmizdir və bu baxımdan işgüzarlığını, enerjisini saxlayır"

**Artıq bir neçə ildir ki, 81 yaşlı baş nazir Artur Rəsi-Zadənin vəzifəsini icra etmək üçün yetərincə yaşlaşması mətbuatda müzakirə edilir. Qonşu ölkələrdə son 20 il ərzində bir neçə baş nazirin dəyişməsinə rəğmən, bu müddətdə Artur Rəsi-Zadənin vəzifədə qalması və əvvəlki idarəetmə bacarığını necə saxladığı maraq doğurur. Hökumətə yaxın olan bir qrup baş nazirin hələ də işgüzar formasını saxladığını və ölkədə aparılan islahat layihələrinin əsas ideya rəhbərlərindən olduğunu bildirir. Bəs görəsən, baş nazir onu hakimiyyət üçün əvəzsiz edən hansı keyfiyyətlərə malikdir? Bu yaşda necə işgüzar qalır?**



Sualımızı cavablandıran **Milli Məclisin deputatı Zahid Oruc** "Yeni Müsavat"a bildirdi ki, hazırkı baş naziri əvəzsiz edən əsas cəhət onun sadiq və iddiasız olmasıdır: "Əvvəlcə onu nəzərə almalıyıq ki, Azərbaycan prezident üsul-idarəsi olan bir ölkədir. Yəni parlamentli respublikalardan fərqli olaraq bizdə bütün hakimiyyətin mücəssəməsi məhz prezidentdir. Bu mənada ikinci vəzifədə çıxış edən şəxsin siyasi fəaliyyət diapazonu müəyyən qədər çərçivələnir. Artur Rəsi-Zadə bu illər ərzində bu amili çox həssas şəkildə nəzərə alan bir şəxsiyyətdir. O, Heydər Əliyev məktəbini keçib. Bir tərəfdən çalışdığı sahənin məsuliyyətini yaxşı anlayır. Digər tərəfdən, idarəetmədə bəzən müxtəlif maraqlar, hansısa istəklər, bəzən ayrı-ayrı fərqli yanaşmaları da tənzimləmək lazım gəlir. Hökumət bu zaman sanki döyülmüş olur. O, icra hakimiyyəti orqanları vasitəsilə də, siyasi qurumlardan da, cəmiyyətdən də daim təzyiqlər alır. Hökumət hər zaman təhdid altında olur. Onlar yaxşı bilirlər ki, ən yaxşı işlərə görə də onları suçlamaq mövqeyi ola bilər. Yalnız ona görə ki, insanların və cəmiyyətin istəkləri tükənmir. Onu da nəzərə almaq lazımdır ki, 90-cı illərdən sonrakı dövrdə hökumət formalaşarkən müxtəlif amillər buna təsir göstərmiş olurdu. Gah guya islahatçılar Fərhad Əliyevin timsalında buraya daxil olurdular, sonra bəlli oldu ki, maraqlar tamam ayrıdır. Ya da onun içərisindən kimsə antidövlət fəaliyyəti aparmağa başlamışdı. Əli İnsanovun timsalında üçüncü şəxslərin böyük iddiaları ortaya çıxmışdı. Bütün bunların fonunda çox yaxşı tənzimləyici kimi çıxış edən Artur Rəsi-Zadə özünün ağlı, müdrikliyi ilə hökuməti dövlətin quruculuğuna yönləndirə bilmişdi. Bu mənada cəmiyyətdəki maraqların koordinasiya edilməsi onun insani keyfiyyətlərinə də bağlıdır".

**Zahid Orucun sözlərinə görə, əksinə, yaşının müdrik çağında olması ona müəyyən üstünlüklər də qazandırır:** "Bəli, prezident üsul-idarəsində baş nazir tez-tez gündəmdə olmur, nə də Rusiyadakı kimi siz 2-3 gündən bir onun geniş kabinet toplantılarını efirdə müşahidə etmirsiniz. Lakin onun iş qrafikinə baş vursanız əmin olacaqsınız ki, həmin adam səhər saat 9-dan axşam saat 9-a qədər fəal bir iş rejimində olur. Qapısı ictimai problemlərin həlli üçün hansısa addımların atılmasını istəyənlərin üzünə açıq olur. Mən Rəsi-Zadə ilə 16 dəfə görüşmüşəm və hər dəfə onda yüksək anlayış mədəniyyəti görmüşəm. Əlbəttə, o çox yaxşı bilir ki, onun yerində başqaları olmaq istəyərdi. Çünki bu vəzifə kifayət qədər yüksək postdur. Amma bununla bərabər, həm Heydər Əliyev, həm də prezident İlham Əliyev Artur Rəsi-Zadənin dövlətçi, siyasi iddiaları olmayan, heç zaman xəyanət etməyəcək bir sima olduğunu bildiyindən onun yaşının bu müdrik çağında da Artur müəllimlə işləməyə üstünlük verirlər. Yaş amili burada müzakirə mövzusu ola bilməz. Çünki Çində insanlara ən müdrik dövründə, emosionallığın azaldığı, təmkinli yaşda vəzifə verirlər".

**Məclis üzvü hazırkı baş nazirin vəzifəsini layiqincə icra etdiyini də diqqətə çatdırdı:** "Mən görüşlərimdə də müşahidə etmişəm ki, onun bürokratizmi yol veriləcək həddədir. Hər bir məsələyə diqqətlə yanaşır. Dəfələrlə yumor hissi ilə deyir ki, masası üzərində qalaq -qalaq sənədlər toplanmayıb. Yəni hər bir məsələni qanun çərçivəsində yönləndirir, heç bir layihə onun masası üzərində ilişib qalmır. Onun əleyhinə mətbuatda zaman-zaman çox yazılar gedir, ancaq bunlara heç tövrünü pozmur. Çünki çox alicənab insandır. Dövlətinə, millətinə bağlıdır, iddiasız bir insandır və dövlət başçısının apardığı kursa inanır.

16 görüşümün hamısında mən təmsil etdiyim Bərdə rayonu ilə bağlı problemləri gündəmə gətirmişəm. Bu problemlərin 95 faizi ilə bağlı müsbət qərarlar verilib. Bu mənada Artur müəllim çox yüksək keyfiyyətlərə malik olan siyasətçidir. Kaş ki, bir çox nazirlər də elə ona oxşayardı".

**Artur Rəsi-Zadənin bu yaşda belə işgüzar qalmasının sirrini izah edən Zahid Oruc bildirdi ki, bunun birinci səbəbi onun intriqalara, hakimiyyətdaxili qruplaşmalara qatılmamasıdır:** "İkinci bir səbəb yumor hissinin yüksək olmasıdır. "Zamanı dayandırmaq elmi" adlı məşhur bir kitab var. Bu kitabda zamanı dayandırmaqla bağlı bir çox psixoloji, fizioloji terminlər var. Bəlkə də o bunlara dayanaraq addımlar atır, ya da yay istirahətini yaxşı dəyərləndirir. Mənə elə gəlir ki, o heç bir intriqalara qatılmağı üçün ürəyi hədsiz dərəcədə təmizdir və bu baxımdan işgüzarlığını, enerjisini 81 yaşında da saxlayır".

❑ Nərgiz LİFTİYEVA

**Bu ilin əvvəlində qəzet kağızına əlavə dəyər vergisinin (ƏDV) tətbiqi çap mediasının durumunu daha da ağırlaşdırıb. On səkkiz faizlik verginin də xərclərə əlavə olunması qəzetləri böyük risk altına salıb. Media qurumları, ekspertlər problemin qanundakı boşluq səbəbindən yarandığını bildirsələr də, aidiyyəti qurumlar məsələnin həllində maraqlı deyil. Son həftələr ölkəyə gətirilən qəzet kağızının əlavə dəyər vergisindən (ƏDV) azad olunması ilə bağlı yenidən təkliflər verilsə də, rəsmi qurumlar buna reaksiya verməyib. Məsələ hətta Milli Məclisdə də qaldırılıb, ancaq səsləndirilən fikrə adekvat cavab olmayıb. ƏDV-nin ləğvi barədə müxtəlif səviyyələrdə təkliflər olsa da, beş aya yaxındır ki, problem həllini tapmır.**

# Qəzetlər vergidən boğulur - ƏDV niyə götürülmür?

## Ekspertlər əlavə dəyər vergisinin götürülməsini mümkün hesab edir, hətta verginin tətbiqinin qanunsuz olduğu vurğulanır, ancaq...

**"Yeni Müsvaat" qəzetinin baş direktoru Ələsgər Süleymanov məsələ ilə bağlı musavat.com-a bildirib ki, qəzet kağızına ƏDV-nin tətbiqi qəzetlərin durumunu daha da ağırlaşdırıb:** "Belə başa düşürəm ki, problem qəzetlərdən başqa heç kəsi narahat etmir. Bu işlə heç kəs məşğul olmur, nə Mətbuat Şurası, nə başqa mətbuata bağlı qurumlar". Onun sözlərinə görə, ötən il baş verən iki devalvasiyadan sonra qəzetimizin və ümumilikdə qəzetlərin, çap mediasının durumu onsuz da ağırlaşmışdı: "Qəzet kağızının, digər materialların qiyməti artıb, onlar dollarla alınır və xaricdən gətirilir. Bunun üzərinə bu ildən etibarən ölkəyə gətirilən qəzet kağızına 18 faiz əlavə dəyər vergisi də tətbiq edildi. Bu da yükümüzün üstünə bir yük daha artırır. Dəfələrlə bu barədə danışılmasına, müzakirə olunmasına baxmayaraq, hələ də bu, götürülməyib. Bir neçə ay əvvəl belə söz var idi ki, qəzet redaksiyalarına istifadə üçün gətirilən kağız ƏDV-dən azad edilməlidir. Amma bu günə qədər də heç bir addım atılmayıb. Bu beş ay ərzində aldığımız qəzet kağızına əlavə olaraq 18 faiz də pul ödəmək məcburiyyətindəyik. Bu da qəzetlərin onsuz da pis olan durumunu daha da ağırlaşdırır. Aidiyyəti orqanlardan xahiş edirik ki, bu məsələ ilə bağlı araşdırma aparsınlar. Baxsınlar ki, respublikaya gələn qəzet kağızı nə qədərdir, hansı həcmdədir. Bu pulun nə qədər dövriyyəsi var? Bu 18 faiz dövlətə nə verir və sair. Bu məbləğ mətbuata, onun inkişafına vurduğu zərbə ilə müqayisə edildikdə, hansı daha önəmlidir? Böyük bir rəqəm deyil. Dövlət üçün, büdcə üçün böyük bir gəlir deyil. Bundan imtina etmək və qəzet kağızını, çap materiallarını əlavə dəyər vergisindən azad etmək qəzetlərin yükünü bir az yüngülləşdirər. Heç olmasa, qəzetlərin məsrəflərini bir az azaldar".


Ələsgər Süleymanov


Əflatun Amaşov

**"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifov isə qeyd edib ki, ƏDV-nin tətbiqi qəzetdə ciddi maliyyə problemləri yaradıb:** "Onsuz da vəziyyət yaxşı deyildi. Bu addım mətbuatın onsuz da çətin olan vəziyyətini daha da çətinləşdirir. ƏDV-in tətbiqi tələbi onunla əsaslandırılır ki, Vergi Məcələsinin 164.2 maddəsi ləğv edilib. Ekspertlərə görə, əslində bu maddənin idxal olunan qəzet kağızlarına heç bir aidiyyəti yoxdur. Gömrük Komitəsinin özü də gözəl bilir ki, idxal olunan qəzet kağızlarına ƏDV-inin tətbiqi qeyri-qanunidir. Digər tərəfdən, ölkəyə idxal olunan qəzet kağızına görə alınan ƏDV böyük vəsait deyil. Amma bu böyük olmayan vəsait mətbuatın vəziyyətini və problemlərini bir qədər də artırır". Qeyd edək ki, ƏDV-nin tətbiqi nəticəsində artıq ölkəyə gətirilən qəzet kağızının hər tonuna təxminən 220 manat əlavə pul ödənilir.

**"Qaya" Mətbuat Yayımı firmasının rəhbəri Xanhüseyn Əliyev isə musavat.com-a açıqlamasında qeyd edib ki, Gömrük Komitəsinin ƏDV ilə bağlı hərəkətləri qanunsuzdur:** "Həqiqətən isə belə qanun yoxdur. İdxal olunan qəzet və jurnallar ƏDV-dən azaddır. Baş verənlər düşünürəm ki, anlaşılmazlıqdır, qanunda boşluq olub. Bu boşluq da 2005-ci ildən üzübəri başlayıb, yaranıb. 2005-ci ilə qədər ölkəyə idxal olunan qəzet və jurnallar Vergi Məcəlləsi ilə tənzimlənirdi və ƏDV-dən azad idi. 2005-ci ilin yanvarında bütün ƏDV-dən azad olunanlar öz əksini Vergi Məcəlləsində göstəriləndə yanlışlıq oldu. Vergi Məcəlləsinə əlavə digər məhsullara ƏDV-dən azad olunması barədə bənd salındı. Nazirlər Kabinetində ayrı bir siyahı ilə bunu etdilər, 11 saylı qərarla bir sıra məhsullar ƏDV-dən azad olundu. ƏDV ilə bağlı qüvvədə bir qanun və bir qərar oldu. O qərara da qəzet və çap olunan məhsulları salmaq düzgün deyildi. Bu, onsuz da Vergi Məcəlləsində var idi. Bunu səhvən oraya saldılar. 2005-ci ilin sonunda Milli Məclisin qanunu ilə Vergi Məcəlləsinin 164.2-ci bəndi ləğv olundu. Bununla da 11 saylı qərar ləğv olundu. Indi onu əllərində bayraq tutub deyirlər ki, ƏDV ödənməlidir. Ancaq başa salmaq olmur ki, Vergi Məcəlləsi qanundur, qanun qərardan da üstündür. Məcəllənin 164.1.7-ci bəndində bildirilir ki, çap məhsulları ƏDV-dən azaddır. Bu, indiyə kimi qüvvədədir. İndi hazırda idxal olunan qəzet kağızlarına ƏDV tələb edilməsi qeyri-qanunidir. Bu səhvi etiraf etmək lazımdır. Biz bununla bağlı aidiyyəti qurumlara müraciət hazırlayırıq. Qanun mətbuatın tərəfindədir. Hazırda biz ölkəyə gətirilən qəzet və jurnallarla bağlı bu problemi yaşayırıq".

**"Qanun" Nəşriyyatının direktoru Şahbaz Xuduoğlu isə musavat.com-a bildirib ki, xaricdə nəşr olunan kitabların ölkəyə gətirilməsinə bu ilin yanvarında ƏDV tətbiq olunur:** "Xaricdən gələn kitablara, istər türkcə olsun, istər rusca, istər ingiliscə, ƏDV tətbiq olunur. Üstəlik, biz özümüz də müəyyən kitablar var ki, xaricdə çap edirik. Onlara da 18 faiz ƏDV tətbiq olunur. Bu da istər-istəməz qiymətlərin artmasına gətirib çıxarır. Hazırda bu kitabları əvvəlki qiymətlərdən 18 faiz bahalaşdırmaq məcburiyyətindəyik".

**Mətbuat Şurasının sədri Əflatun Amaşov isə deyib ki, problemin ciddiliyi başadüşüləndir və o, bununla bağlı Milli Məclisdə də məsələ qaldırıb:** "Bu məsələni parlamentdə qaldırmışam. Müvafiq qurumların qarşısında da məsələni qaldırmışam. Amma hələ cavab yoxdur. Hesab edirəm ki, mətbuatın indiki şəraitində qəzet kağızı, çap xərci artıb. Belə şəraitdə əlavə dəyər vergisi əlavə problemlər yaradır. Mən ölkəyə idxal edilən qəzet kağızının ƏDV-dən azad olunmasını vacib sayıram. Ümid edirəm ki, aidiyyəti qurumlar məsələyə müsbət yanaşacaqlar".

**Mətbuat Şurasının sədri devalvasiya nəticəsində mətbuatın üzləşdiyi problemlərdən də bəhs edib və ölkəyə gətirilən qəzet kağızına, həmçinin hazır çap məhsullarına tətbiq edilən ƏDV-nin ləğv olunmasını təklif edib:** "Devalvasiyadan sonra qəzet kağızının qiyməti 100 faiz, çap xərcləri isə 50 faiz artıb. Biz bu məsələyə qayıdaraq, mətbuatın durumunu yaxşılaşdırmaq üçün mətbuat üzərindəki ƏDV-nin aradan qaldırılması məsələsini gündəmə gətirsək, çox yaxşı olar".

Xatırladaq ki, bu il yanvarın 1-dən ölkəyə gətirilən çap məhsullarına, o cümlədən qəzet kağızına əlavə dəyər vergisi (ƏDV) tətbiq edilir. Bu vergi növü bir neçə dəfə aradan qaldırılsa da, təzədən tətbiq olunmağa başlayıb. Bildirilir ki, ilk dəfə çap məhsulları üzərindən ƏDV-nin götürülməsi 2000-ci ilə təsadüf edir. Qəzet rəhbərlərinin dövlət başçısı Heydər Əliyevlə görüşündə mətbuatın problemləri müzakirə edildikdən sonra ƏDV ləğv olunsa da, sonradan problem bir neçə dəfə qabarıb. Belə ki, 2007-ci ildə prezident İlham Əliyevin dövründə məsələ yenidən gündəmə gəlib və bir qədər sonra yenidən problem həll edilib. 2016-cı ildə isə Vergilər Məcəlləsinə son dəyişikliklərdən sonra ƏDV-nin ləğvini nəzərdə tutan maddə qüvvədən düşüb və çap məhsulları əlavə dəyər vergisinə cəlb edilib.

❑ Röya RƏFİYEVA



# Hökumətdən gizli tapşırıq; məmurların xaricdəki villaları bu yay boş qalacaq

## "100 nəfər məmurun xaricdə ya ölkədə dincəlməsi ilə məsələ həll olunmur"

**Bu yay məmurlara xaricdə dincəlməsinə hökumətdən qeyri-rəsmi qadağa qoyulub. Bu barədə azadlıq.info saytı etibarlı mənbənin verdiyi məlumata istinadən yazıb. Qeyd edək ki, bu məlumatın yayılması ilk deyil və bir neçə ay öncə "Yeni Müsavat" qəzetində də belə bir informasiya dərc olunmuşdu. Görünən odur ki, hökumət rəsmi şəkildə etiraf etməsə belə, bu il məmurların əli ilə külli miqdarda valyutanın ölkədən çıxarılmasına, xaricdəki kurort zonalarına axmasına qarşıdır.**

Hakimiyyət düşünür ki, məmurlar istirahət üçün pullarını ölkə daxilində xərcləsələr, daha yaxşı olar. Bu baxımdan qeyri-rəsmi şəkildə hər kəsə tapşırıq verilib ki, xaricə dincəlməyə getməsinlər".

Xatırladaq ki, oxşar tapşırıq Rusiya hökuməti tərəfindən də məmurlara verilmişdi. Putin də məmur zümrəsinə xaricdə istirahəti qadağan etmiş və daxildəki kurortları məsləhət bilmişdi.

Bu məqamda azərbaycanlı məmurları narazı salan məqamlardan biri də odur ki, əksər ortabab məmurların xaricdə, istirahət məkanlarında evlərinin, villalarının olmasıdır ki, bu qadağa şəxsi mülklərini onlar üçün əlçatmaz edəcək.

Bəs görəsən, bu addım turizmin gəlirliliyini artırmaq üçün nə dərəcədə effektiv bir addımdır?

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov məsələ ilə bağlı "Yeni Müsavat"a bildirdi ki, belə bir tapşırığın verilməsi insan hüquqlarının məhdudlaşdırılmasıdır:** "Hökumətin belə bir qeyri-rəsmi tapşırıq verməsi ilə bağlı məndə heç bir məlumat yoxdur. Digər tərəfdən, xaricə istirahətə getmək, səyahət etmək hər bir şəxsin hüququdur. Kimliyindən, hansı vəzifə tutmasından asılı olmayaraq, bu, hamının haqqıdır. Elə məmur var ki, xəstəliyi ilə əlaqədar gedir, ona getməyi qadağan etmək olarmı? Burada başqa bir problem ondan ibarətdir ki, qiymətlər arasında fərq çox böyükdür. Buna görə də insanlar daha çox Gürcüstana, Türkiyəyə üz tuturlar. Ancaq məmurlara belə bir tapşırıq verilməsini eşitməmişəm".

**Rusiya prezidenti Putinin də məmurlara belə bir tapşırıq verməsini xatırladan deputat bildirdi ki, bu o qədər də uğurlu variant deyil:** "100 nəfər məmurun xaricdə, ya ölkədə dincəlməsi ilə məsələ həll olunmur. Ölkə turizmini inkişaf etdirmək, qiymətləri yumşaltmaq lazımdır ki, insanlar üçün cəlbedici olsun. Mən başa düşürəm ki, Rusiya iqtisadi baxımdan çox ağır vəziyyətdədir, Türkiyə ilə aralarında problem yaranıb, turizm sahəsində problem var. Biz isə hələ 10 milyona çatmamışıq. Bu insanların harada dincəlməsinin ölkə üçün əhəmiyyəti o qədər də böyük deyil. Əlbəttə, insanlar vəsaitlərini ölkədə xərcləsələr, daha yaxşı olar. Lakin sırf məmurlara şamil edilməsi bir qədər problemlidir, ola bilər ki, məmur xaricə həm istirahət, həm də müalicə məqsədilə gedir. Müəyyən nüanslar var ki, onları da nəzərə almaq lazımdır".

**İqtisadçı ekspert Rəşad Həsənov da vurğuladı ki, bu kimi yanaşmalar normal bazar iqtisadiyyatı prinsiplərinə uyğun deyil:** "Bu, vətəndaşın səyahət, istirahət hüququnu məhdudlaşdırmaqdır. Fərq etməz, məmur da vətəndaş sayılır və qanun hamı üçündür. Bir çox inkişaf etməmiş ölkələrdə də buna bənzər addımlar atılır. Azərbaycanda isə məmurlara öz yay məzuniyyətlərini ölkə daxilində keçirmələri ilə bağlı tapşırığın verilib-verilməməsinin nə dərəcədə doğru olduğunu deyə bilmərəm. Amma özlüyündə bu, ölkədən xaricə valyuta axınının qarşısını almaq, daxili turizmin gəlirliliyini qismən təmin etməkdir. Çünki sadə insanların xaricdə dincəlmək imkanları kifayət qədər məhduddur. Ölkədən çıxdıqda belə onlar külli miqdarda valyuta ilə getmirlər, minimum xərclərlə istirahət edirlər. Ölkədən ən çox vəsait məmurlar vasitəsilə çıxarılır. Bu məlumat doğrudursa, nə qədər iqtisadi, siyasi prizmadan yanlış olsa da, ölkədən valyuta axınının məhdudlaşmasına gətirib çıxaracaq".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016

# İstanbul zirvəsindən dünyaya mühüm Qarabağ mesajları



**Azərbaycan prezidenti İlham Əliyev İstanbulda keçirilən 60-dək ölkənin dövlət və hökumət başçılarının iştirak etdiyi Dünya Humanitar Sammitində Ermənistanın təcavüzkar siyasəti, cinayətkar əməlləri barədə növbəti dəfə çıxış etdi.**

20 ildən artıqdır ərazilərimizi işğalda saxlayan düşmən ölkənin Xocalıda törətdiyi soyqırımı xatırladan ölkə rəhbəri aprel hücumu zamanı Azərbaycanın əsgər və zabitlərinin, o cümlədən 6 dinc sakininin həlak olduğunu, 30-a yaxın mülki şəxsin isə yaralandığını dedi. İ.Əliyev Ermənistanın BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirmədiyini elə BMT baş katibi Pan Gi Munun iştirakçısı olduğu zirvədə xatırlatdı. "BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələri 20 ildən çoxdur kağız üzərində qalıb. Lakin digər məsələlərlə bağlı qətnamələr gün və ya saatlar içərisində yerinə yetirilir" - dövlət başçısı bəyan edib. **Ölkə rəhbəri deyib ki, Ermənistan bu qətnamələri yerinə yetirməlidir. Üstəlik, o, işğalçının əlindəki "çirkli bomba"dan da bəhs edib.** "Hazırda regionda digər böyük təhlükə Ermənistanın Metsamor Atom Elektrik Stansiyasıdır. Ermənistanın bu stansiyanın radioaktiv tullantılarından qanunsuz istifadə etməsi ilə bağlı məlumatlar var. Ermənistanın parlament rəsmiləri, siyasətçiləri aprel ayında elan etdilər ki, ölkənin nüvə silahı - "çirkli bomba"sı var. Buna beynəlxalq ictimaiyyət tərəfindən reaksiya verilməlidir. Ermənistanın nüvə təhdidi dayandırılmalıdır" - prezident deyib.

Lakin düşmən hətta dünyanın nəzərinin Qarabağ məsələsinə yönəldiyi, danışıqların bərpası istiqamətində dünya güclərinin hərəkətə keçdiyi bu ərəfədə də aqressivliyindən əl çəkmir, hətta torpaqlarımızda hərbi təlimlər keçirir. Eyni zamanda düşmənin iyunda keçirilməsi gözlənilən görüşü pozmaq üçün təxribatlar hazırladığı barədə də xəbərlər var. Azərbaycan prezidentinin İstanbuldakı Humanitar Forumda dünya birliyinə Ermənistanla bağlı çağırışları hər hansı effekt verəcəkmi, yoxsa yenə laqeyd münasibət davam edəcək?

**Politoloq Arzu Nağıyev ölkə başçısının çıxışının dünyanın Qarabağ məsələsinə diqqətinin artması baxımından təsirli olacağını düşünür. Ekspert işğalçı ordunun Azərbaycan ərazilərindəki hərbi təlimlərin böyük müharibəyə hazırlıq məqsədi daşıdığını da güman etmir:** "Düşünmürəm ki, bu təlimlər məhz böyük savaşın başlanmasına bir anonsdur. Burada hərənin öz məqsədi var. Erməni hərbi birləşmələri artıq heç bir beynəlxalq normalara məhəl qoymayaraq, Azərbaycan ərazilərində hərbi təlimlər keçirir və təəssüf ki, dünya ictimaiyyəti susur. Digər vaxtlar Ermənistan Dağlıq Qarabağ ərazisində öz hərbi birləşmələrinin olduğunu inkar edirdisə, bu gün artıq müdafiə naziri Ohanyan təlimlərə rəhbərlik edir. Təbii ki, bunun arxasında Rusiya dayanır və bu təlimlərin keçirilməsində hərtərəfli maraqlıdır. İlk növbədə aprel hadisələrində silahlarının zəifliyi və kadr potensialının olmaması faktı üzə çıxdığı üçün düşmən yeni manevrlər edir. Azərbaycan isə öz torpaqlarında hər cürə təcavüzə hazır olmaq üçün taktiki təlimlər keçirir".

**A.Nağıyev Vyana danışıqlarının ardınca planlaşdırılan iyun goruşündən də bəhs etdi:** "Təəssüflə qeyd etmək lazımdır ki, ermənilər bu hərəkətləri ilə danışıqları dayandıra bilərlər. Azərbaycan tərəfi öz üzərinə heç bir məsuliyyət götürməyib və ərazi bütövlüyümüzün bərpası şərti ilə sülhə də hazırdır. Lakin ermənilərin bu məsuliyyətsiz addımları bizi daha konkret və kəskin addımlar atmağa vadar edə bilər və buna da haqqımız var. Artıq dünya ictimaiyyəti də bu həqiqəti dərk edir və adekvat reaksiya verir. İstanbul zirvəsində də bunun şahidi olduq. Belə getsə, böyük savaş olmasa da, lokal hərbi əməliyyatların şahidi ola bilərik".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bir məqama diqqət çəkir:** "Dünya Humanitar Sammitinə qatılan onlarla lider şəkil çəkdirərkən Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğanın bir tərəfində BMT baş katibi Pan Gi Mun, digər tərəfində İlham Əliyev dayanmışdı. Bu, Ərdoğanın Əliyevlə və Azərbaycanla münasibətlərə verdiyi önəmdən irəli gəlir".

**Ekspert İ.Əliyevin ayrılıqda həm Türkiyə, həm də Ukrayna prezidentləri ilə görüşlərini də xüsusi dəyərləndirir. E.Şahinoğlu prezidentin "Metsamor" Atom Elektrik Sansiyasından bəhs etməsini də mühüm amil saydı:** "Ümumiyyətlə, son həftələr rəsmi Bakı bu mövzunu beynəlxalq aləmdə aktuallaşdırmağa çalışır. Bunun iki səbəbi var. Birinci səbəbi odur ki, avadanlıqları köhnəlmiş "Metsamor" bölgə üçün təhlükə mənbəyidir, ikinci Çernobıl hadisəsinin təkrarlanması ehtimalı az deyil. İkinci səbəb isə odur ki, Ermənistan hakimiyyəti atom elektrik stansiyasının tullantılarından "çirkli bomba" hazırlaya bilər və bu haqda siqnalların sayı getdikcə çoxalır.

İlham Əliyevin çıxışının üçüncü hissəsi Dağlıq Qarabağ münaqişəsi zamanı azərbaycanlı qaçqınlarla bağlı idi. Yəni dövlət başçısı dünyaya bu mesajı verdi ki, beynəlxalq aləm işğal nəticəsində azərbaycanlı qaçqınların varlığını da unutmamalıdır. Prezidentin İstanbuldakı bu çıxışı bölgədə vəziyyətin yenidən gərginləşə biləcəyindən öncə beynəlxalq aləmə son xəbərdarlıq mesajı kimi də qiymətləndirilə bilər. Çünki Azərbaycan və Ermənistan prezidentlərinin iyun ayının sonundakı görüşündən də nəticə çıxmazsa, bölgədə toqquşmaların baş verməsi ehtimalı yenidən artacaq".

Elə zirvənin gedişində Türkiyə hökumətinin Azərbaycana ciddi dəstək verməsi qardaş ölkənin Qarabağ məsələsini prioritet saymasının təsdiqi oldu. Prezident R.T.Ərdoğan fəaliyyətsizliyinə görə Minsk Qrupunu tənqid etdi. Ardınca isə Türkiyənin yeni baş naziri Binəli Yıldırım da Dağlıq Qarabağ münaqişəsinin həllindən danışdı. O, Türkiyə Böyük Millət Məclisində (TBMM) çıxış edərkən deyib ki, münaqişənin ədalətli həlli üçün əlindən gələni edəcək."İki ölkə arasında gərginliyin azaldılması və Azərbaycanın Ermənistan tərəfindən işğal edilən torpaqlarının azad edilməsi üçün səy göstərməliyik" - o bildirib.

## Prezident İlham Əliyevin BMT baş katibinin də iştirak etdiyi ali tədbirdə Ermənistanın BMT qətnamələrini icra etməməsini xatırlatması nə vəd edir? Ekspertlərdən maraqlı açıqlamalar...

### Bahar Muradova: "Prezidentlərin iyun görüşü istənilən nəticəni verməsə, Azərbaycan öz qəti qərarını verəcək"

**"Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü iyun ayında baş tutsa belə, o görüş bütövlükdə məsələnin həlli demək olmayacaq". Bunu isə Azərbaycan Milli Məclisi sədrinin müavini Bahar Muradova deyib. Onun sözlərinə görə, bu, Qarabağ münaqişəsində yeni xarakterli danışıqlar mərhələsidir:** "Biz bu danışıqlar prosesini yeni bir mərhələnin başlanğıcı kimi dəyərləndiririk. Əgər əvvəllər bu formatda keçirilən görüşlərdə yalnız bəyanatlar verib məsələnin uzanmasından narahatlıq ifadə, tərəflərə qarşılıqlı güzəştə getmək təklif olunurdusa, indi artıq məsələnin həlli ilə bağlı ciddi çağırışlar olmalıdır".

**Modern.az-ın məlumatına görə, B.Muradova bildirib ki, prezidentlərin iyun görüşü istənilən nəticəni verməsə, Azərbaycan öz qəti qərarını verəcək:** "Bu görüşlərdə görsək ki, məsələnin həlli ilə bağlı həm vasitəçilər ciddi mövqeyə malikdir, həm də Ermənistan tərəfi bu ciddi mövqeləri qəbul edərək konstruktiv mövqe istiqamətində fəaliyyət göstərə bilir, o zaman biz bu danışıqların perspektivinə inana bilərik. Onun davamlı şəkildə getməsində iştirak edə bilərik. Yox, əgər görsək ki, növbəti dəfə söhbət baş aldatmaqdan, məsələni növbəti on illər boyu uzatmaqdan gedir, əlbəttə, Azərbaycan öz qəti sözünü söyləyəcək".

❑ E.PAŞASOY

---

# İndi nə edək? 3000-ci ili gözləyək?



Hüseynbala SƏLİMOV

**Az qala otuz ildir ki, siyasətdən yazıram. Amma hər dəfə siyasət məni təəccübləndirməkdə davam edir. Bəzən hətta mənə elə gəlir ki, bu otuz ildə siyasətdən otuz kəlmə də başa düşməmişəm...**

Qərəz, bugünlərdə D.Kameronun bir bəyanatını oxudum. İngiltərənin baş naziri ərz etmişdi ki, Türkiyə Avropa Birliyinə üzv olmasını hətta 3000-ci ildə də reallaşdıra bilməz...

Nə gizlədim? Avropanı, onun mədəniyyətini, siyasi sistemini çox sevir və yüksək dəyərləndirirəm.

Amma buna baxmayaraq, Avropa siyasətçilərinin təkəbbürü hər dəfə məni üzür. Bəli, çox istərdik ki, bizim Türkiyə AB-nin üzvü olsun. Bu, bir müsəlman ölkəsinin birdəfəlik demokratiya dünyasına qədəm qoyması demək olardı.

Amma buna on illər sərf edildi. Fəqət, nəticəsi olmadı. Demək istəmirik ki, həmin illər tamam faydasız ötüşdü. Yox, Türkiyə müəyyən siyasi və ya iqtisadi islahatlar apardı. Bunlarsa ölkənin daha da demokratikləşməsinə və sağlam iqtisadi mühitin, fonun yaranmasına səbəb oldu. Di gəl, Türkiyə Avropa Birliyinə üzv olmadı.

Nə etmək olar? Bir vaxt Türkiyəyə səfər edən Fransa prezidenti demişdi ki, Türkiyənin Avropaya, Avropanın da Türkiyəyə ehtiyacı yoxdur... Bununla sanki on illərlə davam edən prosesə nöqtə qoyuldu. Fəqət, indi suriyalı qaçqınların Türkiyədə cəmlənməsi və Avropanın buna görə Türkiyəyə minnətçi düşməsi bizi yenidən həmin köhnə prosesə qaytardı. Demirik proses əvvəlki aktuallıqla bərpa olundu. Amma Avropanın öz keçmiş partnyoruna vizasız rejim vəd etməsi və sonra da durub bunu müəyyən məsələlərlə şərtləndirməsi köhnə Avropa Birliyi söhbətlərini azca olsa da, təzələdi.

Onların nə qədər davam edəcəyini bilmirik. Amma güman edirik ki, bir o qədər də sürəkli olmayacaqlar...

Türkiyə-AB münasibətlərində məni həmişə bir detal düşündürüb. Bəli, öz inkişaf səviyyəsinə görə Türkiyə hələ Avropa ölçülərinə cavab vermir və xeyli nöqsan var. Fəqət, güman etmirik ki, bu, Birliyi ehtiyatlandıran ən əsas səbəbdir.

Yox, burada əski stereotiplər daha çox rol oynayır və belə demək olar ki, Avropa müsəlman ölkəsinin dirçəlməsində heç də maraqlı deyil. Avropa Türkiyəyə hələ də ehtiyatla yanaşır və keçmiş Osmanlını unuda bilmir...

Ümumiyyətlə, böyük dövlətlərə Avropa çox ehtiyatla yanaşır. Məsələn, bəlkə də yanılırıq, amma yaxın vaxtlarda Ukrayna Avropa Birliyinin üzvü olsa, buna çox təəccüblənərik. Niyə görə? Ona görə ki, Ukrayna böyük ölkədir, əhalisi də çoxdur...

Ən əsası isə heç, bilirsiniz, nədir? Təbii ki, Avropa böyük bir sivilizasiyadır. Bu xüsusda elə bir etirazımız yoxdur. Kim Avropanın dünya mədəniyyətinə töhfəsini unuda bilər? Amma inkişaf təkcə Avropa hüdudları ilə məhdudlaşmayıb. Çin Avropadırmı? Yaponiya Avropadırmı? Cənubi Koreya Avropadırmı? Və yaxud da elə ABŞ özü Avropadırmı? Bəli, Kameron Türkiyənin AB - yə üzv olmayacağını deyir. Amma onun öz ölkəsində AB-yə neqativ münasibət bəsləyənlər, ölkələrinin Birlikdən çıxmasını arzu edənlər də az deyil. Deməli, insanlar, o cümlədən də avropalıların bir hissəsi, özü də əhəmiyyətli hissəsi Avropaya qurtuluş məkanı, cənnət kimi baxır.

Avropa ölkələri Birlik yaranana qədər çox böyük inkişaf yolu keçdilər. Türkiyə də çalışmalıdır ki, bu yolu keçsin. Bu yol keçilsə, heç AB-yə üzv olmağa da ehtiyac qalmaz...

Çoxdandır ki, biz müsəlmanlar öz təşəbbüsümüzlə heç nə etmirik, təşəbbüskarlığımızı, kreativliyimizi tamam itirmişik. Bu məsələ də məni daim düşündürür. Bu yaxınlarda türk əsilli Nobel ödülçüsü belə bir söz demişdi ki, son beş yüz ildə müsəlman aləmi dünya elminə heç bir töhfə verməyib.

İlk baxışda bununla razılaşamamaq da olardı. Ona görə ki, yüzlərlə müsəlman əsilli alimin adını çəkmək olardı ki, onlar həqiqətən də çox böyük işlər görüblər...

Amma bir detala fikir verin. Onlar haqqında biz "müsəlman əsilli" dedik.

Ona görə ki, müsəlman olsalar da, daha çox Amerika və yaxud Avropa alimləri kimi fəaliyyət göstəriblər. Dünya mədəniyyət və elm arealında müsəlmanlar son vaxtlar bir ölkə və dövlət kimi təmsil olunmayıb.

Ən ağrılısı isə odur ki, həmin ölkələr faktiki olaraq bununla barışıblar. Hətta bu xüsusda söhbət düşəndə onların təmsilçiləri qayıdır ki, belə hal heç də faciə deyil, guya elmin vətəni olmur. Amma həqiqətənmi belədi?

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016



# İnək xoşbəxtliyi

Zamin HACI
zaminhaci@gmail.com

**Dükandan ayran almışdım, evdə uşaq ayranın qabının üstünü oxuyub mənə deyir: "Ata, buna bax, inək xoşbəxtdir". Elə bildim uşaq məni dolayır, çünki təhsil sistemimizin dəhşətli, fısqırıq inkişafı üzündən bu saat uşaqların valideynlərini barmağına sarıması adi haldır. Doğrusu, mən bunun əleyhinə deyiləm, hətta dəstək verirəm, çünki Azərbaycan kimi ölkədə doğruçu uşaq böyütsən, zəhləm getmiş şablonla desək, "həyata atılanda" ona çox çətin olacaqdır. Ona görə də tanıdığım uşaqlar bir yalan danışanda mən beşini üstünə qoyuram. Tarix dərsliyində ölkəmizin 1993-cü ildə xilas olunması yazılıb, mən bunu uşağa "Planet xilas edilib" şəklində öyrədirəm. Uşaq "Ata, ümumdünya cazibə qanunu necədir" soruşanda mən "Azərbaycan dünyaya Günəş kimi doğmuşdur!" deyirəm. Başqa yolumuz yoxdur. Məşhur məsələdə deyilən kimi, müqavimət göstərə bilmirsənsə, heç olmazsa ləzzət almağa çalış.**

Burada bir haşiyə çıxım. Təzəlikcə çox qəddar bir elmi məlumat öyrənmişəm. Zorlamaya məruz qalan qadınların hamilə qalmaq ehtimalı öz razılığı ilə cinsi əlaqədə olan qadınların hamiləlik ehtimalından qat-qat yüksək imiş. Zorlama cinayətlərindən sonra hamiləlik ehtimalının yüksəkliyi əslində anormal görünür. Axı burda stress, əzab var, normalda bədən yad qüvvənin təsirini rədd etməlidir. Amma etmir. Sən demə, bu, təkamül nəzəriyyəsi ilə izah olunur: zorlamaya məruz qalan qadının orqanizmi nəsil davam etdirmək üçün güclü kişinin toxumlarına üstünlük verirmiş. Təbii seçmədə güclülər qalib gəlir. Bunu siyasi sistemlərə, xüsusən avtoritarizmin, repressiyanın dayanıqlı olmasına da aid eləyə bilərik. Cəmiyyət zorakılığa uzun müddət məruz qalanda onun toxumlarını daha müsbət qəbul edir, "güclü liderin" davamçısı olmağı yaxş hal sayır. Avtoritar rejimlərdə güc strukturlarına kütləvi pərəstiş, hər kəsin uşağını polis, prokuror qoymağa çalışması da elə həmin "təbii seçmənin" nəticəsidir.

Qayıdaq ayranımızın yanına, yoxsa kimsə oğurlayıb içəcək. Qabın üstünü oxuyanda gördüm orada həqiqətən də "Xoşbəxt inək südündən" yazılıbdır! Firmanın adını reklam və ya antireklam (bizim ölkədə hansıdır - kim bilir?) olmasın deyə yazmıram, ancaq Ağcabədidə, Ağabəyli kəndində istehsal edildiyini xüsusi bildirməliyəm. İçində bu qədər ağ, ağa, bəy adı olan yerdə inək xoşbəxt olmağa məhkumdur.

Bəli, ölkəmizdə xoşbəxtlik aşıb-daşır, artıq insanlarımıza bəs eləmir, inəklərə də bu xoşbəxtlikdən pay düşməyə başlamışdır. Bu ayran qabını adi marketinq fəndi, reklam şüarı kimi qəbul etməyin əleyhinəyəm, burada respublikamızın analoqu olmayan tərəqqisinin parlaq güzgüsü vardır!

Avam adamlar deyə bilər ki, xoşbəxt inəyin südü ilə bədbəxt inəyin südü arasında hansı elmi fərqlər var, ümumiyyətlə, inəyin xoşbəxtliyi nə ilə ölçülür. Halbuki, bunlar çox sadə həyat həqiqətləridir. Elementar bir misal çəkim: sizcə İsveçrədə, Alp çəmənliyində çiçək qırpan ala gözlü, şokolad kağızına şəkil çəkdirən və bunu İnstaqramda yayan inəklə Azərbaycanın hansısa Aran rayonunda yol qırağında qanqal otlamaqdan ağzı dəvə ağzına bənzəyən, qabırğaları Bakıdan görünən, az süd verdiyi üçün əmcəyi dartılıb yerə dəyən və hər gün yiyəsi tərəfindən eşşək kimi döyülən inəyin fərqi yoxdurmu? Yaxud Hindistanda inəklər bəzi ölkələrdəki adamlardan yaxşı yaşayırlar.

Şübhəsiz, inəklərin xoşbəxtliyi deyilən bir şey vardır. Bizim inəklər də bu xoşbəxtliyə çatıblarsa, niyə sevinməyək? Hətta yaxşı olar bu xoşbəxt inəkləri kosmosu tədqiq proqramımıza qoşaq, növbəti "Azərsat" peykində uçurdaq. Mən biləni, kosmosa it, meymun uçurdan olub, hələ inək olmayıb. İlkə imza atarıq, axı biz dünya lideriyik.

Pis-yaxşı ot var (dünyada böhrandır, Mərakeşdə hətta keçilər ağaca dırmaşıb yarpaq yeyir), il boyu məmələr sığallanır, ildə bir dəfə də kələ gəlir - inək xoşbəxtliyi üçün başqa nə lazımdır ki? Heç nə. Qalır o xoşbəxt inəyin südünü xoşbəxt xalqa içizdirəsən.

# Kremldən Bakıya və Qərb paytaxtlarına ilginc təhdid

**Postsovet məkanı, o sırada Azərbaycanın da yer aldığı Güney Qafqaz bölgəsi ətrafında situasiya dəyişir. Bu, o deməkdir ki, rəsmi Bakı üçün də yeni və ciddi çağırışlar var. Qarabağ konfliktinin mövcudluğu bu çağırışları ikiqat əhəmiyyətli edir. Keçək faktlara.**




## Putinin müşaviri "Donbas" deyib Qarabağı işarə verdi - "Separatçı ərazilər bizlikdir!"

### Rusiya Avropa və Amerikanı Qafqazla şantaj edir; Bakı üçün şərtlər dəyişir; Azərbaycanın İsraildəki adamı isə hakimiyyətə qayıdır - ermənilərin və rusların "ən pis yuxusu" tezliklə çin ola bilər...

"Donbas Rusiyanın müdafiəsi altındadır". Bunu "Exo Moskva" radiosuna açıqlamasında rusiyalı politoloq, Rusiya prezidenti yanında İctimai Palatanın üzvü, Putinin müşaviri sayılan Sergey Markov deyib. Onun sözlərinə görə, Donbasa qarşı istənilən hücuma Rusiya sərt cavab verəcək. O, həmçinin iddia edib ki, "Donbas ordusu" Avropanın altıncı ən güclü ordusudur.

Kremlin sözçülərindən olan Markov son vaxtlar Qarabağa dair "Kazan formulu" ilə bağlı sensasion xarakterli açıqlamaların müəllifi kimi yadda qalıb. Onun Donbas açıqlaması isə bir daha Kremlin separatçı bölgələrə, o cümlədən Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağa gerçək münasibətini ortaya qoyur, Moskvanın bu kimi münaqişələrin həllində əslində qətiyyən maraqlı olmadığını, yaxud sülh səylərində səmimi olmadığını nümayiş etdirir.

Markovun son bəyanatı NATO-nun, ABŞ-ın Rusiya sərhədləri boyunca *(Baltikyanı ölkələr, Ukrayna, Moldova, Gürcüstan)* son zamanlar xeyli fəallaşması fonunda səslənməsi ilə diqqət çəkir. Görünən budur ki, Rusiya özünün "həyati maraqlar zonası" elan elədiyi "Yaxın xaric" ölkələrində, məxsusən özünün qızışdırdığı separatçı bölgələrin yaxınlığında Qərbin, ABŞ və NATO-nun nüfuzunu artırmasından bərk narahatdır. "Donbas Rusiyanın müdafiəsi altındadır" işarəsi da o anlama gəlir ki, Dağlıq Qarabağ da daxil, postsovet məkanındakı bütün münaqişələri məhz Kreml yaradıb və bu ərazilər məhz "onluqdur".

Qənaətimizi gücləndirən başqa gəlişmələr də var.

"Gürcüstanın NATO-ya üzv qəbul edilməsi Avropanın təhlükəsizliyinə zərbə olacaq". Bunu jurnalistlərə açıqlamasında Rusiyanın NATO-dakı daimi nümayəndəsi Aleksandr Qruşko söyləyib. Onun sözlərinə görə, bu, Avropa üçün böyük təhlükə yaradacaq.

Bundan qabaq Rusiya NATO-nun Şərqi Avropada qoşunlarını artırmasını özü üçün təhdid adlandırmışdı. Təhdid xarakterli bənzər açıqlamanı az öncə Rusiyanın xarici işlər naziri Sergey Lavrov dilə gətirərək demişdi ki, Gürcüstanın NATO-ya üzv olacağı təqdirdə "cavab tədbirləri görüləcək".

***

Qeyd edək ki, Azərbaycanın həm coğrafi, həm də siyasi anlamda əsas "Qərb qapısı" sayılan Gürcüstanın Şimali Atlantika blokuna sürətli üzvlüyünə münasibət birmənalı deyil. Belə fikir var ki, Qərb Gürcüstanı hərtərəfli müdafiə edəcəyinə əmin olmayınca, öz təhlükəsizlik çətiri altına almayınca belə bir addıma gedilməməlidir. Əks halda, qoşunları Tiflisin cəmi 100 km-də olan Rusiyanın regionda növbəti hərbi avantürasına bəhanə verilə, 2008-ci il kritik olayları təkrarlana bilər.

Görünür, bu üzdən NATO, ABŞ alyansa üzvlük məsələsindən öncə tam doğru olaraq, Gürcüstanın hərbi və özünümüdafiə qabiliyyətini zəruri həddə çatdırmaq yönündə addımlar atır. ABŞ Senatının ötən il Gürcüstanı, Ukrayna və Moldovanı NATO-dan kənar müttəfiq ölkələr kimi tanımaq qərarı, həmçinin, bu gün - 26 mayda Gürcüstan Respublika Günündə başa çatan NATO-nun genişmiqyaslı təlimləri eyni hədəfə hesablanmış gedişlərdir. Ən önəmlisi, Moskvaya "Qafqaza, Ukraynaya gəlirik!" mesajıdır. Xəbər verdiyimiz kimi, təlimlərdən sonra ilk dəfə olaraq Gürcüstanda alyansın kiçik hərbi kontingenti də saxlanacaq.

**Qonşu Gürcüstanda son baş verənlərin təbii ki, Azərbaycana birbaşa dəxli var - Rusiya amilinə görə. Bəzi siyasi müşahidəçilər buna görə hətta narahatdırlar. Məsələn, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiya məsələləri komitəsinin üzvü Zahid Oruc hesab edir ki, Amerika tanklarının Gürcüstanda hərbi təlimlərdə iştirakı o deməkdir ki, açıq şəkildə Qafqazdakı hərbi siyasi balansı dəyişmək istəyirlər. Onun sözlərinə görə, təlimlər NATO ilə xeyli yaxınlaşan Gürcüstanın hərbi sistemini təkmilləşdirmək, orduda islahatları dərinləşdirmək və NATO standartlarına yaxınlaşdırmaq, Avroatlantik məkanın dəyərlərini bu bölgəyə gətirmək adı ilə keçirilir (axar.az).**

"Reallıqda isə bu ölkənin imkanlarını genişləndirməkdə strateji maraqlar gizlənilir. Bu təlimlər ilk növbədə NATO infrastrukturunun Gürcüstana daşınmasıdırsa, digər yandan bu ölkənin Rusiya ilə toqquşmasını doğurmaqdır. Açıq şəkildə Qafqazdakı hərbi siyasi balansı dəyişmək istəyirlər. Qərb qüvvələrinin hərbi dairələrinin burada iştirakı isə regiondakı vəziyyəti bir az da mürəkkəbləşdirir. Gürcüstan qəti qərbyönlü siyasət seçdiyindən, Amerika tankları artıq Qafqazda bir faktora çevrilməkdədir. Biz Avropa dairələri və ABŞ-la çox yüksək münasibətlərə malikik və bu, milli mənafelərimizə uyğun bir xətdir. Lakin Qərb hərbi qüvvələri Gürcüstanı aşıb, sonra Qarabağı işğaldan azad edəcək, yaxud indiki kövrək dövrdə Azərbaycan da o təlimlərə qoşulsun, az qala Cənubi Qafqazda bir hərbi ittifaq yaradılsın və bu, anti-Rusiya bloku kimi təzahür etsin, bunun üzərindən torpaq bütünlüyü planları qurulsun kimi sadəlövhcəsinə düşünənlər də var. Mən bunu təhlükəsizliyimiz üçün risk sayıram" - deputat qeyd edib.

***

Lakin fərqli mövqedə olanlar da az deyil. Onların əsas arqumenti budur ki, Gürcüstan və ya Azərbaycan Qərbin himayəsinə və qarantiyası altına keçəndən sonra Rusiya bu ölkələrə qarşı təxribatlara cürət etməz. Azərbaycan isə üstəlik, Rusiya üçün Gürcüstan deyil, onunla kifayət qədər yaxşı əlaqələrə malikdir, Rusiyanın etibarlı silah alıcısıdır. Eyni zamanda Türkiyə amili Moskva üçün çəkindirici rol oynamaqdadır.

Bakının daha bir güclü "kartı" İsraillə hərbi və hərbi-texnoloji sahədə uğurla inkişaf edən əlaqələrdir. İsraillə əməkdaşlıq isə avtomatik şəkildə beynəlxalq yəhudi lobbisinin Qarabağ məsələsində dəstəyi deməkdir - hansı ki, 4 günlük müharibə zamanı özünü göstərə bildi: Azərbaycan ordusunun təmizləmə əməliyyatı erməni təbliğat maşınının səylərinə rəğmən, Qərbdə narahatlıq yaratmadı.

Yeri gəlmişkən, bu arada bəlli olub ki, Azərbaycanın İsraildəki əsas tərəfdarlarından olan sabiq xarici işlər naziri, ölkənin əsas ideoloqlarından sayılan Aviqdor Libermanın sədri olduğu "Evimiz İsrail" Partiyası ilə baş nazir Benyamin Netanyahunun lideri olduğu "Likud" Partiyası arasında koalisiya qurmaq haqda razılıq əldə olunub. Dünən sazişin dünən Knessetdə imzalanması gözlənilirdi. Öncə xəbər verdiyimiz kimi, koalisiya yaranarsa, Liberman müdafiə naziri təyin olunacaq. O halda ermənilərin İsrail-Azərbaycan əlaqələri ilə bağlı "ən pis yuxusu" çin hesab edilə bilər. Elə rusların da...

***

**Bütün hallarda Azərbaycan öz köklü maraqlarının imkan verdiyi istiqamətlərdə öz təhlükəsizliyini gücləndirəcək optimal addımlara davam eləməlidir - qardaş Türkiyə ilə sinxron şəkildə, Rusiya "nə deyər" şərtini bir azca arxa plana sürüşdürməklə. Çünki zaman və şərtlər indi yetərincə fərqlidir və heç də Kremlin xeyrinə işləmir. Bunu hətta işğalçı Ermənistan da hiss etməyə başlayıbsa, tələsmək kimi gecikmək də Azərbaycana xətər yetirə bilər.**

❑ **Analitik xidmət**


Novruz Məmmədov

# Politoloqdan Qarabağdakı monitorinqlə bağlı etiraz və xəbərdarlıq

## Elxan Mehdiyev: "Bu cür saziş dünyada işğalçı ilə analoqu olmayan hadisə kimi qiymətləndiriləcək"

**Azərbaycan və Ermənistan prezidentlərinin Vyana görüşündə cəbhə xəttində baş verən insidentləri araşdırmaqla bağlı mexanizmlərin yaradılması təşəbbüsünün irəli sürülməsi birmənalı qəbul olunmayıb. Hesab olunur ki, bu, daha çox Azərbaycan ərazilərini işğalda saxlayan ermənilərin mənafeyinə xidmət edən məsələdir ki, həmsədrlərin də təzyiqi ilə Azərbaycana qəbul etdirilib.**

Məsələyə münasibət bildirən Prezident Administrasiyası rəhbərinin müavini, **Xarici Əlaqələr Şöbəsinin müdiri Novruz Məmmədov** isə ANS-ə son açıqlamasında fərqli fikirlər söyləyib. Onun sözlərinə görə, N.Məmmədov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin Vyana görüşündən sonra səlahiyyətlərinin artırılmasını şərh edərkən qeyd edib ki, Azərbaycan bununla bağlı rəsmi mövqe bildirib: "Burada əsas ideya atəşkəs rejiminin möhkəmləndirilməsi idi. Yəni aprelin əvvəllərindəki kimi və ondan sonra da Ermənistan tərəfi daim təxribatlarla məşğuldur. Bunların olmaması üçün bir neçə təklif irəli sürüldü, onlardan biri də ATƏT-in nümayəndəsinin monitorinq aparması üçün mandatının genişlənməsi idi. Prinsip etibarı ilə biz dedik ki, bu təklifləri həmsədr ölkələrin təklifləri kimi qəbul edirik, yəni buna etiraz etmirik". **PA rəsmisi əlavə edib ki, ATƏT-in nümayəndəsinin monitorinq imkanları bu vaxta qədər də olub:** "Bizim istədiyimiz burda yalnız budur ki, monitorinq olursa-olsun, etiraz etmirik, müəyyən mənada genişləndirmə imkanları varsa da, genişləndirilsin. Amma bu ədalətli olsun, bununla bağlı, baş verən hadisələrlə bağlı nümayəndə heyəti düzgün fikir bildirsin, bəyanat versin, açıq-aydın desin". O deyib ki, baş verən hadisələrlə bağlı dəqiq, qərəzsiz, reallığı əks etdirən mövqenin ortaya qoyulması böyük bir problemdir. "Ermənistan tərəfi fosforlu bomba işlədir, bununla bağlı nə həmsədrlər, nə ATƏT-in nümayəndəliyi bir mövqe bildirmir, bəyam bu normal haldır", - deyə Məmmədov vurğulayıb.

**Politoloq Elxan Mehdiyev isə ATƏT-ə verilən səlahiyyətləri zərərli sayır:** "Administrasiya rəsmisi mayın 18-də Kasprşik ofisinin heç bir halda genişlənməyəcəyini, 22-də isə



genişlənəcəyini deyib. Məsələ burasındadır ki, Bakı Vyana görüşündən sonra Kasprşikin ofisinin genişlənməsi barədə razılaşmanı gur səslə pozmaq istəyirdi. Və indi belə çıxır ki, həmsədr ölkələrin təzyiqi ilə və ola bilər Baydenin zəngi ilə yenidən onu bəyəndikləri haqda özlərini təkzib edirlər. Bu, həm də o deməkdir ki, Bakı ordunun aprel uğurundan və indiki yaranmış beynəlxalq vəziyyətdən istifadə etmək əvəzinə, yenidən status-kvoya qayıdır. Daha dəhşətlisi, düşmənin bu ərazilərə rahat nəzarət etməsi üçün şərait yaranır. Şəxsən mən bunu başa düşə bilmirəm. Əgər həmsədrlər bu mexanizmlərin uğurlu danışıqlara əsas olduğunu inandırıbsa, o zaman əhsən belə yaddaşa".

**E.Mehdiyev xatırlatdı ki, ermənilərin işğal etdikləri torpaqlardan dinc yolla çıxmaq fikirləri yoxdur:** "Diplomatik gediş ərazilərə daimi nəzarət etməsinə xidmət edir. Və buna Azərbaycan razılıq verir. İnsidentləri araşdırma mexanizmlərinin yaradılması və Kasprşkin ofisinin genişlənməsi status-kvonun uzanmasına xidmət edir. O biri tərəfdən ermənilərin indi azad şəkildə işğal ərazilərində təlim keçmələri də Azərbaycan ordusunun aprel və ondan öncəki fəaliyyətləri ilə tərs mütənasibdir. Digər tərəfdən, ermənilərin Rusiyadan yeni silahlar alması və bütün silahlarını təmas xəttinə yığması da heç də torpaqların azad edilməsinin xeyrinə gedən gediş deyil. İşğal ərazilərində insidentləri araşdırmaq mexanizmlərinin yaradılması ermənilərdən gələn təklifdir və onlar bunu ən azı altı ildir diplomatik müstəviyə çıxarıblar və indi isə qəbul etdirirlər. Bu cür sazişə getmək dünyada işğalçı ilə analoqu olmayan hadisə kimi qiymətləndiriləcək. O zaman necə qarşı tərəfə işğalçı deyəçəksən? Çünki ikiniz də artıq bərabər statusda hərəkət edib insidentləri araşdırırsınız. Belə çıxır, bizim pessimist fikirlər həqiqətə çevrilir. Əgər hərbi uğuru siyasi rəhbərlik uğursuzluğa aparırsa, o zaman bu əməliyyatlar nəyə xidmət edir?"

**Yada salaq ki, Kasprşikin fəaliyyəti barədə müəmmalarla dolu məlumatlar dolaşır. Bir müddət öncə ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert Üzeyir Cəfərov sensasion açıqlama verməşdi. O təklif etmişdi ki, Azərbaycan rəsmi şəkildə ATƏT-in Minsk Qrupuna yeni işğaldan azad etdiyimiz ərazilərdə monitorinqlərin aparılmasına qadağa qoymalıdır.** "Düşməndən azad olunan ərazilərin məlumatlarını ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik ermənilərə ötürür" - ekspert bildirmişdi. Onun sözlərinə görə, Azərbaycan indiki halda ATƏT-in Minsk Qrupunun həmin ərazilərdə monitorinq keçirməsinə icazə verməməlidir: "Monitorinqlərin aparılması təmas xəttinin dəyişməsi və digər məsələlərlə bağlıdır. Amma hələ ki Moskvada iki ölkənin Baş Qərargah rəislərinin imzaladığı sənədin hansı məqsəd daşıdığı açıqlanmayıb. Əgər bu yeni bir sənəddirsə, o zaman Bişkek protokolu qüvvədən düşmüş hesab olunur. Yox, sənəd yeni imzalanıbsa və Bişkekdə imzalanan protokolun təsdiqidirsə, o zaman bu protokol qüvvəsində qalır. Monitorinq tək cəbhə xəttinin dəyişməsi ilə bağlı deyil. Orada bir çox məsələlər var. Hesab edirəm ki, Azərbaycan indiki halda Minsk Qrupunun həmin ərazilərdə monitorinq keçirməsinə icazə verməməlidir".

**Hərbi ekspertin fikrincə, Anjey Kasprşik daha çox ermənilərlə işləyir və Azərbaycanın mövqeləri ilə bağlı məlumatları düşmən tərəfə ötürür.** "Anjey Kasprşikin tez bir zamanda dəyişilməsi gündəmə gətirilməldir. Fəaliyyəti dövründə o, erməni maraqlarına xidmət edib və Azərbaycanın bütün məlumatlarını qarşı tərəfə ötürüb. Kasprşiklə 2001-ci ildə Ermənistana və işğal olunmuş ərazilərə səfər edən bir şəxs kimi deyə bilərəm ki, o daha çox erməni maraqlarına xidmət edir", - deyə Cəfərov bildirmişdi. Ancaq Kasprşik əvəzində yeni səlahiyyətlər aldı və bundan sonra əraziləri kameralarla izləyəcək...

❑ **Cavid TURAN**

# Çeçenistanı Bakı üçün əhəmiyyətli edən nədir?

## Elxan Şahinoğlu: "Ramiz Mehdiyev Kadırovla görüşdə "Azərbaycan xalqı həmişə çeçen xalqının yanındadır" ifadəsini işlədib, Kadırov isə..."



**Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti Qroznıda Çeçenistan Respublikasının rəhbəri Ramzan Kadırovla görüşməsi, görüş zamanı qarşılıqlı olaraq xoş sözlərin işlədilməsi Azərbaycanın və Çeçenistanın bir-birinə önəm verməsinin bir sübutu kimi şərh edilir. Eyni zamanda Rusiyaya tabe olan Çeçenistanın Azərbaycan hakimiyyəti üçün əhəmiyyətinin nədən ibarət olması sualını meydana gətirir.**

Bu barədə "Yeni Müsavat"a açıqlamasında **politoloq Elxan Şahinoğlu** bildirdi ki, Azərbaycana lazımdır ki, Şimali Qafqazda sabitlik, təhlükəsizlik sistemi olsun və nəticədə Azərbaycana sərhəddən, nəqliyyat xətləri baxımından problemlər yaranmasın. Azərbaycanın daha bir marağı odur ki, Azərbaycanın Rusiyaya ixrac etmək istədiyi kənd təsərrüfatı məhsullarının aparılması zamanı Dağıstanla sərhəddə, Şimali Qafqazda üzləşilən müəyyən maneələr ortadan qaldırılsın: "Şimali Qafqazla, o cümlədən Çeçenistanla elə də həddən artıq böyük hədəflərimiz yoxdur. Şimali Qafqaz, Çeçenistan Rusiyaya bağlı bir bölgədir, Rusiya ilə də rəsmi Bakının münasibətlərinin necə olduğu bəllidir. Bizim Şimali Qafqazda, o cümlədən Çeçenistanda yaşayan qardaş millətlərlə tarixi bağlılığımız var. Bu bağlılığın qorunub saxlanması baxımından da həm Çeçenistanla, həm də digər Şimali Qafqaz respublikaları ilə sıx təmaslarımız qurulur. Harada sərfəlidirsə oraya iqtisadi yatırımlar da qoymaq olar. Təmasları davam etdirmək lazımdır. Artıq bu gün Çeçenistan Şimali Qafqazın ən sakit bölgəsi sayıla bilər. Dağıstanda, İnquşetiyada, Qaraçay-Çərkəzdə terror aktları olur. Amma Ramzan Kadırovun güclü təhlükəsizlik sistemi qurmasının nəticəsidir ki, Çeçenistanda sakitlikdir. Bunu da Ramiz Mehdiyev görüşdə qeyd etdi.

Amma bu, o demək deyil Azərbaycan bir dövlət olaraq Çeçenistanla-ayrıca bir bölgə ilə əməkdaşlığını daha da genişləndirəcək. Kadırov çox istəyərdi ki, Azərbaycan Çeçenistana yatırım qoysun, necə ki, bunu Dağıstanın prezidenti Abdulatipov istəyirdi və bu yaxınlarda Bakıya səfər etmişdi. Amma Azərbaycan bu məsələlərdə bir az ehtiyatlıdır. Mən bu siyasəti haqlı olaraq dəstəkləyirəm. Çünki Şimali Qafqaz respublikalarına yatırım qoymağın riskləri böyükdür. Birincisi, bu bölgələrdə korrupsiya var. İkincisi, orada zavod, fabrik açsaq, ortaq müəssisələr açsaq bu, nə qədər səmərəli olacaq. Üçüncüsü isə təhlükəsizlik məsələləri. Bütün bu faktorları nəzərə alsaq mən hesab etmirəm ki, Azərbaycan Çeçenistana yatırımları artıracaq".

**Politoloq qeyd etdi ki, Ramiz Mehdiyevin Kadırovla görüşdə çeçen xalqını qardaş xalq adlandırması doğru yanaşmadır:** "Ramiz Mehdiyevin bu fikri ilə razıyam ki, bəli, çeçen xalqı bizə qardaş xalqdır, ən ağır dönəmlərdə də Azərbaycan çeçen xalqının yanında olub. Çeçenistanda keçirilən beynəlxalq təhlükəsizlik toplantısında iştirak edən Ramiz Mehdiyev bu respublikanın rəhbəri Ramzan Kadırovla görüşdə onu və mərhum atasını xeyli tərifləyib. Öz növbəsində Kadırov da Azərbaycan hakimiyyəti haqqında xoş sözlər deyib. Lakin Kadırov Ramiz Mehdiyevlə görüşdə "Azərbaycan torpaqları işğal altındadır və biz bu məsələdə Azərbaycanın haqlı mövqeyini dəstəkləyirik" kimi ifadələr işlətmədi. Ramzan Kadırov işğal faktına toxunmayıb. Halbuki Ramiz Mehdiyev Kadırovla görüşdə "Azərbaycan xalqı həmişə çeçen xalqının yanındadır" ifadəsini səsləndirib. Kadırov sadəcə deyib ki, ortaq düşmənə qarşı mübarizə aparmalıyıq. Lakin ortaq düşmən deyərkən kimi nəzərdə tutduğunu deməyib".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016



# Daha bir ürək-könül məsələsi...

**Samir SARI**

**Başqa vaxt hamı bir ağızdan deyirdi: "Yaşın nə fərqi var ki..." Mərhum müğənnimiz İlhamənin eyni ritorik suallı mahnısı xit olmuşdu, dillərdə əzbər idi. Yeri düşdü, düşmədi, gəldi, gəlmədi, hamı təkrarlayırdı.**

Yalnız bir dəfə hansısa telekanalda qonaq olan məşhur aktyorumuz Siyavuş Aslan kədərli-kədərli dedi ki, yox, yaşın fərqi var, özü də çox.

Özü də bu sözü ən çox 45-50 yaşlı kişilərin 18-25 yaşlı qızla evləndikləri zaman dilə gətirirdilər, deyirdilər, yaşın nə fərqi var axı, iki gənc bir-birini sevib, evlənib, vəssalam. Nə demək olar, ürək-könül məsələsidir, a Qurban.

Amma indi məsələ bir balaca dəyişən kimi olub. İş ondadır ki, Binəqədidə 32 yaşlı müəllimə 18 yaşlı gənclə ailə qurub və öz həyatlarının axarını, eləcə də ölkənin ictimai-siyasi-hərbi-mədəni gündəmini dəyişiblər.

Bu sətirlərin yazıldığı anlarda saytlara və sosial şəbəkəyə girmək mümkün deyildi, yüzlərlə adam bu fenomenal hadisədən yazırdı. Hiss olunurdu ki, əmək kollektivlərində minlərlə, bəlkə də yüz minlərlə insan bu olayı müzakirə edir.

Facebook-da insanlar iki tirəyə ayrılmışdılar. Bir tərəf yazırdı ki, qayət normal hadisədir, kişilər özlərindən kiçik qızlarla ailə qurduqları kimi, qadınlar da özlərindən yaşca balaca oğlanlara evlə bilərlər.

Qarşı qrup isə bu mövqe ilə razılaşmırdı, deyirdilər ki, ola bilməz, yaşlı kişilərin gənc qızlarla evlənməsi normaldır, amma yaşlı qadının gənc oğlanla evlənməsi caiz deyil.

Belələrinə görə, 45-50 yaşlı kişiyə çox da yaşlı demək olmaz, amma 32 yaşlı qadın artıq qoca qarıdır. "10 ildən sonra necə olacaq onun halı" - deyə tutarlı sualla çıxış edənlər də vardı. Necə olacaq? 42 yaşı olacaq o müəllimənin. Bax, bizim kişi hegemonluğundan yana olan heteroseksual qüvvələr 42 yaşlı qadını qəbul edə bilmirlər. Əlbəttə, "qıza elçi göndərin 15 yaşa dolmamış" bayatılarıyla böyümüş nəslin nümayəndələrindən başqa mövqe gözləmək olmaz.

Elə klassik şairlərimiz də eyzən, müasir jarqonlarla desək, "maloletka"lara girişməkdən yazıblar. Hətta bir çox kitablarda da azyaşlı qızlarla ailə qurmağın savabından söz açılır. Yəni bu məsələ pederastlığa qədər irəliləyir.

Bütün bunlar heç, aralarında yaş fərqini evlənənlər özləri bilərlər. Bir də bu, onların ailə üzvlərini maraqlandıra biləcək məsələdir. Bizə nə? Nə işimizə qalıb? Bunu nədən ümummili müzakirə predmetinə çevirməliyik?

Yox, əgər ailə quranlardan biri yetkinlik yaşına, sovet dönəminin sözüylə desək, həddi-bülüğa çatmamış olsaydı, onda deyərdik ki, hə, burada ciddi problem var. Ancaq bir halda ki, evlənənlərin hər ikisi bülüğ həddinə çatıblar, hələ o üzə də keçiblər, problem nədən ibarətdir?

Hətta ailə quranlardan biri xarici ölkə vətəndaşı olsaydı, yenə şübhələnmək olardı ki, məqsəd "fiktivni" nikah əqdi bağlamaq və bu yolla ölkə vətəndaşlığı qazanmaqdır. Bildiyiniz kimi, bu məsələ hazırda bir çox Avropa ölkələrində çox aktual olub, Avropaya yerləşmək istəyən gənclər bir çox hallarda gedib nənələri yaşda qadınlarla nikaha girirlər ki, o vəzilə ilə Şengen zonasına girə bilsinlər. Amma avropalılar da artıq ayılıb, evlənənlərin yaşı arasında ikiqat, üçqat fərqi sezincə, deyirlər, sizin nikahınız saxta xarakter daşıyır. Beləcə, həmin cür nikahları artıq qeydə almaqdan imtina edirlər. Məsələn, o gün İsveçrədə elə bir hadisə olub, 71 yaşlı qadıla 21 yaşlı gəncin nikahını qeydə almayıblar və iki sevən ürəyin səadətinə mane olublar.

Bir neçə il öncə Türkiyədə də belə bir hadisə olmuşdu, Halis Toprak adlı 71 yaşlı milyarder 17 yaşlı azərbaycanlı qızla (Nazlıcan Tağızadə) evlənmişdi. Amma o zaman bütün Türkiyə ictimaiyyəti bu nikahı müzakirə edirdi. Bizim mətbuat da bu hadisəyə diqqət yetirmişdi, əsasən də ona görə ki, evlənənlərin yaşı "zerkalnı" (71-17) görünürdü.

Xüləs, sözümün canı odur ki, 18 yaşlı gənclə 32 yaşlı müəllimənin nikahı böyüdüləcək bir şey deyil. Allah ikisini də xoşbəxt eləsin.

Yox, əgər biz bu məsələyə bu qədər önəm veririksə, onda gərək bu gənc ailənin taleyini müşahidə altına alaq, vaxtaşırı monitorinq aparaq ki, həmin ailə davam edirmi, etmirmi. Məsələn, 5 ildən sonra bu məsələyə qayıtmaq və reportaj hazırlamaq olar. Yazının başlığı da əsasən iki variantda ola bilər: "Beş il öncə qalmaqallı şəkildə ailə quran cütlük ayrılıb"; "Beş il öncə sensasiya doğurmuş ailə xoşbəxtdir".

# "Gürcüstanda ermənilərlə azərbaycanlılar arasında normal münasibət var, belə də olmalıdır..."

## Tofiq Yaqublu: "Adamlar rayon mərkəzinə məni qarşılamağa bayraqlarla gəlmişdilər"

**Mart əfvi ilə azadlığa çıxan Müsavat başqanının müavini Tofiq Yaqublu hazırda doğulduğu Gürcüstanın Borçalı mahalındadır. Həbsdən çıxandan sonra ilk dəfə yaxınları ilə görüşən başqan müavini sosial şəbəkələrdə paylaşdığı fotolarla səfər təəssüratlarını azacıq olsa da bölüşür.**



Yaqublu ilə 3 illik ayrılıqdan sonra getdiyi əzəli Azərbaycan torpaqları, Gürcüstanda yaşayan soydaşlarımızın yaşayış durumları və digər məsələlərlə bağlı söhbət etdik.

Keçmiş vicdan məhbusu üç il əvvəlki tarixi ərazilərimizin hazırkı durumunda müsbətə doğru ciddi dəyişikliklərin olduğunu söylədi: "Rayon mərkəzindən kəndimizə gedən yol əvvəllər bərbad vəziyyətdə idi. Amma indi keyfiyyətli yol çəkiblər. Mərkəzdən kəndimizə indi 12 dəqiqəyə çatmaq olur. Tiflisin özündə də ciddi dəyişikliklər var. Yeni binalar tikilib. Gəzdiyim ərazilərin gözəlləşdiyinin şahidi oldum, kəndlərə qaz çəkilib, evlər təmir olunub. İnsanın ürəyi dağa dönür. İnsanlar da məişətlərini durmadan yaxşılaşdırırlar. Bizim kəndlə Kəpənəkçi kəndi arasında Xaçın adlı erməni kəndi var. Bərbad gündədir. Amma o kəndin sağ və solunda türk kəndləri var. İncəoğlu və Kəpənəkçi kəndinə baxırsan təmirli, gözəldir. Kənd camaatı əkin-biçinlə, maldarlıqla məşğuldur. Texniki imkanlar əvvəlki illərə nisbətən artıb, kənd sakinləri daha çox məhsul əldə edirlər. Bildiyiniz kimi, yayda Avropa Birliyi ilə Gürcüstan arasındakı viza məsələsi həll olunacaq. Gürcü vətəndaşları rahat şəkildə Avropa ölkələrinə gedəcəklər. Soydaşlarımızda da böyük ümidlər yaranıb. Rusiyanın yaratdığı çətinliklər məlumdur. Amma Avropa Birliyinin viza məsələsini həll etməsi gürcü vətəndaşlarına fürsət yaradacaq ki, xarici ölkələrdə işləyə bilsinlər. Soydaşlarımızın ümidləri boşuna deyil. Kəndli həyatı istər Azərbaycan, istərsə də bura olsun, eynidir. Hər iki ölkədə eyni işlə məşğul olurlar. Göz ilə görünən odur ki, Borçalı ilbəil daha da inkişaf edir, gözəlləşir. 10 il əvvəl insanlar ev də təmir etmirdilər ki, müvəqqəti yaşayırıq. Amma indi fərqli situasiya yaranıb".









**Başqan müavini uzun müddətdən sonra doğma elində yaxınları, dostları ilə görüşündən və keçirdiyi duyğusal hisslərdən də söz açdı:** "Mənim üçün gözəl anlar oldu. Kəndçilərim, qohum-əqrəbam məni təmtəraqlı qarşıladılar, hətta utandırdılar. Rayon mərkəzinə məni qarşılamaq üçün çox adamlar avtomobillər, bayraqlarla gəlmişdilər. Həyatimizə çoxsaylı soydaşlarımız toplamışdılar, küçələrdən keçəndə mənə əl edirdilər. Bu anlar xoşuma gəldi, o mənada ki, bunları Borçalı camaatının Azərbaycan müxalifətinə olan dəstəyi kimi başa düşdüm. Gürcüstanda yaşayan soydaşlarımız demokratiyanın ölkəyə nələr verdiyinin fərqindədirlər. Gürcüstanla Azərbaycan arasındakı fərqi çox asanlıqla sezə bilirlər. İlk fərqləri "Sınıq körpü" keçid məntəqəsində görürlər. Gürcüstan tamam başqa ölkədir, hər şey qanun çərçivəsindədir. Soydaşlarımız Gürcüstanın bu yerlərə məhz demokratiya sahəsində gəldiyinə əmin olublar. Onlar yaxşı bilirlər ki, Tofiq Yaqublu Azərbaycanda demokratiya uğrunda mübarizə aparır, ölkəsində haqq-ədalətin bərpasını istəyir. Verdikləri dəstəyə görə onlara minnətdaram. O qədər çox dəvətlər var ki, inanın, vaxt edib iştirak edə bilmirəm. Bunlar məni duyğulandırır. Təəssüf ki, vaxtım azdır. 28 mayda Novxanı qəsəbəsində olmalıyam. Yəqin ki, 27-sində buradan çıxacam".

**Başqan müavini Azərbaycan və Gürcüstanda yaşayan azərbaycanlıların siyasi proseslərə baxışlarına da toxundu:** "Ciddi fərqlər var. Əminəm ki, Azərbaycan vətəndaşları buradakı soydaşlarımız kimi siyasi dəyişikliyə inansalar, bunu dərk etsələr, ölkəmizdə dəyişikliklər daha tez olar. Amma etiraf edək ki, burada dəyişikliklər olan vaxt soydaşlarımız siyasi proseslərə ciddi yanaşmırdılar. Sanki bunlar milli mentalitetimizlə bağlıdır. Amma son illərdəki hakimiyyət dəyişiklikləri insanlarımızın sanki gözlərini açıb. Siyasi partiyalara üzv olurlar, mübarizə aparırlar, seçkilərdən gözləntiləri olur. Düşünmürlər ki, kimin gəlməyinin bizə dəxli yoxdur, yaxud kim gəlirsə gəlsin. Hamı əmindir ki, seçkilərdə verəcəyi səsin təsiri olacaq. Baxırsan ki, yaşlı insanlar siyasi müzakirələr aparırlar, obyektiv dəlillər irəli sürürlər. Buna sevinməmək mümkün deyil. Bu situasiyanın yaranmasına heç şübhəsiz ki, "Qızılgül" inqilabından sonra gedən proseslər səbəb olub. İnsanlar həqiqəti artıq dərk ediblər. Oxuduğum məktəbə getdim, müəllimlərlə görüşdüm. 70-ci illərdə situasiya fərqli idi. Gürcü dili dərsində futbol oynayırdıq. Amma indi gürcü dilini soydaşlarımız öyrənirlər. Artıq dərk edirlər ki, bura Gürcüstandır, bu ölkənin dilini bilmək vacibdir. Burada valideynlərin də təsiri çoxdur. Bu da sevindirici haldır".

**T.Yaqublu hazırkı gürcü hakimiyyətinin soydaşlarımıza münasibətinin müsbət olduğunu qeyd etdi:** "Çox normal münasibət var. Demokratiya nəyi tələb edirsə, onu da edirlər. Hakimiyyətin milli zəmindəki münasibəti gündəmdən çıxıb. Əvvəllər gürcü-azərbaycanlı söhbəti var idi. Hökumət indi heç bir fərq qoymur. İnsanların hüquqları var, bu hüquqlar da hər kəs arasında bərabər paylanıb. Gürcüstanda yaşayan ermənilər və azərbaycanlılar arasında da normal münasibət var. Sözsüz ki, onlar ermənilərin, azərbaycanlılar da bizim təəssübümüzü çəkirlər. Belə də olmalıdır. Çünki məişət birdir. Sovetlik, inzibati idarələr bir yerdədir. Sovet dövründəki birgə yaşayış qalıb. Bunu dəyişmək mümkün deyil".

**Müsahibimiz AXCP-Müsavat birliyi müzakirələrindəki son durumdan da danışdı:** "Proses dayanmayıb. Əvvəl də ehtiyatlı danışırdım. AXCP-Müsavat münasibətlərinin gərgin olduğunu bilirdim. İlk addımlardan əmin oldum ki, hər iki partiya rəhbərliyi bu zərurəti dərk edirlər. Sadəcə, prosesləri qabaqlamaq lazım deyil. Ümidlərim artıb. Sadəcə, ölkədə bir siyasi proses yoxdur ki, bunlar görünsün. Narazılıqlar əvvəlki kimi deyil. Müşahidə etsəniz görərsiniz. Qarşıdakı illərdə birlik zərurəti yaranacaq və hər kəs bunu görəcək. O zaman müxalifət birlikdə olacaq. Hər iki partiya rəhbərliyində ağıllı insanlar var. Bunu tək mənimlə bağlamaq düzgün deyil. Hər iki qurum eyni yoldadır. Onlar da Novxanıya gedəcəklər, biz də. Bunu birlikdə etmək də olardı. Amma prosesləri sürətləndirməyə ehtiyac yoxdur. Bu adi bir bayram tədbiridir. Bizlər Rəsulzadənin davamçılarıyıq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Sərkisyan prezidentlərin iyun görüşünü poza bilər

**Qarabağ danışıqları ilə bağlı ümidlər indi də iyun ayına köklənib. Belə bir kövrək ümidi isə təbii ki, Azərbaycan və Ermənistan prezidentlərinin ATƏT-in Minsk Qrupunun ABŞ, Rusiya və Fransadan olan həmsədrlərinin təşəbbüsü ilə Vyanada keçirilən görüşü formalaşdırıb.**






## Sülh prosesinin uğuru işğalçı Ermənistanın nə dərəcədə konstruktiv mövqe tutacağından asılı olacaq; Azərbaycan Qarabağa dair prinsiplərini açıqladı...

Məlumdur ki, Vyana görüşünün əsas təşəbbüsçüsü ABŞ olub. Müşahidələr göstərir ki, ümumiyyətlə, apreldəki 4 günlük müharibədən sonra rəsmi Vaşinqtonun Dağlıq Qarabağ ixtilafı ilə bağlı hərəkətliliyi artıb. Belə ehtimal var ki, Amerika problemin artıq tamamən Rusiyanın inhisarında qalmasını istəmir.

Bu xüsusda qarşıdakı dönəmdə Vaşinqtonun konfliktin həllini dalandan çıxarmağa yönəlik yeni təşəbbüslərinin şahidi də ola bilərik - bu cür təşəbbüslər Rusiyada müəyyən qısqanclıq və qıcıq yaratsa da. ABŞ dövlət katibi Con Kerrinin 28 May Cümhuriyyət Günü ilə bağlı Azərbaycan prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda Amerikanın "Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dəstək verməkdə sadiq qalacağının" xüsusi vurğulanması bu qənaəti möhkəmləndirir.

***

**"Biz iyunda prezidentlərin görüşünün baş tutacağına ümid edirik".** Bu barədə isə ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik bildirib. Diplomat qeyd edib ki, həmsədrlər prezidentlərin razılaşdırdığı kimi, iyun ayında gözlənilən sammitə hazırlıq məqsədilə Azərbaycan və Ermənistan prezidentləri ilə görüşməyə ümid edir. **"Bizim məqsədimiz hərtərəfli sülh razılaşmasına gətirib çıxara biləcək danışıqlar üçün zəmin yaratmaqdır".**

Bəs belə bir zəmini qısa zamanda hazırlamaq mümkün olacaqmı?

**Tanınmış ekspertlərin bu xüsusda proqnozları elə də ümidverici deyil. Məsələn, rusiyalı politoloq Qriqori Trofimçuka görə, prezidentlərin iyun görüşü reallaşmaya da bilər, heç bir nəticə gözlənilmədiyi üçün sadəcə, baş tuta da. Onun sözlərinə görə, görüşün nəticə verməsi üçün indidən hazırlaşmaq lazımdır:** "İlk növbədə də Azərbaycan hazırlaşmalıdır. Ona görə ki, Ermənistan danışıqlarda heç nəyi həll eləmək istəmir - xüsusən də aprel döyüşlərindən sonra. Əgər Sərkisyan əvvəl qəbul edilmiş protokollar çərçivəsində təzyiq altında və ya təzyiqsiz hansısa addımı atsa, o zaman ölkə daxilində çox böyük problemlə üzləşəcək. O saat müxalifət başını qaldıracaq, hansı ki, Sərkisyanı indinin özündə torpaqları təhvil verməkdə ittiham edir".

**Politoloq bu üzdən növbəti danışıqlar çərçivəsində hansısa yekun sənədin təsdiqlənəcəyinə skeptik baxır.** "Buna necə nail olunacaq, qətiyyən aydın deyil. Bir ay sonra heç olmasa hansısa nəticənin əldə edilməsi və ya imzalanması üçün Vyanada hansısa bəndlər razılaşdırılmalı idi. İstənilən halda bu, formal bir görüş olacaq. Ən yaxşı halda o, sadəcə, baş tutacaq. Son iki on illikdə olduğu kimi, hər şey gedib formata, danışıq prosesinə, qarşılıqlı əlaqə prosesinə, görüşlərə dirənir. Yekun etibarilə bütün tərəflər, bütün regional iştirakçılar - Azərbaycan, Ermənistan və təbii ki, Rusiya çox mürəkkəb vəziyyətə düşür, ABŞ-dan savayı" - ekspert hesab edir.

**Rusiyalı politoloqun fikrincə, əslində ABŞ-da heç kim Azərbaycan üçün işləməyəcək:** "Heç kim heç bir ərazini Azərbaycanın əvəzinə geri qaytarmağa hazırlaşmır. Buna ümid eləmək sadəlövhlük olardı. Bununla belə, Azərbaycan Vyanada ciddi addım atdı - o, görüşdə ABŞ Dövlət Departamentinin başçısı Con Kerronin iştirakına razılıq verdi. Bununla da sanki Rusiyaya işarə vurdu ki, lazımi anda Amerikaya kömək üçün müraciət edəcək. Anlamaq lazımdır ki, departament belə bir köməyi hətta vəd edəcək, sonra isə özünü elə aparacaq ki, guya Bakıya kömək edir. Ancaq bu, yalnız imitasiya olacaq. Və əgər İrəvan da Vaşinqton və Brüsselin *(Avropa Birliyinin - red.)* xeyrinə addımlar atmasa, o zaman Ermənistan daxilində, müxalifət vasitəsilə Sərkisyana təzyiq göstəriləcək. Bütövlükdə quru vədlər səslənəcək. Amerika nadir istisnalarla heç vaxt heç bir torpağı qaytarmaqda heç kimə kömək eləmir. Yalnız Şərqi Almaniya istisna olub. Burada da eyni şey olacaq. Xoşməramlı motiv altında isə NATO-nun Cənubi Qafqazda hərbi mövcudluğu gücləndiriləcək".

***

**Bu arada rəsmi Bakı iyun görüşü ərəfəsi Qarabağla bağlı danışıqların əsas prinsiplərini açıqlayıb. Azərbaycanın yanaşması belədir ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin əsas hissəsi status-kvonun dəyişilməsindən ibarətdir. Bu barədə RİA Novosti agentliyinə Azərbaycan XİN-in mətbuat katibi Hikmət Hacıyev bəyan edib (virtualaz. org).**

"Vyana görüşündən sonra Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarov qeyd edib ki, görüş münaqişənin həllinə dair bəlli olan mərhələli yanaşma əsasında substantiv danışıqlara başlamaq üçün yaxşı imkanlar yaradır. Bu gün əsas məsələ iyun ayında münaqişənin həlli üçün hərtərəfli danışıqlara başlamaqdır. Münaqişənin həllinin əsas hissəsi qəbuledilməz və davamsız status-kvonun dəyişilməsi və erməni ordusunun işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılmasından ibarətdir" - H.Hacıyev qeyd edib.

Beləliklə, bir daha aydın olur ki, Ermənistan işğal elədiyi əraziləri boşaltmağa başlamayınca heç bir sülh danışığı heç vaxt nəticə verməyəcək. Yəni problemin həllini irəli aparmaq üçün açar məsələ işğal faktıdır. Bu fakta münasibət köklü şəkildə Azərbaycanın xeyrinə dəyişməyincə, bütün sülh təşəbbüsləri, o cümlədən prezidentlərin görüşləri hər hansı nəticə verə bilməz. Necə ki, indiyədək verməyib. Vaxt isə gözləmir. Müharibə qapıdadır.

Əgər gerçəkdən də Rusiya ABŞ, Avropa Birliyi böyük müharibə istəmirsə, - məntiq deyir ki, istəmir, - o zaman son xəbərdarlıq mesajı olan 4 günlük müharibədən nə qədər gec deyil, düzgün nəticə çıxarılmalıdır. Təcavüzkarı cilovlamağın, ona öz sərhədləri daxilinə çəkilməyin qaçılmazılığını bəyan etməyin zamanı çatıb.



# "Qarabağ ermənilərinə elə bir təklif edəcəyik ki..."

## Deputat Zahid Orucdan maraqlı təşəbbüs

**"Əgər Füzuli və Cəbrayıldan hansısa bir sülh, barış dəhlizi açdığımızı elan etsək, heç şübhəsiz, minlərlə erməni Azərbaycan tərəfinə keçəcək". Bu barədə axar.az-a açıqlamasında deputat Zahid Oruc danışıb. O hesab edir ki, Azərbaycan məhz bununla erməni diplomatiyasının arqumentlərini ələ ala bilər.**

"Apreldən başlayaraq ermənilər dünyada bir neçə istiqamətdə diplomatik təxribatlarını xüsusi qabardıblar. Bu da 4 günlük döyüşlərdən sonra Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə Azərbaycan tərəfindən təminat verilə bilməyəcəyi və məhz bu əsnada Kosovo üçün tətbiq edilmiş modeldəki yanaşmaların Qarabağa aid edilməsidir. Söhbət ötən əsrin sonlarında Balkanlarda yaranmış vəziyyətdən gedir. O zaman beynəlxalq konyukturadan asılı olaraq, xüsusilə də Qərb Rusiyanı Balkanlarda çökdürmək və oradan çıxarmaq formatına görə Kosova üçün müstəqillik modelini işləməyə başladılar. Lakin BMT və digər mühüm qurumlar Serbiyanın bütövlüyünü tanıdıqdan sonra Balkanların qərbyönlü arxitekturasını nəzərə alıb, yeni bir müddəa kəşf etdilər. Bu da sağ qalma əməliyyatı adı ilə səsləşən hüquqi bir prinsipdir. Bu məsələni uzun müddət erməni diplomatiyası üzərində işləsələr də, Qarabağ ermənilərinin kütləvi məhvi kimi bir reallıq mövcud olmadığından bütün planlar alt-üst oldu" - deputat qeyd edib .

**Onun sözlərinə görə, İrəvan hazırda Azərbaycanın Qarabağ ermənilərinə törətdiyi təhlükənin üzərində siyasət formalaşdırmaqdadır:** "Azərbaycan Qarabağın mülki əhalisi ilə vuruşmur, bizim davamız Ermənistanladır. Əgər Füzuli və Cəbrayıldan hansısa bir sülh, barış dəhlizi açdığımızı elan etsək, heç şübhəsiz, minlərlə erməni Azərbaycan tərəfinə keçəcək. Bu mənada Azərbaycanın ən böyük missiyası Qarabağ ermənilərini Ermənistanın əlindən almaqdır. Necə ki, Azərbaycan dövləti müxtəlif etnik milli toplumların təhlükəsizliyinə zəmanət verir, eləcə də Qarabağ erməniləri də bundan əmin olmalıdırlar. Bakıda yaşayan ermənilərin rəsmi statistikası 25-30 minə yaxındır. Bu ermənilərin timsalında hətta 3-5 nəfərdən ibarət kiçik bir təşkilat da yaratmaq və Qarabağ ermənilərinə çağırış etmək olar. Yetər ki, Qarabağ erməniləri silahı yerə qoysunlar və bu çağırışa müsbət cavab versinlər".



# Rayonlara yağan dolu ciddi fəsadlar törətdi

## **Ekspert:** "Bu kimi hadisələrin qarşısını öncədən almaq olar"

**Ötən günlərdə bölgələrə yağan güclü dolu qarışıq leysan xeyli fəsadlar törədib. Konkret olaraq 23, 24 may tarixlərində Gədəbəy, Ağdam, Daşkəsən, Şəmkir və Tovuzda yağan dolu, kənd təsərrüfatı ilə yanaşı sosial obyektlərə, elektrik təsərrüfatına ciddi zərər verib.**

Məlumata görə, Bakı-Qazax magistralının Düyərli kəndi ərazisindən keçən hissəsində, eləcə də kəndlərarası yol kənarlarında 10-dan artıq ağac küləyin gücündən aşaraq yolda hərəkəti məhdudlaşdırıb. Güclü külək rayonun Muxtariyyə, Düyərli, Zəyəm-Cırdaxan və Xuluf kəndlərində fərdi yaşayış evlərinin, sosial obyektlərin dam örtüyünü qoparıb.

ATV-nin Tovuz bürosunun yaydığı məlumata görə, bu rayonda da güclü qasırğa və dolu bir sıra kəndlərə ciddi ziyan vurub. Rayonun Kirən, Xına Molla ayrım, Hacıhəsənli, Yanıqlı, Əhmədabad, Göyəbaxan, Həsənli, Sarıtala və digər kəndində həyətlərə, evlərin zirzəmilərinə yağış suları dolub. Təxminən yarın saat davam edən dolu həyətyanı sahələrdə kartof, tərəvəz və tütün sahələrini məhv edib. Elektrik xətlərində problemlər olduğuna görə kəndlərə elektrik enerjisinin verilməsi dayandırılıb.

Həmçinin Ağdama yağan dolu da fəsadsız ötüşməyib. Yağan dolu rayonun Zəngişalı, Mahrızlı, Qaradağlı və Əfətli kəndlərində dənli bitkilərdən arpaya, həmçinin soğan və pomidor sahələrinə, meyvə ağaclarına ziyan vurub. Güclü külək və dolu Daşkəsən və Gədəbəy rayonlarına da ziyan vurub.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin prezidenti Telman Zeynalov bildirdi ki, dünyada qlobal istiləşmə ilə bağlı "SOS" təbili çalınsa da, əslində görünən budur ki, heç də belə deyil:** "Əgər yaz ayları sərin keçirsə, yay aylarında da çox isti olmayacaq. Yağıntıların miqdarı 25-30 faiz artıb. Son günlər yerlərdə müşahidə edilən yağıntılar isə təsərrüfata xeyli zərər vurdu. Əsasən meyvə və tərəvəzə, yonca, taxıl sahələrinə ziyan dəyib. Bütün bunların qarşısını öncədən tədbir görməklə almaq olardı. Ancaq görünür, bununla məşğul olan yoxdur. Sovet dövründə dağlarda nəhəng toplar quraşdırılırdı. Həmin toplar vasitəsilə buludlar dağıdılırdı. Nəticədə əkin sahələrinə dolu, güclü leysan yağışları düşmürdü. Bu da məhsuldarlıq səviyyəsinin yüksəlməsinə səbəb olurdu. İndi isə qeyd etdiyim kimi, bu vasitədən istifadə olunmur".

**T. Zeynalov bildirib ki, kənd camaatı bu kimi təbiət hadisələri qarşısında acizdirlər:** "Rayonlara işimlə əlaqədar tez-tez gedirəm. Orada məndən soruşurlar ki, birdən gecə şaxta oldu, nə edək? Bitkini və taxıl məhsulunu şaxtadan qorumaq üçün sahənin ətrafında ot yandırmaq lazımdır. Həmin tüstü məhsulu şaxtadan qoruyur. Adicə bunu belə etmirlər. Əhali çox tənbəlləşib. Bütün bu proseslər də sonucda məhsul qıtlığına və bahalaşmaya yol açır. O zaman da bahalıqdan şikayətlənirlər. Halbuki baş verənlərin müəyyən mənada səbəbi insanların adi qaydalara əməl etməməsidir".

**Ekspert yağan yağışların dağlıq ərazilərdə sürüşməyə səbəb olmayacağını bildirdi:** "Sürüşmə gözlənilmir. Sel hər 7-8 ildən bir baş verir. Ola bilər ki, indi də dağlardan sel gəlsin. Çünki son yağıntıların miqdarı çox oldu. Bu isə dağlarda çalaların əmələ gəlməsinə, hər il aşınma zamanı isə suyun bəndi dağıdaraq əkin sahələrinə, yaşayış yerlərinə doğru gəlməsinə səbəb olur. Təbii ki, dağdan gələn su qarşısına çıxanı da daşıyıb gətirir. Bu, dağlarda olan 5-10 tonluq nəhəng daşlar da ola bilər. Əsaslı sürüşmə gözlənilməsə də buna da hazır olmalıyıq. Kənd camaatı əkdiyi məhsulu qorumaq üçün çalışmalı, qeyd etdiyim kimi, adi qaydalara əməl etməlidirlər".

❑ **Əli RAİS**

# "Azəriqaz" ləğv olunur?

## **Natiq Cəfərli:** "Çox güman ki, qurum tamamilə ləğv ediləcək və funksiyaları bölüşdürüləcək"

## **İbrahim Kərbəlayev:** ""Azəriqaz"ın yalnız və yalnız mənzillərə texniki baxış keçirmə işini adıçəkilən qurumlara veriblər"

**"Azəriqaz" İstehsalat Birliyinin səlahiyyətlərinin bir qismi Fövqəladə Hallar Nazirliyi (FHN) və Energetika Nazirliyi (EN) arasında bölüşdürülüb. Baş nazir Artir Rəsi-Zadənin imzaladığı qərara əsasən, bu gündən etibarən birliyin qaz kəmərlərinə və cihazlarına texniki xidmət sahəsi öz fəaliyyətini dayandırıb. Qurumun işçiləri isə struktura daxil olan digər bölmələrdə müvafiq işlərlə təmin edilib.**

Nazirlər Kabinetinin "Qazdan istifadə Qaydaları"nda dəyişikliklər edilməsi barədə müvafiq qərarından sonra xidmətə nəzarət Fövqəladə Hallar Nazirliyi və Energetika Nazirliyinə verilib. Yəni mənzillərə texniki baxışın keçirilməsi "Azəriqaz" tərəfindən deyil, qeyd edilən nazirliklər tərəfindən aparılacaq. Bura qaz avadanlıqları, tüstü bacaları və s. nəzarət daxildir".

"Qazdan istifadə Qaydaları"nda dəyişikliyə əsasən, FHN-in və EN-in səlahiyyətli nümayəndələri istehlakçını 5 iş günü əvvəl məlumatlandırmaqla qazdan səmərəli istifadəni, məişət qaz qurğularının təhlükəsiz və etibarlı istismar edilməsini təmin etmək məqsədilə həmin qurğulara, tüstü bacalarına və qazpaylayıcı şəbəkəyə altı ayda bir dəfədən az olmayaraq texniki baxış keçirilməsini təmin etməlidirlər.

"Azəriqaz" İstehsalat Birliyinin bu səlahiyyətlərinin alınması və başqa qurumlara verilməsi birmənalı qarşılanmayıb. Bəzi ekspertlər bunu "Azəriqaz"ın yaxın günlərdə ləğv edilməsinin, səlahiyyətlərinin müvafiq nazirliklər arasında bölüşdürülməsinin başlanğıcı kimi qiymətləndiriblər.




**İqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında qurumun özəlləşdirilməsini daha məqsədəuyğun hesab etdiyini bildirib:** "Əslində bunun yerinə özəlləşməyə gedilsə idi, daha yaxşı olardı. Hökumət çalışmalıdır ki, öz üzərində olan xərclərin bir hissəsini azaltsın. Əgər həmin xərclər yenidən digər bir quruma ayrılacaqsa, o zaman bu ciddi bir struktur dəyişikliyi demək deyil. struktur dəyişikliyi o ola bilər ki, bu qurumlar hissə-hissə uzunmüddətli idarəyə verilsin və ya özəlləşdirilsin. Bu zaman həm dövlət büdcəsinin yükü azalardı, həm də idarəetmədə bir yenilik olardı".

**İqtisadçının sözlərinə görə, bu struktur dəyişikliyindən sonra həmin idarənin qalması çox yersiz görünür:** "Çox güman ki, tamamilə ləğv ediləcək və funksiyaları bölüşdürüləcək. Lakin həmin funksiyaların lazımınca yerinə yetirilməsi üçün daha effektiv bir idarəetmə qurulacaqmı? Bu, sual doğurur. Əslində mənim düşüncəmə görə, belə struktur dəyişikliklərindənsə köklü islahatlar, mümkün olduğu qədər özəlləşdirmə və ya uzunmüddətli icarəyə verilmə daha məqsədəuyğun olardı.

**"Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbəlayev isə "Yeni Müsavat"a açıqlamasında qurumun yalnız mənzillərə texniki baxış səlahiyyətinin başqa nazirliklərə verildiyini qeyd etdi:** "Bu Nazirlər, Kabinetinin ayın əvvəlində verilmiş qərarı idi. "Azəriqaz"ın yalnız və yalnız mənzillərə texniki baxış keçirmə işini adıçəkilən qurumlara veriblər. Başqa heç bir səlahiyyətlər alınmayıb. Həmin qaz kəmərlərinə və cihazlarına texniki xidmət sahəsinin əməkdaşlarından isə heç biri ixtisara düşməyib".

❑ **Nərgiz LİFTİYEVA**

# Öldürülərək yandırılan polisin yaxınları qatilə sərt cəza tələb edir

## "Biz Muxtarın ailəsi olaraq cəzanın sərtləşdirilməsini istəyirik"

**Bakıda qətlə yetirilərək yandırılan İmişli Rayon Polis Şöbəsinin əməkdaşı - 1988-ci il təvəllüdlü Muxtar Nəcəf oğlu Kazımovun yaxınları "Yeni Müsavat"a müraciət ediblər. Onlar M.Kazımovu qətlə yetirən iş yoldaşı Ravil İbayevə verilmiş cəzanın yüngül olmasına etirazlarını bildiriblər: "Ravil İbayev 2 övlad atası olan Muxtarı xüsusi amansızlıqla, özünün dediyinə görə, pulunu ələ keçirmək üçün öldürüb. Sonra isə aparıb yandırıb. Bu adam pula, öz tamahına görə belə bir ağır cinayətə əl atıb. Məhkəmə ona ömürlük həbs cəzası verməli idi. Bakı Ağır Cinayətlər Məhkəməsində ona 19 il cəza verdilər. Bakı Apelyasiya Məhkəməsi bu müddəti 20 ilə qaldırdı. Bu cəza onun törətdiyi əmələ adekvat deyil. Biz Muxtarın ailəsi olaraq cəzanın sərtləşdirilməsini istəyirik".**



M.Kazımovun ailə üzvləri deyirlər ki, Ravil İbayev həbsdə ola-ola kimə istəyirsə zəng edir, saxladığı qadınla tez-tez görüşür: "Bütün bunları gəlib bizə deyirlər. Bu adam hamıya deyir ki, məndən narahat olmayın, 2-3 ilə gələcəyəm. Burada yeyirəm, içirəm, idman edirəm".

**Kazımovlar R.İbayevin qətli tək törətmədiyi qənaətindədirlər:** "Müstəntiq Kamran Məmmədov bizə istintaq çəkilişlərini göstərmir. Ravil deyir ki, 95 kiloqram çəkisi olan Muxtarı öldürüb, sandığa qoyub və sandığı tək götürüb liftə qoyub aşağı düşürüb, liftdən çıxarıb maşına yerləşdirib. Sonra da aparıb dəniz kənarına, sandığın üstünə benzin töküb yandırıb. İstintaq onun dediklərini yoxlamayıb? Yoxlama apararkən videosunu çəkməyib? Ravil özü tək 95 kiloqram çəkisi olan Muxtarı, çəkisi 10-15 kiloqram olan sandığa yerləşdiribsə, avtomatik 110 kiloqram çəki alınır. Bəs özünün 75 kiloqram çəkisi olan şəxs özündən ağır sandığı necə qaldırıb? Bizə həmin videonu göstərsinlər. Ravilə kömək edənlər olub. Özü deyir ki, hadisə bizim evdə baş verməyib, yaxınlıqdakı əmim qızının evində olub. Sonradan evdə qanı yerə sürtməklə hadisənin onun evində baş verməsi görüntüsünü yaradıblar. Biz ailə olaraq cinayətin hərtərəfli araşdırılmasını, Ravilə kömək edənlərin də cəzalandırılmasını tələb edirik".

Yada salaq ki, Muxtar Kazımovla Ravil İbayev hər ikisi İmişli Rayon Polis Şöbəsinin əməkdaşları olub. Onlar Bakıya qiyabi təhsil aldıqları Polis Akademiyasında keçirilən imtahan sessiyasına gəliblər. Sessiya günlərində M.Kazımov Xətai rayonundakı özünə məxsus mənzildə, R.İbayev isə həmin rayonun ərazisində kirayələdiyi mənzildə yaşayıb.

"Qardaşım Xudu Məmmədov küçəsi ev 14-də ailəsi ilə yaşayırdı. 2011-ci il aprelin 17-də ailə qurmuşdu, 2015-ci il aprelin 17-də öldürüldü. 1 övladı var, biri də onun ölümündən sonra dünyaya gəlib. Biz onun uşaqlarına nə deyəcəyik?" - M.Kazımovun bacısı Əfsanə Məmmədli sual edir. Onun sözlərinə görə, R.İbayev bildikləri gizlədir, cinayəti birgə törətdiyi şəxslərin adını çəkmir. Ə.Məmmədli baş prokuror Zakir Qaralova müraciət edərək iş üzrə obyektiv araşdırma aparılmasını və iş materialları ilə M.Kazımovun ailə üzvləri olaraq onların tanış olmalarına şərait yaradılmasını istəyib.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016

**"Yeni Müsavat"ın budəfəki müsahibi Azərbaycanın tanınmış rejissoru, xalq artisti Oktay Mir-Qasımdır. Rejissorla Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında görüşdük. Onunla söhbətə milli kinomuzun indiki vəziyyəti ilə bağlı sualla başladıq.**

# "Arzu edirəm ki, o günü görüm, sonra ölmək də olar"

## Xalq artisti, rejissor Oktay Mir-Qasım "Yeni Müsavat"a danışdı

***- Oktay bəy, Sizcə, kinomuzun bugünkü vəziyyəti necədir?***

- Mən məmnuniyyətlə yaradıcılıqdan danışardım. Məsələn, planımda olan filmlərdən. Bir filmin üzərində işləyirəm, hazırlıq dövrüdür - "Yüksəliş. Yaradanın adı ilə". Uzun zamandır ki, bu ideya gəldi, formalaşdı daxilimdə. Və çalışdım ssenari hazırladım. Qarabağ məsələsi ilə bağlıdır bu film. Amma kinonun vəziyyətinə gəldikdə isə yəqin ki, sizin özünüzün buna baxışınız var *(Bu dəfə özü mənə suallar ünvanlayır)*. Siz kino dedikdə nəyi nəzərdə tutursunuz?

***- Bədii film.***

- Hansı bədii filmləri son zamanlar gördünüz?

***- Ötən həftə "İran kinosu həftəsində" bir İran filmi və "Qanlı Yanvar" filmini... Sonuncu filmdə mübahisəli məqamlar bu gün də var. Siz necə düşünürsüz?***

- Səhv etmirəmsə "Qanlı Yanvar" filmi Vahid Naxışındır. Təəssüflər olsun ki, mən burda olmamışam və bu filmə baxmamışam. Ona görə də məhz bu filmə aid olan söhbətimiz alınmaz. Ümumiyyətlə, çıxışlarımda da, özünə də demişəm, təşəkkürümü də bildirmişəm ki, Vahid Naxış bir yaradıcı insan kimi öz istiqamətini seçib, müəyyənləşdirib və ardıcıllıqla bu istiqamətdə fəaliyyət göstərir. İncəsənət, o cümlədən kinematoqrafiya yaradıcılıqla məşğul olan insanlara bir imkan verir ki, özünü, öz fikirlərini, münasibətini, görüşünü öz əqidəsini, prinsiplərini, arzularını ifadə etsin. Və öz zövqü, bucağı ilə baxır dünyaya, hər məsələyə. Amma sənətkar axı eyni zamanda vətəndaşdır. O, ölkəsinin maraqları ilə mütləq bağlıdır. Başqa cür ola bilməz. Əgər vətənin, ölkənin vəziyyəti hansısa anlarda zirvəyə qalxan faciəyə və ya tarixi bir hadisə, mücadilə ilə bağlıdırsa, vətəndaş istər-istəməz bunu düşünür. Normal, psixologiyası, fiziologiyası, genetikası sağlam olan sənətkar belə vətənin dərdindən uzaqda qala bilməz. Vahid Mustafayev məhz belə insan, belə vətəndaşlardandır.

***- Bayaq hansı filmləri izlədiyim barədə sual verdiniz. Kinoteatrlarda daha çox komediya filmləri təqdim və təbliğ olunur. Sizcə, səbəb nədir? Ciddi filmləri niyə çox görə bilmirik, tamaşaçı marağı, yoxsa təbliğat yoxdur?***

- Yaradıcılıq incə bir prosesdir və azad olmalıdır. Bilirsiz ki, hansıa totalitar zamanlarda senzuralar olub. İndi isə demokratik, dünyəvi dövlət olaraq senzuranı biz yox etdik. Bəli, bolşevizm dövründə biz çox əzablar çəkmişik, o cümlədən də bəndəniz. Mənim iki filmim yasaq oldu, göstərilmədi, bütün əziyyətim, içimdə olan arzuların sanki tapdalandı. İndi senzura yoxdur demək olar ki, sifariş, tövsiyələr olsa da çox yumşaqdır. Mədəniyyət Nazirliyi təbii ki, bircə mənbədən vəsait tapır, o da dövlət büdcəsidir. Dövlət büdcəsi ilə çəkilmiş filmlər



### "İki filmim yasaq oldu, göstərilmədi"

festivallar, müsabiqələrə gedir, xarici mətbuatda adları çəkilir və deyərdim ki, çox irəlidə olan ziyalı təbəqəsi onları xoşlayır, maraqlanır və baxır bəyənir, sevir.

Dediniz ki, niyə ucuz komediyalar kinoteatrlarda göstərilir? Bu, bazar iqtisadiyyatının ələmətləridir. Mən heyifslənirəm və



təkcə mən yox. Amma kinoteatrlar iqtisadi qanunlara uyğun olan əsaslarla öz işini qurur, deyilmi? Onun kommunal xərcləri, maaş, texnika və digər işlərlə bağlı xərcləri var. Və gəlir əldə etməlidir. Gəlir olmasa, onda direktoru çıxardıb deyərlər ki, başqa adamı qoyuruq, sən işləyə bilmirsən. Və o, elə filmləri proqrama salır ki, hansılara ki, daha çox adam gəlir.

Məcburam ki, öz təcrübəmdən bir örnək gətirim. Son filmim "Qisas almadan ölmə. Keçmişdən məktublar" bəzi adamlar tərəfindən çox sevildi. Az deyil o adamlar və onlar kinoteatr sahəsində çalışan iş adamları ilə danışdılar ki, belə film var. Razılaşdırıldı ki, proqrama salınsın. Mən plakatları, reklam çarxını verdim və söhbət zamanı *(axı qocayam, bilirəm)* dedim ki, "Allah razı olsun, mənim üçün xoşdur, amma bu işə o qədər də nikbinliklə baxmıram". Çünki girdim zallara baxdım və orda göstərilənləri gördüm. Camaatın nə cür oturub

filmləri iştahla qəbul etdiyini, doyunca güldüyünü, razı qaldığını, atmosferin nə qədər canlı olduğunu gördüm. Dedim ki, "yəqin ki, bunun yanında mənim filmim getməz və getməməlidir". Belə də oldu. Filmi qoydular, iki seans göstərdilər və saxladılar ki, "Niyə biz öz cibimizi boşaldaq?" Filmə baxan

da olmadı.

Komediyalar çox ucuz qiymətə çəkilir. Məsələn, xarici təcrübə ölçüsü ilə mənim filmim qəpiyə əldə olunub. Bu film *(divara vurulmuş "Qisas almadan ölmə. Keçmişdən məktublar" filminin afişasını göstərir)* 1 milyon 644 min manata, 3 il ərzində Almaniya, Gürcüstan, Azərbaycanda çəkilib və iki dövrü əhatə edir. 8 ölkədən xarici mütəxəssislər çalışıb. Xaricdə bu filmi təqdim edəndə neçəyə başa gəldiyini soruşdular, mən də söylədim. İnanmadılar ki, bu qədər ucuz qiymətə bu cür filmi əldə etmək olar. O filmlər hansı ki, siz də sevmirsiz, kinoteatrlara getmirik, baxmırıq, onlar qat-qat, 50 dəfə daha ucuz qiymətə çəkilir. "Ucuz ətin də şorbası olmaz" deyiblər. Həm də onun özü, peşəkarlığı, mövzusu da ucuzdur, texnika və sairə hər şey. Mən artıq bu vəziyyəti bir reallıq kimi qəbul etmişəm, bu belədir... Ümid edək ki, bu, cəmiyyətimizin "boy atma xəstəliyi"dir. Sadə insanlar da seriallara baxırlar. Demək, Azərbaycan mentallığında bir sirr var ki, niyə bu belədir? Amma yox, seriallara bütün planet baxır (gülür) Məndən başqa...

***- Son zamanlar filmlərdə, komediyalarda söyüşlü jarqonlar, bayağı ifadələr işlədilir, ekranlara tez-tez oriyentasiyası fərqli kişi, fahişə qadın obrazları gətirilir. Sizcə, bu cür məsələlərə görə az da olsa senzuranın olması lazımdırmı?***

- Mən başa düşürəm, sada-



### "Seriallar aktyorları öldürür... "

lamaq olar: fahişə qadın, psixologiyası pozulmuş kişi, söyüş söyən tərbiyəsiz bir gənc və sairə. Görəsən, jurnalistlər buna fikir verirmi? Siz fikirlərinizi yazmısız buna görə? Yox. Siz gözləyirsiz ki, hansısa rejissor bunu tənqid etsin. Mənim zəhləm gedir o filmlərdən, amma bazarı mən tənzimləmirəm, idarə də

### "Zəhləm gedir o filmlərdən, amma bazarı mən tənzimləmirəm"

etmirəm. İş adamı da deyiləm. Amma öz aramızdır, bəzən senzuranın o qədər də artıq bir iş olmadığını düşünürəm.

Əslində isə mənim iki vəzifəm var, biri yeni rejissor nəsli hazırlamaq və çox canfəşanlıqla bu istiqamətdə çalışıram. Və hələ ki imkan verirlər, sağ olsunlar ki, mən filmlərdə də çalışıram, hələ ki alınır. Son filmim də ki, uğurlu bir iş sayılır. Çünki festivallarda 6 mükafat aldı, gətirdi ölkəyə. Və premyeralarda alqışlar gördüm ki, 10 dəqiqələrlə dayanmadı.

***- Qızınız Ayan xanım, deyəsən, sizin çox filmlərinizdə çəkilib.***

- Yox, cəmi 3 filmimə çəkilib. Amma onun çəkildiyi filmlər çoxdur. Azərbaycan, eləcə də Rusiyada, Türkmənistanda, Özbəkistanda da çəkilib. Bir sıra beynəlxalq mükafatları var.

***- Ata-qız çəkiliş meydançasında birgə işləmək asan, yoxsa çətindir?***

- Biz bu məsələyə toxunmuruq. Düşünürəm ki, ikimiz də Allahın köməkliyi ilə peşəkarıq. Çünki o, hansısa dərnəkdən ya şoudan gəlməyib, xoreoqrafiya məktəbindən sonra Moskvada Kinematoqrafiya İnstitutunun kinoaktyorluq fakültəsini bitirib. Müəllimi, ustadı da məşhur Aleksey Vladimiroviç Batalov olub.

***- Nədənsə Ayan xanım elə gənc yaşlarından çəkildiyi filmlərdə dramatik, ağır psixoloji obrazları oynayır. Bu onun şəxsi xüsusiyyətindən irəli gəlir, yoxsa rejissorlar onu bu cür obrazda görürlər?***

- İlk dəfə onu 6-7 yaşında Azərpaşa Nemət öz tamaşasına gətirdi. Ananın pyesi idi. Daha sonra "Ötən ilin son gecəsi" filmində balaca uşaq obrazını oynadı. Bunu o qədər dərin hisslərlə ifa etdi ki. Daha sonra "Təkcə adanı özünlə apara bilməzsən" filmində iştirak etdi. Ata olaraq demirəm, bu haqda bütün qəzet və jurnallar yazdı ki, obrazı dərin dramatik istiqamətdə ifa edib. Həqiqi göz yaşları və sairə, onda yalan yoxdur. Yadınızdadır "Günaydın mələyim", "Ovsunçu" filmində necə oynadı?.. Siz haqlı olaraq onun bu keyfiyyətini vurğuladız. Bu, onda var. O, çox təbii və səmimi, dərindən düşünən, hiss edən bir aktrisadır.

***-Yəqin ki, "Nabat" filminə baxmısız?***

-Təbii.

***-Filmin rejissoruna jurnalistlər sual verəndə ki, "Niyə iranlı aktrisanı çəkdiniz", onunla əsaslandırdı ki, azərbaycanlı qadınlar, eləcə də aktrisalar 30 yaşdan sonra formada olmur. Bu fikirlə razısınız?***

- Mən heç də məsələkdaşlarımla mübahisə etmək fikrində deyiləm. Yeni əgər rejissor öz filmi üçün həmin aktrisanı seçibsə, deməli, bu, onun seçimi, onun görüşüdür. Sənətkarın haqqı var. Tələbələrimə də deyirəm ki, əgər rejissor olmaq istəyirsənsə, bilməlisən ki, səninlə çalışan hər bir insanın ağası, atası, dayəsi, anası, qulu, köləsisən. Və bil ki, eyni zamanda sən nəinki onların rəhbəri, onların sahibisən. Amma sən daha çox peyğəmbər, hər kəsdən ağılı, ədalətli, mərhəmətli və alicənab olmalısan. Bax belə... Bircə yazıqlar olsun ki, son zamanlar yəqin ki, bazar iqtisadiyyatının təsiridir ki, aktyor və aktrisalarımızda çox dərindən düşünməmək və praqmatik olmaq görürəm. Təbii ki, ad çəkməyəcəm, çox sevdiyim, olduqca səmimi bir aktyor var. Amma son zamanlar onda nə isə dəyişib. Çünki seriallar öldürür aktyorları. Amma seriallara gedirlər, çünki orda gündəlik iş tapırlar, ailə saxlamaq üçün, bu da həqiqətdir.

***- Artıq 73 yaşınıza sayılı günlər qalıb. Əvvəlcədən sizi təbrik edir, yaradıcılıq uğurları arzulayırıq. Bu yaşdan gözləntiniz nədir?***

-İndi deyəcəksiz ki, qəzet üçün müsahibə verir və ona görə də belə deyir. Arzu edirəm o günü görüm, *(qəhərdən boğulur, gözləri dolur)*, sonra lap ölmək də olar. Hansı günü isə siz bilirsiz... İstəyirəm bir gün Şuşaya gedim. Mənim orda əcdadlarımın məzarı yoxdur, oxuduğum məktəb də orada deyil. Amma mən, sadəcə, razılaşa bilmirəm. Və inşallah, ümid edirəm ki... Amma bu son hadisələr *(4 günlük aprel savaşını nəzərdə tutur)* çox şeyi göstərdi. Bəzilərimiz, bəlkə də mən də bir az hövsələsizlik edirdik ki, "nə oldu, tez olsun, nə qədər vaxt olar?" Adamlar var idi tənqid edirdilər ki, "Niyə təmtəraqlı, böyük miqyasda tədbirlər keçirilir?" İndi hamımız üçün aydın oldu ki, qüvvə toplanılırdı. Yavaş-yavaş su axdıqca, dama-dama göl olar. Görün indi nə qədər qüvvəmiz toplanıb. Artıq diplomatlarımız da xarici jurnalistlər və müxbirlər ilə, hansısa bizə qarşı o qədər də xoş niyyətli olmayan insanlarla da rahat oturub öz mövqeyini cəsarətlə bildirirlər...

Müsahibəmizin sonunda Oktay müəllim bizim üçün köhnə, kökdən düşmüş pianosunda öz improvizasiyasını ifa etdi. Onun pianoda ifa etmək bacarığını o qədər də təəccüblə qarşılamadıq. Çünki hər kəsə məlumdur ki, yaradıcı insanlar adətən öz peşəsindən əlavə incəsənətin bir çox sahələri ilə də bağlı olur. Eləcə də 73 yaşlı, tanınmış rejissor Oktay Mir-Qasım.

❑ **Xalidə GƏRAY,**

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016

# İlhamə Quliyevanın ölümünə dair ilginc iddialar

## "O, oğlunun qəfil zəngindən sonra ölüb"

### Xalq artisti İlhamə Quliyevanın ölümündən artıq 3 ay ötür, amma müəmmalar davam edir...

**Onun qəfil ölməsi yaxınlarının və sənət dostlarının sui-qəsd, zəhərlənmə iddiasını irəli sürməsinə səbəb olmuşdu. Bununla da oğulluğu Orxan Nadirovun tələbi ilə ölümün səbəblərinin müəyyən edilməsi üçün kimyəvi və toksikoloji ekspertizalar təyin edilmişdi. Aprel ayında isə müəyyən olunan ekspertizanın nəticələrinə görə xalq artistinin ölümünə səbəb heç də zəhərlənmə deyil, hipertoniya və ürəyin işemik xəstəliyi nəticəsində hipertrofiyalaşmış ürək çatışmazlığı və qan dövranının pozulması olub.**

Müğənninin yaxınlarının mətbuata verdiyi açıqlamalara görə isə onun ürəyini "partladıb" öldürən səbəb qəfil gələn zəng olub. Bacısı İradə Quliyevanın sözlərinə görə, həmin zəngdən sonra müğənni bərk əsəbiləşib, halı pisləşib və birdən-birə qəfildən ölüb. Bu faktı İlhamənin dayısı oğlu Eldar İsmayılov da təsdiqləyib: "Bilirsiniz, İlhamə xanım nədən dünyasını dəyişib? Gecə ona zəng gəlib, nəsə deyiblər, ürəyi partlayıb ölüb".

**Müğənninin ölümünə şahid olan köməkçisi Fatma Əliyevanın verdiyi ilginc açıqlamalar bu müəmmaya azacıq da olsa aydınlıq gətirib. Köməkçinin sözlərinə görə, müğənni son vaxtlar kiminləsə danışıb əsəbiləşirmiş:** "Axırıncı zəng Orxandan gəlmişdi. Orxan fevralın 24-dən 25-nə keçən gecə zəng elədi, İlhamə xanım da əsəbiləşdi. Dedi ki, "niyə zəng etmisən? Yatmışam". Telefonla danışandan sonra əsəbiləşib, bədənində gərginliklər yaranmışdı. Təzyiqi enib-qalxırdı. Həmin gün mənə dedi, ürəyi sirkələnir, narahatdır. Soruşdum ki, təcili yardım çağırım? Dedi, yox, keçəcək. Gecə məndən qatıq və meyvə istədi. Bir az yedi və başladıq söhbət eləməyə. Dedi ki, Eldar müəllim xaricdən gəlsin, gələn kimi notariusa gedək, bütün hər şeyimi onun adına keçirəcəyəm. Bu barədə danışdıq, gecə saat ikinin yarısı yatdı və səhər 7-də durdu. Səhər təzyiqini yoxladım. Dedi, nəsə özümü pis hiss edirəm, bir az yatım. Yatdı, saat 10-nun yarısında durdu. Məni çağırıb dedi ki, "halım pisləşir, ürəyimə bax, elə bil ürəyimdə nəsə damar qırıldı. Deyəsən, mən ölürəm". Mən də qorxdum, dərhal Leyla xanıma zəng etdim və dedim ki, təcili yardım gəlsin. Leyla xanıma zəng edəndən sonra Eldar müəllimə zəng elədim, zəng çatmadı. Daha sonra Əli müəllimi və onun qızı Samirəni yığdım. Onlar da, təcili yardım da evə gələnə qədər İlhamə xanım qollarımda can verdi. Bu dəhşətli bir an idi".



**İ.Quliyevanın ölümündə oğulluğunu ittiham edənlərdən biri də müğənninin digər qohumu Əli Mirəliyevdir. O, son müsahibəsində Orxanın hansısa səs yazısı ilə müğənnini şantaj etdiyini deyib:** "İlhaməni həqiqətən də Orxan öldürüb. Bu adam İlhamənin başına min oyun açıb. Deputatlara, iş adamlarına pul atıb... Orxan İlhamə xanımı şantaj edirdi. Sən niyə o boyda sənətkarı şantaj etmisən? Demisən ki, səsini yazmışam, sən mənə pul verməsən, bu səs yazısını yayacam. Sənin səs yazını dövlət orqanlarına aparacam"...

Qeyd edək ki, adıçəkilən səs yazısı haqda bundan öncə mətbuatda məlumatlar yayılmışdı. Belə ki, müğənninin sabiq, hazırda həbsxanada olan köməkçisi Mehriban Hüseynova mətbuata ünvanlandığı məktubunda İlhamə Quliyevanı bitirəcək səs yazısı olduğunu bildirmişdi...

Lakin bəzi iddialara görə, İ. Quliyeva öz kanalları vasitəsilə istintaqa yaxın mənbələrdən öyrənə bilib ki, belə bir səs yazısı M. Hüseynovada yoxdur. Amma digər şəxsdə ola bilməsi ehtimalı İ.Quliyevaya rahatlıq vermirmiş. Yaxınları da onu mənzilinə gizli dinləmə qurğusu yerləşdirilməsinə inandırıblar. Guya ki, mənzildə baş verənlərin mətbuat səhifəsinə çıxması təsadüfi deyil, xüsusi dinləmə vasitəsilə mənzildə baş verənlər sonradan mətbuata ötürülüb. Bundan çox narahat olan müğənni mənzilə dinləmə cihazı axtaran mütəxəssislər də gətizdirib. İddiaya görə onun halı bu məsələyə görə çox gərginləşib və tez-tez ürək ağrılarından əziyyət çəkib. Köməkçisi Fatma Əliyevanın sözlərinə görə vəziyyətinin pisləşməsi isə daha çox oğulluğu Orxan Nadirovla bağlı zənglər olub:

### "İlhamə xanıma zəng daha çox Orxanla bağlı gəlirdi və o da əsəbiləşirdi"...

İlhamə Quliyevanın oğlulluğu Orxan Nadirovun adı tez-tez dələduzluq, borc qalmaqallarında səslənir. Onun hələ 2008-ci il may ayının 8-də xidmət etdiyi hərbi hissədə həbs olunduğu barədə məlumatlar var. O, qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma ilə ittiham olunub. Barəsində üç aylıq həbs-qətimkan tədbiri seçilib. Bu ilin yanvar ayında isə yaxın dostu Vüqar Bəkirov Heydər Əliyev adına hava limanında saxlanılaraq Binəqədi Rayon Polis İdarəsinə aparılmışdı. Hər iki şəxsdən heç yerə getməməsi barədə iltizam alınmışdı. Əli Mirəliyevin sözlərinə görə, Orxanla Vüqarı İmişlidən kiməsə pul "atdıqları" üçün saxlayıblarmış. İddiaya görə, Ağadadaş Ağayevin zəngindən sonra dostlar buraxılıblar. Köməkçi Fatma Əliyeva da həmin faktı öz müsahibəsində qeyd edib: "Ölməmişdən bir neçə gün qabaq xalq artisti Ağadadaş Ağayev İlhamə xanıma zəng edərək, Orxanın işi barəsində danışdı. İlhamə xanım da dəstəyi yerə asandan sonra halı pis oldu. Dərmanlarını atandan sonra sakitləşdi".

**Lakin Vüqar Bəkirov bugünlərdə məhkəmənin qərarı ilə dələduzluqda ittiham olunaraq 4 il azadlıqdan məhrum edildi. Həbsdə olan Mehriban Hüseynovanın vəkili Vasif Mirzəyev tezliklə Orxan Nadirovun da həbs olunacağını deyib:** "Onlar dələduzluq ediblər, potensial cinayətkar, dəfələrlə məhkum olunmuş insanlardır".

**Eldar İsmayılov isə deyib ki, Orxanın nəinki sənəti, təhsili, heç sürücülük vəsiqəsi də yoxdur:**

"Belə baxanda normal adama oxşayır, amma heç bir sənətin sahibi deyil. Mənə zəng edib deyirlər ki, Orxan hüquqşünasdır, yoxsa iqtisadiyyatla məşğuldur? Amma mənə elə gəlir ki, Orxan dələduzluğu özünə peşə seçib. Dələduzluğun axırı da bax belə olur. Şəxsən Orxanın kimlərdənsə pul alıb verməyi mənim nəslimə böyük zərbədir. Mən hər zaman İlhaməyə görə Orxana kömək olmuşam. Orxanın anası hər zaman mənimlə məsləhətləşərdi, atası isə məni böyük kimi qəbul edərdi. Amma sonra gördüm ki, bunlar artıq heç kimi saymırlar".

**Onu da əlavə edək ki, bugünlərdə müğənni Firuzə İbadova ona borclu olduğu 4500 manatı qaytarmadığına görə Orxan Nadirov barəsində baş prokuror Zakir Qaralova və daxili işlər naziri Ramil Usubova müraciət ünvanlayıb.**

❑ Xalidə GƏRAY

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## "Nar" mobil rabitə şəbəkəsini genişləndirməyə davam edir

### Abunəçiləri yüksək keyfiyyətli rabitə ilə təmin etmək məqsədilə 2G, 3G və 4G (LTE) baza stansiyalarının sayı artırılıb

**"Nar" abunəçilərin rahat və kəsintisiz mobil rabitə və internet xidmətlərindən yararlanması məqsədilə yeni baza stansiyalarının ölkə ərazisində quraşdırılması prosesini davam etdirir. Son 3 ay ərzində mobil operator ümumilikdə 46 ədəd 3G və 4G (LTE) yeni baza stansiyalarını istismara vermişdir.**

Gəlin birlikdə böyüyək

**Hazırda 5679 baza stansiyası vasitəsilə abunəçilərə kəsintisiz və yüksəkkeyfiyyətli mobil rabitə və internet xidməti göstərilir. Mobil operator ilin sonunadək baza stansiyalarının ümumi sayını daha da artırmağı planlaşdırır. Hazırda ölkədə heç bir mobil operatorun şəbəkəsi bundan yüksək göstəricilərə malik deyildir.**

**Bundan əlavə, "Nar" operatorunun gücləndirilmiş və genişləndirilmiş 4G (LTE) şəbəkəsinin istifadəçilərinin sayı dinamik şəkildə artmaqda davam edir. Şəbəkə keyfiyyətinin son yoxlanışı zamanı "Nar" LTE şəbəkəsi Abşeron yarımadası və Bakı şəhərində digər mobil operatorların şəbəkələrindən daha yüksək nəticələr göstərmişdir. Hazırda "Nar" LTE şəbəkəsindən faydalanmış istifadəçilərin ümumi sayı 30.000-dən çoxdur.**

**Mobil operatorun şəbəkəsi haqqında əlavə məlumatı nar.az internet səhifəsindən öyrənə bilərsiniz.**

## Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş

tibb elmləri namizədi, təcrübəli həkim

**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**

**Tel (051) 634-40-01**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 114 (6435) 26 may 2016

# Bakı niyə velosiped üçün uğurlu şəhər deyil?

## Reallıqlar və gerçək səbəblər barədə bilmədiklərimiz

**Velosiped biz bakılıların yaralı yeridir. Sağlamlığa faydalı olan bu nəqliyyat növünü sevsək də, onu sürməyə yerimiz və şəraitimiz yoxdur. Adi misal: uşaqlarımıza velosiped alırıq, amma onların parkda rahat velosiped sürməsi üçün yer olmadığını bilirik. Hər addımbaşı toqquşma, adamların "ay uşaq, başqa tərəfdə sür" giley-güzarı, danlaması... Qarışıq, basırıq parklarda uşaqların yıxılması, dizini qanatması, qol-qıçını sındırması ehtimalını da nəzərə alsaq, bakılılar üçün bunun niyə əzablı proses olduğunu anlamaq mümkündür.**



### Bilmirsən özünü valideynlərin narazılığından qoruyasan, ya terrorçu sürücülərdən

**Bakı qəsəbələrindən birində yaşayan Gülnar Əliyeva deyir ki, əvvəl televizorda velosiped sürənlərə baxıb xeyli həvəslənib. Özünə yeni velosiped alıb, bir neçə dəfə Bakı bulvarında sürməyə çalışıb, amma...:** "Adamların şikayətindən bezirsən. Valideynlər adamın üstünə qışqırır, çünki balaca uşaqları əzəcəyimizdən qorxurlar. Cavan oğlanlar söz atır, demək olar ki, adamı terror edirlər. Peşman olursan velosiped sürməyinə. Bakı bulvarında velosiped yolları olsa da, camaat onun velosiped yolu olduğunu bilmir. Buna görə də tez-tez toqquşuruq".

**Müsahibimiz deyir ki, hazırda velosipedlə ancaq gəzinti etmək mümkündür. Çünki onları getdikləri hansısa binanın qabağında saxlamaq imkanları yoxdur, oğurlaya bilərlər. Amma Gülnar xanım velosipedin təhlükəli cəhətlərindən də danışdı. Dedi ki, velosipedinin işığı yoxdur və qaranlıqda yolu görə bilmir. Bundan başqa, maşınların velosipedçini vurub qaçma ehtimalı da böyükdür:** "Ən vacib məqam isə odur ki, Bakı yolları velosiped üçün tamamilə əlverişsizdir. Səriştəsiz və qayda-qanuna riayət etməyən sürücülər insanı qorxudur. Nə bilirsən ki, yolla getdiyin yerdə maşın gəlib səni vurmayacaq? Yolun kənarı ilə sürsən belə, bu təhlükədən sığortalanmırsan".

### Kirayə velosipedlər - adı var, özü yox...

**G.Əliyeva onu da dedi ki, indi velosiped sürən xanımların işi lap çətindir. Çünki kişi sürücülər, piyadalar onlara söz atır, yolda vəziyyətini çətinləşdirirlər:** "Adama özünü pis hiss etdirmək üçün hər şeyi edirlər. Biz də velosiped sürmək yerinə özümüzü qorumaqla daha çox məşğul oluruq".

Velosipedlə bağlı tanınmış ekspert Altay Göyüşovun da xatirələri var. O, daha öncə bizə müsahibələrindən birində bu barədə danışıb. Deyib ki, Bakıda bəzi dünya şəhərlərində olduğu kimi kirayə velosipedlər verilsə də, bu, görüntüdə beləFdir. Belə ki, əsas qüsur velosipedi götürəndə şəxsiyyət vəsiqəsinin girov qoyulmasıdır və bu, qanunsuzdur. Bundan başqa, icarə velosiped götürənlərə çox kiçik ərazidə sürməyə icazə verilir. Polis sərhədi "pozmaq istəyənlərin" qarşısını dərhal alır.

Avropa şəhərlərində velosiped populyar nəqliyyat vasitəsidir. Parisdə velosipedlərin ilk yarım saatı pulsuzdur. Bundan başqa, orada velosipedlərin dayanacaqları var. İstədiyin dayanacaqda saxlayıb, velosipedi bağlaya bilirsən. Qeyd edək ki, təbiətə və ekoloji nəqliyyata olan xüsusi diqqətləri ilə seçilən 7,6 milyon nəfər olan İsveçrə əhalisi 2010-cu ildə yeni maşından çox yeni velosiped alıb. "Velosuisse" velosipedini təchiz edən İsveçrə assosiasiyasının məlumatına görə, keçmiş illərdə ölkədə 351 min yeni "dəmir atlar" satıblar. İsveçrədə 2010-cu ildə 2008-ci ildən 3 dəfə, 2005-ci ildən isə 22 dəfə çox - 39 min elektrik velosipedi satılıb. Bununla bahəm, adıçəkilən İsveçrə assosiasiyası "Auto-Suisse" avtomobilini idxal edir və 2010-cu ildə İsveçrədə velosipedlərdən 57 min az - 294 min yeni avtomobil satılıb.

### Qaydanı pozanlar 20 manat cərimə ödəyir

Bulvar İdarəsindən aldığımız məlumata görə, hazırda burada 90-a yaxın velosiped var. Şəxsiyyət vəsiqəsini qoymaqla icarəyə velosiped götürmək olar. Burada yalnız velosiped üçün nəzərdə tutulan hissədə gəzintiyə icazə verilir. Piyada zolağında və köhnə bulvarda hərəkət etmək qadağandır. Qaydanı pozanlar 20 manat cərimə ödəməlidir. Əgər velosiped müştərinin əlində xarab olarsa, bu, onun boynunda qalır. Onun xərci də müxtəlif ola bilər.

Nəqliyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Namiq Həsənov velosipedçilər üçün ümidverici xəbər verdi. Nazirlik rəsmisi milli.az xəbər portalına açıqlamasında bildirib ki, Azərbaycanda velosiped yolları olacaq, amma bunlar gələcək üçün nəzərdə tutulub. Onun sözlərinə görə, velo-yollarla əlaqədar nazirliyə gənclərin müraciəti var. İnsanların velosipedlə, xüsusilə də şəhərin tarixi yerlərində hərəkəti gələcəkdə nəzərə alınacaq.

Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsindən isə bildirdilər ki, velosiped yolunun olmaması onların təhlükəsizliyinin təmin edilməməsi demək deyil. Onlar yolun kənarı ilə başqa nəqliyyat vasitələrinin hərəkətinə mane olmamaqla hərəkət edə bilərlər. Velosipedlərin kütləvi halda istifadəsi olarsa, onlar üçün xüsusi yol salmaq olar. DYP-dən həmçinin bildirdilər ki, ölkədə velosiped sürənlərin sayı çox olmadığı üçün xüsusi zolağa da zərurət yoxdur.

Sovet Azərbaycanında isə paytaxtın baş planında velosiped yolları nəzərdə tutulubmuş. Ona görə də indi gözlənilən odur ki, velo-yollar haqqında qərar qəbul olunsun və layihəçilər hər hansı kompleksi və ya yaşayış rayonunu layihələndirəndə velosiped üçün də xüsusi zolaq yaratsınlar. Maşın yolu, piyada yolu kimi. Tədqiqat göstərib ki, həftədə velosipedlə 30 kilometr yol qət etməklə ürək xəstəliklərinin yaranma riskini düz 50 faiz azaltmaq mümkündür. Bu gəzinti zamanı müxtəlif qrup əzələlər işləyir və bu, yalnız ürəyə deyil, digər orqanların fəaliyyətinə də müsbət təsir göstərir. Velosiped sürməklə artıq çəkidən də xilas olmaq mümkündür. 1 saat velosiped sürən şəxs təxminən 300 kilokalori atır. Hər gün yarım saat velosiped sürmək 11 kiloqram piyi əritməyə imkan verir.

Yol hərəkəti haqqında 1968-ci ildə dünyada qəbul olunmuş konvensiyada isə bildirilib ki, nəqliyyat kimi velosipedin inkişafı üçün tədbirlər görülsün və bununla bağlı dövlətlərə xüsusi təklif də verilib. Buna görə də bir çox ölkələrdə yol infrastrukturunda velosipedlərin də hərəkəti nəzərə alındı və eni bir metr olmaqla velosiped zolaqları salındı. Konvensiyada velosipedçilərin yolda hərəkəti barədə də məlumatlar yer alıb".

### Velosiped üçün xüsusi zolaqlar gündəmdə deyil

Bakıda velosipedlərin hərəkəti üçün xüsusi zolaqlar çəkilməsi hələlik gündəmdə deyil. Bu barədə "Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəflinin mətbuata verdiyi məlumata görə, hələlik bu, planda deyil. Onun sözlərinə görə, gələcəkdə şəhərdə yeni yol salınarsa bu məsələyə baxıla bilər.

"Bunu mövcud yollarda etmək mümkün deyil. Bununla bağlı standartlar da müəyyənləşməyib. Lakin yaxın gələcəkdə yenidən qurulan yollarda belə bir təcrübə tətbiq edilə bilər", - deyə Anar Nəcəfli bildirib.

❑ **Sevinc TELMANQIZI**

# Rusiyalı turistlər Azərbaycana üz tutub

## Nazirlik rəsmisi: "Rusiya Azərbaycan üçün turizm baxımdan prioritet ölkələrdən hesab olunur"



### Turizm şirkətinin rəhbəri Məmməd Əliyev: "Bizim şirkətə hələ ki kütləvi müraciətlər yoxdur"

**Hotel və biletlərin axtarış xidməti "Skyscanner"in apardığı araşdırmaya görə, bu il Azərbaycana səyahət etmək istəyən rusiyalı turistlərin sayı 2015-ci ilə nisbətdə 90% artıb.**

"Skyscanner" araşdırma çərçivəsində 260 min rusiyalı səyyah arasında sorğu aparıb, həmçinin öz saytı vasitəsilə aviabilet sifarişlərini təhlil edib.

Resursun məlumatına görə, sifarişlərin yarısından çoxu (52%) Rusiya kurortlarının payına düşür. Proqnozlara görə, ümumilikdə, yay mövsümünün yekunu üzrə yerli səyahətçilərin ümumi sayından 60%-i Rusiyada istirahət edəcək.

Araşdırmaya əsasən, ruslar daxili istiqamətlərlə yanaşı tez-tez yaxın xaricdə də istirahət etməyə üstünlük verirlər. Belə ki, ötən illə müqayisədə Gürcüstana bilet satışı iki dəfə, Azərbaycana 90%, Bolqarıstana 31%, Qazaxıstana 20%, Ermənistana isə 16% artıb.

Ekspertlər bildirirlər ki, rusiyalı turistlərin Azərbaycana axın etmələrinə Rusiya-Türkiyə münasibətlərindəki gərginlik də təsir edib. Belə ki, ötən illərdə Türkiyəyə gedən rusiyalı turistlərin böyük bir qismi artıq alternativ axtarırlar. Alternativlər arasında Azərbaycan da var.

**Məsələ ilə bağlı Mədəniyyət və Turizm Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqə şöbəsinin müdiri Vüqar Şixəmmədov "Yeni Müsavat"a bildirib ki, nazirlik tərəfindən təsdiq edilən marketinq strategiyasına uyğun olaraq, Rusiya Azərbaycan üçün turizm baxımdan prioritet ölkələrdən hesab olunur:** "2016-cı ilin fevral ayından etibarən Rusiyanın paytaxtı Moskva şəhərində Azərbaycanın turizm nümayəndəliyi də açılıb, fəaliyyət göstərir. Bu nümayəndəlik eyni zamanda Azərbaycanın turizm təbliğatını da aparır. Bundan əlavə, qeyd edə bilərəm ki, nümayəndəlik Azərbaycandakı turizm obyektləri ilə xüsusi iş aparır. Moskvadan və eləcə də Rusiyanın ətraf bölgələrindən qiyməti 278 avro məbləğində olmaqla ölkəyə turlar təşkil edilir. Eyni zamanda Rusiyanın Ulyanovsk vilayətində də nümayəndəliyimiz fəaliyyət göstərir".

**Nazirliyin nümayəndəsi bildirib ki, bu proses davam etdiriləcək:** "İlin sonunda statistik rəqəmlərdə artıq biz Rusiyadan ölkəmizə nə qədər turistin gəlməsini dəqiq söyləyə biləcəyik. Bizdə olan məlumatlara görə, Rusiyanın turizm saytlarında, sosial şəbəkələrdə aparılan sorğularda Azərbaycan rus turistləri üçün ilk yerlərdə gəlir. Bu da normaldır. Çünki rus turistləri Azərbaycanda dil problemi yaşamırlar və daha rahat olurlar".

**"Fly Travel" turizm şirkətinin rəhbəri Məmməd Əliyev isə "Yeni Müsavat"a bildirib ki, hələ ki turistlərin ölkəyə kütləvi axınını müşahidə etmirlər:**

"Bizim şirkətə hələ ki kütləvi müraciətlər yoxdur. Azərbaycana bütün ölkələrdən gələnlər olur. Ancaq bu, kütləvi xarakter daşımır. Yəqin ki, növbəti aylarda belə bir axını müşahidə edəcəyik".

**İqtisadçı ekspert Rəşad Həsənov isə qəzetimizə açıqlamasında bildirdi ki, Azərbaycanda turizmin inkişafı üçün kompleks tədbirlər görülməlidir:**

"Azərbaycanda turizm sektorunun fundamental problemləri var. Ölkəmiz bu sferada həlә yeni fəaliyyətini formalaşdırmağa çalışır. Hazırda da bu istiqamətdə, kobud desək, bir sıra səhvlər var. Bu, qiymətlərin formalaşması, davranış qaydaları, xidmətin səviyyəsi, nəqliyyat və turizm sektorları arasındakı koordinasiya və digər bu kimi məsələlərdə özünü göstərir. Devalvasiyadan sonra qiymət məsələlərində nisbətən yumşalma hiss olunur. Bu da xarici valyuta ilə ölkəyə gələn turistin, əlindəki vəsaiti yerli valyutaya dəyişdikdən sonra, xidmətlərin ona əvvəlki illərlə müqayisədə ucuz başa gəlməsindən qaynaqlanır. Eyni zamanda onu da qeyd edək ki, Azərbaycanda xüsusilə hotelçilik biznesinin dayağı dövlət tədbirləri, rəsmi tədbirlər idi. Bundan qaynaqlanan dövlət büdcəsinin vəsaitinin istifadəsi məqsədi ilə fantastik qiymətlər müəyyənləşmişdi. Bu kimi tədbirlərin də sayında azalma müşahidə olunur. Artıq ölkəmizdə hotelçilik biznesi normal bazar şərtlərində fəaliyyət göstərməyə meyllənib. Keyfiyyətin səviyyəsinə gəlincə isə bunun yüksəldilməsi zaman alan məsələdir. Eyni zamanda bu da faktdır ki, Rusiya-Türkiyə arasındakı münasibətlərin gərginləşməsi Azərbaycana gələn rusiyalı turistlərin sayının artmasına təsir edəcək. Təbii ki, biz, iki dövlət arasındakı münasibətlərin gərgin qalmasını istəmirik. Ancaq reallıq budur. Lakin əgər regionda kompleks tədbirlər aparılmasa, Rusiyadan Azərbaycana turistlərin kütləvi axını da qısamüddətli olacaq".

❑ **Əli RAİS**

# YENİ MÜSAVAT

**Son səhifə**

*N 114 (6435) 26 may 2016*




## Üzdən qarpıza, içindən yemişə, dadından isə xiyara bənzəyən tərəvəz

Xarici görünüşünə görə qarpızı, daxildən yemişi xatırladan bu tərəvəzi çoxları tanımır. Onun dadı isə xiyarınkına bənzəyir. Şelenqo adlı tərəvəz Şanlıurfanın Viranşəhər bölgəsində yetişir. Kilosu təxminən 3 manat olan tərəvəzdən turşu, dolma və salatlar hazırlanır. Bundan başqa, meyvə kimi də gündə 3 dəfə yeyilə bilir. Tarlada yığılandan sonrakı 2-3 gün ərzində yeyilməli olan bu tərəvəz həm ekzotik görüntüsünə, həm də dadına görə diqqət çəkir.




## 16 min dollarlıq maşına 810 min dollarlıq nömrə aldı

Taylandda keçirilən hərracların birində 19 yaşındakı universitet tələbəsi ölkənin ən bahalı və ən şanslı sayılan Banqkok çıxışlı 1 .. 1111 seriyalı avtomobil nömrəsinə 25 milyon baht (təxminən 810 min dollar) pul ödəyib. Türkiyənin "Milliyet" qəzetinin xəbərinə görə, ölkənin ən nüfuzlu universitetlərindən biri olan "Assumption" Universitetində oxuyan Thanapat Tantisevekul "əgər lazım olsaydı 1,6 milyon dollara qədər artırmaya gedəcəkdim" deyib. 11 il əvvəlki hərracda bu nömrə üçün 11 milyon baht (təxminən 355 min dollar) verilmişdi. Nömrə üçün sərvət ödəyən gənc hərracı qazandığı üçün çox xoşbəxt olduğunu deyib və nömrəyə çox pul ödəməsi ilə bağlı rəylərə isə "o qədər də bahalı deyil" cavabını verib. Xatırladaq ki, tələbə 810 min dollarlıq nömrəni dəyəri 16 min dollar olan Nissan Almera avtomobilinə taxıb.

# Bir dəqiqədə 79 nəfəri qucaqladı

Hindistanın Andxra Pradeş əyalətinin sakini bir dəqiqə ərzində 79 nəfəri qucaqlamaqla dünya rekorduna imza atıb. Bu barədə "Guinness World Records" saytında məlumat yer alıb. Krişna Kumar adlı kişinin qabağına 88 nəfər şagirdi gəlib və növbə ilə ona yaxınlaşıblar. 60 saniyə ərzində kişi 83 nəfəri qucaqlaya bilib, amma Ginnesin Rekordlar Kitabının nümayəndələri qucaqlanan adamların cəmi 79-nu kitaba salıb. Bunu da onunla izah edib ki, qalanları qucaqlaşmadan daha çox əl vurub qaçmağa bənzəyirdi. Qucaqlaşma isə yaxın təmas və insanların əlləri ilə bir-birinin kürəyini sıxmasını əhatə edirdi. Kumar isə bildirib ki, Ginnesin Rekordlar Kitabına düşməsini insan üçün yüksəliş hesab edib. Bundan öncə eyni səpkili rekorda 2014-cü ildə Avstraliyada imza atılıb. Onu teleaparıcı Kerri Bikmor edib. O, 60 saniyə ərzində yerli uşaq xəstəxanasında 77 nəfəri qucaqlayıb.



# 22 il əvvəl alınan biletlə Disneylanda getdi

**ABŞ-ın Miçiqan ştatının sakini Disneylanda girmək üçün 22 il əvvəl valideynlərinin onun üçün aldığı biletdən istifadə edib. 1994-cü ildə ailə istirahətinin son günündə xəstələnən və bu səbəbdən də Disneylanda gedə bilməyən Çelsi Herlin həmin vaxtdan bəri istifadə edilməyən o bileti evində saxlayıb. Aradan 22 il keçəndən sonra Herlin bəxtini sınamaq üçün Disneylanda gedib. Lenta.ru saytının xəbərinə görə, Disneylandın işçiləri bileti qəbul ediblər və o, parka giriş imkanı qazanıb. Belə ki, biletin konkret olaraq son istifadə müddəti olmayıb və 27 yaşlı qadına o bileti yenisi ilə əvəz ediblər. Bundan sonra Herlin təklikdə onu maraqlandıran bütün attraksionlardan istifadə edib və orada təxminən 4 saat keçirib.**

Disneyland Amerikanın Kaliforniya ştatının Anahayme şəhərində yerləşən əyləncə mərkəzidir. Ona "Walt Disney - Walt Disney Parks and Resorts" şirkəti rəhbərlik edir. Disneylanda Uolt Disneyin ilk tematik parklarından olub. 17 iyul 1955-ci ildə açılıb.






## Yaddaşını itirən kişi arvadına ikinci dəfə toy edəcək

Amerikanın Tennesi ştatının sakini amneziyadan əziyyət çəkən həyat yoldaşı üçün yenidən toy mərasimi keçirməyə qərar verib. Amerika mətbuatının yazdığına görə, Ceremi və Castis Stamper ötən ilin 1 avqustunda nikaha giriblər. Toydan bir neçə həftə sonra isə qadın yol qəzasına düşüb və nəticədə onda çoxlu zədə və yaddaş itməsi müşahidə olunub. Uzun müalicədən sonra qadın düzəlib. Amma bir ay sonra Castis ərinə deyib ki, toy mərasimi də daxil olmaqla, qəzadan əvvəlki 5 həftəni tamam unudub. Qadın saatlarla toy şəkillərinə baxsa da, toy videosunu izləsə də, bu mənzərələr onun yaddaşına yardım edə bilməyib. Bu səbəbdən də Ceremi toy mərasimini təkrarlamağa qərar verib. Amma romantik ərin bu mərasim üçün pulu olmadığına görə internetdə insanlardan 5 min dollar yığmaları üçün xahiş edib. Bu xahişin necə nəticə verəcəyi isə sual doğurur. Toy mərasimi avqustun 1-də keçiriləcək.




**QOÇ** - Bu gün xırdaca mübahisəyə də getməməlisiniz. Əks halda, bəzi yaxınlarınızla aranızda soyuqluq yaranacaq. Situasiyaları kontrolda saxlasanız, axşam xoş ovqat qazanacaqsınız.

**BUĞA** - İşgüzarlığınız artdığından qarşınıza qoyduğunuz məqsədlərin əksəriyyətini reallaşdıra bilərsiniz. Bəxtinizin gətirəcəyinə ümid edin. Nahardan sonra ovqatınız xeyli yüksələcək.

**ƏKİZLƏR** - "Hakim" olduğunuz bu dövrün maliyyə uğurunu görməyə başlayacaqsınız. Saat 13-16 arası bu istiqamətdə daha əlverişli şanslar qazana bilərsiniz. Qərarlarınızda qəti olun.

**XƏRÇƏNG** - Cərəyan edən bütün proseslərə reallığın gözü ilə baxın. Çünki indiki dünya fantaziyaları qəbul eləmir. Səfərə çıxmaq üçün olduqca münasib gün olsa da, büdcənizə görə hərəkət edin.

**ŞİR** - İş mane olmasa, səyahət və doğmalarla görüşmək üçün əlverişli vaxtdır. Maddi durumunuzda da nəzərəçarpacaq irəliləyişlər mümkündür. Bütün hallarda tənhalığa aludə olmayın.

**QIZ** - Təxminən saat 11-dən 15-ə qədər bəzi xoşagəlməzliklərlə rastlaşa bilərsiniz. Bu səbəbdən də həmkarlarınızla, rəhbərinizlə nəzakətli davranın. Yersiz mübahisələr zərərinizədir.

**TƏRƏZİ** - Ulduzların düzümünə görə bu təqvimdə hər şeydən əvvəl səhhətinizi qorumalı, şər işlərdən uzaq olmalısınız. Çalışın ki, hisslərinizi cilovlayasınız. Axşam sürprizlə rastlaşacaqsınız.

**ƏQRƏB** - Zamanın nəbzini tutmaqda hələ də çətinlik çəkirsiniz. Tərslikdən lazımi adamların köməyindən də bəhrələnmirsiniz. Bəlkə papağı qarşınıza qoyub yaxşı-yaxşı düşünəsiniz?!

**OXATAN** - Peşəyönümlü fəaliyyətinizdə uğurlu nüanslarla qarşılaşacaqsınız. Perspektivli görüşləriniz də istisna olunmur. Əzmkarlığınızı artırsanız, qazanc da əldə edəcəksiniz.

**OĞLAQ** - O qədər də uğurlu gün deyil. Yalnız nahara qədər xırda nailiyyətləriniz ola bilər. Uzaq yola çıxmaq, riskli işlərə girişmək məsləhət deyil. Qida rasionunuzu zənginləşdirin.

**SUTÖKƏN** - Maddi durumunuzda irəliləyişlər gözlənilir. Lakin hansısa vacib məsələdə yanlış qərar çıxarmaq ehtimalınız da var. Odur ki, proqnozumuzu oxuyan kimi tədbir görməyə hazırlaşın.

**BALIQLAR** - Sövdələşmə aparmaq üçün şanslı vaxtdır. Amma gərək danışıqlar ikitərəfli istiqamətdə baş versin. Məxfi təkliflərə başdansovdu yanaşmayın. Ciddi işləri bu günə salmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən yaşlı begemotu öldü



Kiyev zooparkında dünyanın ən yaşlı begemotu ölüb. Brest ləqəbli begemotun 58 yaşı olub. Bu haqda zooparkın rəsmi internet səhifəsində məlumat verilib: "Bizim Bresta - dünyanın ən yaşlı begemotu yuxusunda ölüb. O, bizə öz sevinc və sevgisini 58 il dalbadal hədiyyə edib. Onun xeyirxah baxışları biz kiyevlilərin xatirəsində hər zaman qalacaq".

Bresta Leninqrad zooparkında dünyaya gəlib və 1973-cü ildə Ukraynaya köçürülüb.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750